Azərbaycanda Atatürk Mərkəzi

Rahid S.Ulusel

# Qloballaşma və Türk Sivilizasiyası

41815

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

ÇAŞIOĞLU
2005

Elmi redaktoru: *AMEA-nın müxbir üzvü, prof.* **Nizami Cəfərov**

**Azərbaycanda Atatürk Mərkəzinin Elmi Şurasının qərarı ilə çap olunur**

U42 **Rahid S.Ulusel**
**Qloballaşma və Türk Sivilizasiyası.**
Bakı: Çaşıoğlu, 2005. – 152 s.

Kitabda müasir dünya inkişafının qlobal prosesləri kontekstində türk sivilizasiyasının sistemtörədici mahiyyəti, seçkin mövqeyi, tarixiliyinin və çağdaşlığının vəhdəti problemləri araşdırılır. Dünya tarixinə qlobal baxışın yeni konsepsiyasından türk sivilizasiyasının gəlişmə prosesi öyrənilir. Şərq və Qərb sivilizasiyalarının interaksiyasında türk sivilizasiyasının önəmliliyinə diqqət yönəldilir. Türk mədəniyyətinin özəllikləri, yetkinlik bəhrələri dəyərləndirilir. Dünya türk milli dövlətlərinin vahid siyasi-kültür strategiyasının yaradılması və ondan çıxış edilməsinin zəruriliyi, eyni zamanda həmin strategiyanın başlıca imperativləri irəli sürülür.

İSBN 5-8066-1661-4

U $\frac{0301020000-061}{082-05}$

©"Çaşıoğlu" nəşriyyatı, 2005

## İÇƏRİ

*I. Türk sivilizasiyası və onun seçkinliyi* ............. *4*

*II. Dünya tarixinə baxışın yeni paradiqması: Planetar inkişafın diasinxroniya qanunauyğunluğu* ............. *17*

*III. Şərq və Qərb geopolitik-sivilizasion bloklarının formalaşması kontekstində türk sivilizasiyası* ............. *21*

*IV. Qlobal sivilizasiyaya doğru dünya inkişafı prosesində Şərq və Qərb sivilizasiyaları* ............. *63*

*V. Beynəlxalq münasibətlər sistemində geopolitik tarazlıq yaradılması və dünya birliyinə inteqrasiya problemləri türk sivilizasiyasının özünütəsdiq zərurəti ilə* ............. *86*

*VI. Türk planetariyasının Azərbaycan yurdu: Azərbaycan mədəniyyəti Qafqaz arxitektonikası ilə dünya mədəniyyəti kontekstində* ............. *108*

*VII. Dünya türk milli dövlətlərinin vahid siyasi-kültür strategiyası üzərinə* ............. *126*

**Qaynaqlar** ............. *140*

**Summary** ............. *146*

## Türk sivilizasiyası və onun seçkinliyi

Qloballaşma və sivilizasiya proseslərinin interaksiyası müasir dünyanın ən aktual problemləri sırasında diqqət mərkəzindədir. Qloballaşma əsasən müasirliyin, sivilizasiyalar isə tarixiliyin faktı kimi öz aralarında qarşılıqlı əlaqələrin bəzən toqquşan, bəzən harmoniyalaşan elə formalarını meydana gətirirlər ki, bunlar qlobal inteqrasiya proseslərinin xarakterinə olduqca mühüm təsir göstərir. Mövcud sivilizasiyalar fərqli səviyyəsi, tarixi identikliyi və dəyərlər kompleksi ilə müasir dünya inkişafında onun ən müxtəlif orientasiyalarını və onların çulğaşmasını törədirlər. Getdikcə aktuallaşan bu problemə dürlü yanaşmaları əks etdirən konsepsiyalar meydana çıxır, sivilizasiyaların təsnifatı üzrə yeni nəzəriyyələr meydana gəlir. Ancaq məsələ burasındadır ki, həmişə olduğu kimi yenə də bu nəzəriyyə və konsepsiyalarda dünya sivilizasiyaları təsnif edilərkən türk sivilizasiyası hadisəsi əsasən müəyyən siyasi mövqeləri əks etdirən maraqlara görə bilərəkdən elmi diqqətdən kənarda saxlanılır. Sivilizasiya nəzəriyyələrindəki təsnifata görə hətta Okeaniya da ayrıca bir sivilizasiyadır, fəqət türk sivilizasiyası yox. Bəşər tarixinin yetirdiyi ən möhtəşəm sivilizasiyalardan biri olan türk sivilizasiyasına bu məqsədli "diqqətsizliyin" səbəbi - bu sivilizasiyanın dünyanın siyasi-mədəni tarixindəki rolunu azaltmaqla



və ya heçə endirməklə həm də onun qlobal siyasi məkan bütövlüyünü meydana çıxaracağından ehtiyatlanmaqdır. Qloballaşma və sivilizasiya proseslərinin interaksiyasının intensivləşdiyi indiki çağda ümumdünya sivilizasiyasının tərkib hissəsi kimi türk sivilizasiyasının öyrənilməsi başlıca olaraq aşağıdakı üç səbəbə görə aktuallıq kəsb edir:

I.Tarixi zamanın yaşıdı olan türk sivilizasiyası dünyanın ən seçkin sivilizasiyalarındandır. Dövlət-imperiya quruculuğundan ornament yaradıcılığına qədər insan fəaliyyətinin bütün forma və səviyyələrində türk - sivilizasiya insanıdır. Avrasiyanın proloqu və epiloqu kimi Orhun abidələrindən Süleymaniyyə kompleksinə qədər türkün yaratdıqları - onun sivilizasiyasının antikliyindən klassikasınadək daxili bir orqanikaya malik olduğunu göstərir. Dünya mədəniyyətinin onun arxaikasından transsendental monoteosofiyasınadək bütün qatları və səviyyələri türk mədəniyyətinin içində laylanıb. Türk planetariyasına dünya bütün zənginliyi, dərinliyi, gen nəfəsi, yaradıcı mənəviyyatı ilə sığa bilir. Türk - özü olduqca, həm də dünya sakini, cahan əri, bəşər alpıdır. Sivilizasiyalılığın əsas şərtlərindən biri kimi əsilzadəliyin bütün şuxluğu, nəcib etikası, cəngavər zərifliyi türk ruhundan pardaqlanır. Vətəncil və dünyasevər türk budaqlandıqca, soykök özgürlüyünü və onun arxetiplərini qoruyub saxlamaq qüdrətindədir. Türk - planetin "dissidenti" nəinki ən bənzərsiz sivilizasiyalardan birini yaradandır, o həm də dünya sivilizasiyalarını bir-birinə hörən, calayan, onları deferensiasiya və inteqrasiyaya uğradan passionar enerji mənbəyi, mədəniyyətlərin qan daşıyıcısıdır. Əgər planet - canlı bir orqanizmdirsə, türk - onun damarlarında, arteriyalarında dolanan qandır, həyatını təzələyən, ona yaşam, hərəkət, dəyişmə qüdrəti verən qan. Planetin onurğa sütunu həm də türk

passionarlığının gücünə şax qalır. Türк sivilizasiyası ayrı-ayrı təzahürlər şəкlində deyil, sistem və proses (özü də böyüyən sistem, dərinləşən proses) şəкlində mövcud olmuşdur. Planetin tarixi həyatında sivilizasiyaların nəsil dəyişmələri baş vermiş və bir çox sivilizasiyalar yer üzündən silinib getmiş və ya başqa sivilizasiyalar içrə əriyib itmişlər. Türк sivilizasiyası isə, qeyd etdiyimiz кimi, tarixi zamanın yaşıdıtəк sivilizasiyaların Avrasiya boyunca nəsil dəyişmələrinin generatoru olmuş, bu dəyişmələrdən bəhrələnmiş və ya yeni doğulan sivilizasiyalara impuls vermişdir. Deməli, türк sivilizasiyası - təкcə özünü yaradan bir sistem deyil, dünya sivilizasiya quruculuğunun başlıca determinatlarındandır.

II. Mövcud sivilizasiya nəzəriyyələrində türк sivilizasiyası - İslam sivilizasiyasının daxilində, ən yaxşı halda onun subsivilizasiyası кimi təqdim olunur. Belə nəzəri кonsepsiyalar təкcə ona görə yanlışdır кi, bu mövqedən yanaşdıqda türкlərin islamaqədərкi ən azı min illiк inкişaf tarixi - bir-birini tamamlayan ayrı-ayrı mərhələlərdən ibarət inкişaf tarixi nəzərdən qaçırılmış olur. Halbuкi islamaqədərкi tarixində türкlər böyüк dövlətçiliк mədəniyyətinin (Avrasiyanın davamlı dövlətçiliк tarixinin yaradıcıları məhz türкlərdir), maddi və mənəvi mədəniyyətin, xüsusilə müкəmməl yazı mədəniyyətinin, tranzit texnologiyasının sahibi olmuşlar. Avrasiyanın özünü bütöv qlobal məкan кimi hiss etməsinin tarixi özünüdərкi prosesi məhz türк sivilizasiyasının quruluşyaradıcı, inteqritörədici təbiəti ilə bağlıdır. Buna görə də türк sivilizasiyası həm islamaqədərкi tarixi, həm İslam dövrü, həm də modern çağının ardıcıllığını və inteqral birliyini nəzərdə tutan elmi кonsepsiya ilə həqiqi dəyərində öyrənilə bilər. Bizim irəli sürdüyümüz yeni sivilizasiya nəzəriyyəsi - sivilizologiya məhz bu кonsepsiyadan çıxış



edərəк türк sivilizasiyasının dünya sivilizasiyaları orqaniкasında yerini və rolunu gerçəк tarixdə olduğutəк müəyyən etməyin metodoloji кompleкsini təqdim edir.

III. Qloballaşma sivilizasiyalararası münasibətlərində həm də onların hər birinin identiкliк əsasları ilə iştiraкını zəruri edir. Substansial seçкinliyi olmayanlar bu qlobal inteqrasiya proseslərində ümumi axına qarışıb yoxlamaq təhlüкəsindədir. Qloballaşmanın sərt reallığıdır кi, dünya ölкələri XXI əsrin ilк yarısında milli mədəniyyətlərini ya itirən, ya da saxlayan ölкələr qrupunda yer ala bilər. Son üç yüz ildə xüsusilə Osmanlı imperiyasının çöкməsi, Avrasiyada Rusiya imperiyasının yaranması və türк dünyasına mənsub ölкələrin böyüк əкsəriyyətinin bu imperiyaya qatılması və nəhayət, həmin imperiyanın (siyasi statusunda SSRİ-nin) dağılması ilə əlaqədar olaraq türк sivilizasiyası əhəmiyyətli diferensiasiya prosesləri кeçirmişdir. Hazırкı qlobal-sivilizasion şəraitdə isə türк sivilizasiyası qaçılmaz inteqrasiya zərurətini yaşayır. Bu proses qlobal inteqrasiya proseslərinin təbii və məqsədəuyğun tərкib hissəsi, idarə olunan proses olmalıdır. Türк sivilizasiyası tarixi inкişafının bütün məntiqi ilə türк milli mədəniyyətlərinin harmoniyasından ibarət olan özünün daxili vəhdətini tapma və yaratma güvənliyini gücləndirməlidir. Bu labüd tendensiya qlobal sivilizasiyaquruculuğunun ən dinamiк prosesləri ilə uzlaşmalı, birləşməli, onun başlıca strategiyalarında özünü ifadə etməlidir. Buna uyğun olaraq, türк sivilizasiyasının nüvəsini təşкil edən dünya türк milli dövlətləri vahid siyasi-кültür strategiyasından çıxış etməlidirlər кi, biz son fəsildə bu problemdən xüsusi bəhs edəcəyiк. Müasir dünya sivilizasiyaları orqaniкasında element və ünsür кimi deyil, öz rəngarəng bütövlüyünü yaratmaq və təsdiq etməк qüdrətində olan seçкin bir sivilizasiya кimi qərarlaşmağın zərurətini yaşayan

türk sivilizasiyası məhz bu gerçək mahiyyəti və problemləri ilə birgə öyrənilməlidir.

Türk sivilizasiyasının özünüdərk və özünütəsdiq zərurətini çağdaşlaşan dünya proseslərinə uyarca yüksək siyasi uzaqgörənliklə bəyan edən böyük Mustafa Kamal Atatürk olmuşdur: "Ey Türk millətil Sən yalnız qəhrəmanlıq və cəngavərlikdə deyil, mənəviyyat və sivilizasiyada da insanlığın şərəfisən. Tarix, yaratdığın sivilizasiyanın öygüləri ilə doludur. Varlığına qəsd edən siyasi və ictimai amillər bir neçə əsrdir yolunu kəsmiş və yürüşünü çətinləşdirmiş olsa da, on minillik fikir və mədəniyyət mirası ruhunda saf və tükənməz bir qüdrət halında yaşayır. Yaddaşında minlərcə ilin xatirəsini daşıyan tarix, sivilizasiya mərhələsində layiq olduğun yeri sənə barmağı ilə göstərir. Oraya yürü və yüksəl. Bu sənin üçün həm bir haqq, həm də bir borcdur" [52, s. 74]. Atatürk ideyasınca türk sivilizasiyası ulu keçmişinin, yaradıcı indisinin və bunlar üzərində təməllənən böyük gələcəyinin bütövlüyü ilə seçkinliyinin dəyərlərini meydana çıxara, varlığını bütün əzəməti ilə sübuta yetirə bilər: "Milli ideala tam bir vəhdət şəklində yürüməkdə olan türk millətinin böyük millət olduğunu bütün sivilizasiya aləmi az zamanda bir daha tanıyacaqdır. Əsla şübhəm yoxdur ki, Türklüyün unudulmuş böyük sivilizasiyalı mahiyyəti və böyük sivilizasiya qabiliyyəti bundan sonrakı inkişafı ilə gələcəyin yüksək sivilizasiya üfüqündə yeni bir günəş kimi parlayacaqdır" [45, c. 2, s. 272]. Bizim də vəzifəmiz türk sivilizasiyasının seçkinliyini onun əsas təzahür xüsusiyyətləri ilə öyrənməkdən və qlobal inteqrasiya proseslərində bu sivilizasiya məkanına mənsub dövlətləri real vəhdətə doğru aparan mövqe və orientasiyaları müəyyənləşdirməkdən, habelə qlobal siyasətdə Avrasiyanın bu güclü faktoruna qarşı müxtəlif münasibətləri ayırd etməkdən



ibarətdir.

Sivilizasiya proseslərinin öyrənilməsində əldə olunan ümumiləşdirilmiş əsas qənaətlərə görə, sivilizasiya - ayrı-ayrı mənəvi epoxaların homoloji və analoji parametrləri ilə eyni sinxronik müstəvidə kəsişən, "eynizamanlaşan" fenomeni [107, c. 1, s. 195-196, 268-278], hər birinin özünəməxsus orqanik həyatı və ritmi olan qapalı, lokal hadisə [99, s. 47-498], tarixin "mehvərli zaman" strukturunda bəşəri mənəviyyatın bütövlüyünü yaradan substansiya [112, s. 29-280], sosio-psixogenezisində mədəniyyət düşüncəsinin ictimai fəaliyyət tiplərinin varisliyini, davranış etiketlərinin mühafizəkarlığını və modifikasiyasını təmin edən proses [109], spesifik bütövlüyə, fəlsəfi-etik dünyagörüşünün özünəməxsus əsaslarına malik olan mədəniyyət tiplərinin tsiklik fluktuasiyasının tarixi prosesi, XX əsrdə dərin böhran keçirən "hissi" mədəniyyətin rasionallaşma mərhələsi, sosial mobillik və sosial stratifikasiya gerçəkliyi, qlobal tarixi tsikllərlə mərhələnən, daim transformasiyaya uğrayan struktur-hadisə, homouniversumun semiotik müxtəlifliyinin faktoru, "dünya birliyinin yeni arxitekturasının yaradılmasına" yol açan ümumbəşəri praktikanın toplanması [102, s. 417-444], daim bir-biri ilə toqquşma vəziyyətində olan [122], bir-birini əvəz edən, mədəni müxtəlifliklərі özündə daha geniş miqyasda sintez edən [7, s. 82-98] məkan-hadisə, xüsusilə, müəyən bir dinin və onun çevrəsində formalaşmış mədəniyyətin nüvəsində təşəkkül tapan və həmin din və mədəniyyəti də öz genotipində özülləşdirərək inkişaf etdirən fenomenal prosesdir. Bəşəriyyət tarixinin son beş min ilində mövcud olan lokal sivilizasiyaların dövri olaraq nəsil dəyişmələri baş verir, onların tərkibi mahiyyət və məzmunca dəyişikliklərə uğrayır, etnocoğrafi-etnomədəni hüdudları genişlənir və daralır, identikləşmə

prosesi ilə bir-birilərindən fərqlilik, seçimlilik xüsusiyyətlərini yaradırlar. E.ə. birinci minilliyə qədər Qədim Misir, Mesopotamiya, Kiçik Asiya, Hindistan və Çin sivilizasiyaları nəsli planetin sivilizasiyalaşmasının ilk təməl mərhələsini yaradır. Bu nəsildən bir neçə sivilizasiya - Misir, Şumer, Het növbəti mərhələyə adlaya bilmir. İkinci mərhələdə Hindistan, Çin, Fars sivilizasiya subyektləri öz müstəqilliyini və dinamikasını saxlamaqla Aralıq dənizi hövzəsinin sivilizasiyalar nəsli önə çıxır. İmperializm epoxasına qədər Asiya, Avropa və Amerika sivilizasiyaları nəslinin bir-birini əvəzləməsi, bir-birinə qaynayıb qarışması, bir-birində udulmasının hələ yetərincə öyrənilməmiş çox mürəkkəb prosesi baş verir. XIX əsr və XX əsrin birinci yarısında Qərbi Avropa sivilizasiyası dünya ölkələrinin əksəriyyəti üzərində hakim olsa da, xeyli dərəcədə dəyişikliyə uğramış, ancaq kifayət qədər modernləşə bilməyən lokal Asiya sivilizasiyaları mövcudluğunu davam etdirirdi. Həmin dövr üçün beş üçüncü nəsil sivilizasiyası müəyyən edilir: Qərb, Pravoslav, Uzaq Şərq, İslam və İnduist sivilizasiyaları [99]. XX əsrin sonundan başlayaraq sənayedənsonrakı dünya sivilizasiyasının təşəkkülünün mühüm fazası kimi - lokal sivilizasiyaların dördüncü nəslinin özünütəsdiq prosesi müşahidə edilir. Sivilizasiyaların tərkibi getdikcə daha çox müxtəlif, mürəkkəb quruluşlu və diferensial xarakterli olur. Hazırda dünyada sivilizasiyaların Qərb qrupunda - özünün subsivilizasiyaları kompleksindən ibarət olan Avropa, Avrasiya, Şimali Amerika, Latın Amerikası sivilizasiyaları, sivilizasiyaların Şərq qrupunda - İslam, türk, yapon, Çin, hind, həmçinin Afrika və Okeaniya sivilizasiyaları vardır.

Ümumdünya sivilizasiyalaşma prosesində - tarixi inkişafın diasinxroniyasında lokal sivilizasiyaların interaksiyası, ortaq-universal dəyəryaratma praktikası-



nın getdikcə qloballaşması bəşəriyyəti - planetar vəhdətini yaratmaq istiqamətində hərəkət edən homouniversumu sistem kimi formalaşdırır. Tarixi-sosial quruluşlanmanın özünəməxsus xüsusiyyətlərinə malik olan sivilizasiyanın sistemyaradıcı - mənəviyyatyaradıcı nüvəsini mədəniyyət təşkil edir.

Müasir dünyanın sivilizasiya həyatı özünü diferensial və inteqral proseslərin interaksiyası, struktur dinamizmin mütəhərrik fenomeni, müxtəlif forma, səviyyə və tendensiyalarında transformativ-konfiqurativ quruluşlanma kontinuumu kimi təqdim edir:

Qlobal sivilizasiyaya doğru dünya inkişafı planetar konvergensiya prosesində elə bir inteqral quruluşun" yaranmasına imkan açır ki, burada sivilizasiyalararası münasibətlərin əməkdaşlıq, yaxınlaşma zərurəti və amili ziddiyyətlilik realilərini və amillərini həmişə neytrallaşdırmağa məcbur olur. Qloballaşma, regionallaşma və antiqloballaşma proseslərinin əksyönəlişli istiqamətlənmələri şəraitində - bu proseslərə adekvat olaraq planetdə mərkəzəqaçma və mərkəzdənqaçma tendensiyaları qlobal geosivilizasiya dəyişmələrinin xarakterində də özünü göstərir. Geosivilizasion və geopolitik proseslər bir-biri ilə tarazlaşmaq zərurətini daşıyır, - sivilizasiyalararası münasibətlər beynəlxalq münasibətlər sisteminin tərkib hissəsi kimi bu sistemin dinamikasına xüsusi yön verir, çünki hər bir sivilizasiya müəyyən cəmiyyət və dövlətlər qrupunun iradəsini və mövqeyini zahiri-deklarativ, dəyişkəndiplomatik formada yox, daxili özünütəsdiqmüqavimət, tarazlaşma təzahüründə ifadə edir, buna görə də siyasi-hərbi cəhətdən məğlub olmuş, iqtisadi cəhətdən asılı vəziyyətə düşmüş sivilizasiya uzun müddət barışmazlıq ruhunda müqavimət göstərmək gücünü itirmir (XIX əsr və XX əsrin birinci yarısında dünya sivilizasiyalarının əksəriyyəti bu situasiyanı ya-

şamışdır). Beynəlxalq hüquq normaları çərçivəsində anarxiyanın qarşısını almaq, dünya düzəni yaratmaq səyləri geosivilizasiya proseslərinin konvergensiyasında sinarxiya prinsiplərinə riayət etmək zərurəti ilə uzlaşır. Beynəlxalq sistemin tarazlı inkişafına mane olan iki ifrat tendensiyanın - qlobal neoimperializm və qlobal terrorizm qarşıdurmasının güclənməsi geopolitik-geosivilizasion müstəvidə daha radikal təzahürlərində meydana çıxır və təhlükəli nəticələr doğuran, getdikcə qloballaşan bu problem sivilizasiyalararası münasibətlərin qarşılıqlı anlaşma və ümumbəşəri meyarlar əsasında tənzimlənməsinin ən optimal variantlarını tətbiq etməyi gündəmə gətirir. Dünya düzəninin yaradılması da iki əks strategiyasında - qlobal hegemonluq və qlobal özünüidarəetmə strategiyalarında bifurkasiyalaşır, onların da birincisi - dominant sivilizasiya, ikincisi isə tarazlı-sivilizasion inkişaf paradiqmasından çıxış edir. Beləliklə, müasir dünya bütün başlıca paramertlərində geopolitik münasibətlərlə sivilizasiyalararası münasibətlərin mürəkkəb konvergensiyası kimi özünü təqdim edir. Lokal sivilizasiyaların qlobal sivilizasiya tərkibində quruluşlanması bu konvergensiya amilini də nəzərə almaqla dünya sisteminin formalaşması üsulu olur. Bu prosesdə qlobal inteqrasiya özünün əsas antiqoniyasını təzahür etdirir: Subyektlər (dövlətlər, sivilizasiyalar) qlobal inteqrasiyaya girərkən, öz maraq və mənafelərini də bu sistemdə motivləşdirmək məqsədində olurlar. Universal aktın komponentləri həmin subyekt aktlarının cəmindən törəyir. Məhz bu zaman - uyar və antoqonist iradə aktlarının özünügerçəkləşdirməsi məqamında onlar arasındakı siyasi, iqtisadi, sivilizasion ziddiyyətlər baş qaldırır: birinə sərf edən variant o birinə sərf etmir, bir güclü subyekt digərlərini özünə bu və ya digər formada tabe etmək, təsir dairəsinə almaq niyyətində olur. Buna



görə də dünya sisteminin formalaşmasında beynəlxalq hüquq və qlobal siyasət elə bir tarazlıq vəziyyətini tapmağı və onun kriteriyalarını müəyyən etməyi bacarmalıdır ki, bu mürəkkəb prosesdə aralarındakı mövcud ziddiyyətlərin maksimal həddə həll edilməsi, yatırılması mümkün olan subyekt aktları universal aktın tərkib hissəsinə çevrilə bilsin. Bu isə yalnız ümumdünya özünüidarəetmə sistemi mexanizmlərinin yaradılması ilə mümkündür. Hazırkı mərhələdə isə dövlətlərarası - sivilizasiyalararası real durumu əks etdirən konfliktoloji xəritələrin hazırlanması, konfliktoloji analiz və proqnozların aparılması və həll yollarının tapılması üçün onların müvafiq beynəlxalq təşkilatlara təqdim edilməsi çox zəruridir. Qloballaşma - siyasət və mədəniyyətin bir-birinə nə qədər yaxın, bir-birindən doğar olduğunu, fərqli sivilizasiya identikliklərinin nəzərə alınmasının nə qədər əhəmiyyətli, dünyaqurucuğu problemlərinə sistemli yanaşmanın vacib olduğunu göstərir. Sivilizasiya problemləri və qlobal siyasi problemlər həm qoyuluşu, həm də həlli mərhələlərində bir-biri ilə uzlaşdırılmasını tələb edir. Buna görə də müasir dünyada sivilizasiyaların, mədəniyyətlərin ayrıcalığından daha çox onların arasındakı münasibətlərin xarakteri, tipologiyası müvafiq sosial-siyasi, humanitar elmlərin, xüsusilə fəlsəfə, kulturologiya və siyasətin diqqət mərkəzindədir. İdendikliyi və universallığı harmoniya təşkil edən milli mədəniyyətlər müəyyən bir lokal (regional) sivilizasiya məkanında məhz ayrıcalıq, fərqlilik, özünəməxsusluq atributları ilə universallaşma, universal dəyəryaratma potensialına malik olduqlarını bu gün də təsdiqləyirlər. Məsələn, dini orientasiyasına görə İslam sivilizasiyası məkanına daxil edilən ərəb ölkələri, İran, Pakistan, Türkiyə, Azərbaycan, İndoneziya, Şimali Qafqaz, Albaniya, Bosniya və s.-də İslam din, ideologiya, mədə-

niyyət və s. aspektlərinə görə xeyli dərəcədə fərqlidir. Əgər yüzilliklər ərzində İslam kimi kanonik bir din bu ölkələri və onların xalqlarını yekrəng edə, bircürləşdirə bilməyibsə və yaxud buna çalışmayıbsa (çünki İslam tarixən həm də müxtəlif milli mədəniyyətlərin polifoniyası üzərində qərarlaşan, bu vəhdətdən bəhrələnən və onların hər birinə ümumi səy nəticəsində yaranmış universal dəyərləri ötürən bir inteqral sivilizasiya məkanı olmuşdur), yalnız onları əsasən monoteist əsaslarına və digər mütərəqqi cəhətlərinə görə vahid dini-sivilizasion müstəviyə gətirə bilibsə, deməli, qloballaşma kimi liberal bir hərəkat da onları eyniləşdirə, amorflaşdıra bilməyəcək (İkiyüzillik rus imperiyası da Azərbaycanı, eləcə də identikliyə sahib olan digər ölkələri milli cəhətdən ruslaşdıra, ideoloji cəhətdən kommunistləşdirə bilməmişdi). Buna görə də bir sıra sivilizasiya nəzəriyyəçilərinin etdiyi kimi, yalnız dini və yaxud ideoloji orientasiyasına görə mədəniyyətləri lokal sivilizasiyaların tərkibində komponentləşdirmək, onların fərqliliklərini müəyyənləşdirmək doğru deyil. Mürəkkəb mahiyyətli bu hadisə özünə kompleks yanaşmanı tələb edir. Qlobal sivilizasiyaya doğru dünya inkişafının bir mühüm qanunauyğunluğu da bundan ibarətdir ki, o, sivilizasiya proseslərinin statikasından yox, diasinxron dinamikasından konvergensiyalaşır. Planetdə hansısa bir lokal çevrədə əbədi olaraq dəyişməz qalan donuq sivilizasiya yoxdur. Sivilizasiya - mahiyyətcə etnik, tarixi, coğrafi, siyasi sərhədlərini müəyyən əsaslar üzərində dəyişən, yeniləşən, transformasiyalaşan və həmhüdud regionlarda vibrasiya edən dinamik hadisədir. Mədəniyyət, sivilizasiya tarixi-müasir sinkretizasiyası prosesində əldə etdiyi ümumiliklərin kompleksini yaradır. Bu ümumiliklərin miqyası həmişə böyüməkdə, mahiyyəti dərinləşməkdədir. Sivilizasiya hadisəsinə dinamik-sinarxik sistem



kimi qlobalistik-sivilizoloji yanaşmada lokal (regional) sivilizasiyalar sırasında böyük etnotarixi-etnosiyasi identikliyə və inkişaf potensialına, böyük mədəniyyət və dövlətçilik ənənələrinə malik olan türk sivilizasiyası - Avrasiyanın seçkin və giqant bir sivilizasiya subyekti olaraq müəyyənlik tapır. Əsasən Mərkəzi Asiya, Ön Asiya və Qafqazdakı geosivilizasiya proseslərində strukturlaşan mütəşəkkil türk sivilizasiyası - bütövlükdə planetin sivilizasiyalaşmasında mühüm rol oynamış, qeyd etdiyimiz kimi, tarixən bir sıra lokal sivilizasiyaları bir-birinə bağlayan konsentrativ - kommunikativ məkan əhəmiyyəti daşımışdır. Buna görə də yalnız dini orientasiyasına görə dünya türk milli dövlətlərinin və xalqlarının yaratdığı türk sivilizasiyasının İslam sivilizasiyası tərkibinə daxil edilməsini elmi cəhətdən əsaslandırılmamış sayırıq. Çünki türk sivilizasiyası və onu təşkil edən milli mədəniyyətlər islam dünyası ilə nə qədər yaxın tarixi təmas, müştərək inkişaf ənənəsinə malik olsa da, həm identiklik, həm də universallıq keyfiyyətlərinə, dünyəvi-ümumtürk orientasiyasına görə "İslam sivilizasiyası" çərçivəsinə sığmır. Məsələn, türk sivilizasiyasının nüvəsini təşkil edən ölkələr - Azərbaycan, Türkiyə, Qazaxıstanda islam əsasən dini mədəniyyət qatı səviyyəsindədir. Bu ölkələrdə şərqlilik və qərbliliyin, ümumiyyətlə planetarlığın orqanikası vardır. Avrasiyanın öncül türk dövləti Türkiyə islam-modernləşmə sintezi ilə öz perspektivini Avropa Birliyi məkanında görür. Azərbaycan da Avropa siyasi-hüquqi məkanına orientasiya götürmüşdür. Buna görə də qərbyönlü ortodoksal nəzəri klassifikasiyalar olduqca şərtilik və birtərəfliliyində, bəzən də "divide et impera" siyasətinin nəzəri-ideoloji fiqurasiyasında özünü göstərir. İslam, Xristian, Buddist sivilizasiyalarına aid edilən bir çox milli dövlət və mədəniyyətlər əslində həmin sivilizasiya hüdudların-

dan kənara çıxır. Azərbaycanda İslam və Qərb mədəniyyətinin təsiri və mövcudluğu, demək olar ki, eyni səviyyədə, özü də bənzərsiz sintezindədir. ABŞ, Azərbaycan, Yaponiya, Rusiya, Ukrayna, Qazaxıstan və bu kimi ölkələr dünyada böyük əksəriyyət təşkil edirlər ki, onlar milli mədəniyyət, regional sivilizasiya xüsusiyyətlərini saxlamaqla, qlobal sivilizasiya məkanında inkişaf etməyin unikal imkanlarına malikdirlər. ABŞ bir çox parametrlərinə görə Qərb sivilizasiyaları blokuna aid edilsə də, o hazırda ümumdünya sivilizasiya ölçüləri ilə strukturlaşan bir ölkə xarakterində müəyyənləşir. Çin, Yaponiya, Hindistan isə qlobal sivilizasiya məkanına öz klassik fundamenti və onun meyarları ilə daxil olur. Harmoniya prinsiplərinə maddi və mənəvi dünyanın bütün sahələrində riayət etmək ənənəsinə sahib olan Çin qloballaşmanı həm də özünütəkmilləşdirmə prosesində yaşayır. Çində fəlsəfi-siyasi doktrina və ideologiyaların tarixi transformasiyası elə bir möhkəm geotipli milli mədəniyyət zəminində gedir ki, bu təkamül mahiyyət dəyişməzliyinin forma dəyişkənliyini yaradır: formasiyalar, sistemlər, texnologiyalar dəyişir, Çinsə kataklizmlərdən keçsə də, həmin təməl prinsiplərə uyğun olaraq sabit dinamik inkişafını davam etdirir. Qloballaşma proseslərində güclü milli mədəniyyət özülü ilə fəal iştirak edən Yaponiyanın özünümodernləşdirməsi onun qlobal sivilizasiya məkanında seçkin mövqeyini müəyyən edir. Deməli, yalnız özünəməxsusluqların konvergensiyasında qloballaşma, eyni zamanda onun təşəkkül etdirdiyi faza - qlobal sivilizasiya öz həqiqi substansiyasını, planetar əhəmiyyətini qazanmış, təsdiq etmiş olur.



# Dünya tarixinə baxışın yeni paradiqması: Planetar inkişafın diasinxroniya qanunauyğunluğu

4815

Dünyaya bütöv sistem kimi yanaşmaya əsas verən nəzəriyyələr, müasir dövrdə bəşər sivilizasiyasının qlobal dərki zərurəti ilə irəli sürülən konsepsiyalar və eyni zamanda, formasion və sivilizasion yanaşmaların uzlaşdırılması, ümumi bir müstəviyə gətirilməsi bəşəriyyətin qloballaşma epoxasına doğru bu epoxa da daxil olmaqla təkamül prosesinin qlobalistik-sivilizoloji metodologiya ilə öyrənilməsinə təməl qoyur. Qlobalistik-sivilizoloji metodologiya vasitəsilə bəşəriyyət tarixinin sistem və özüquruluşlanan proses şəklində öyrənilməsi onun diasinxroniyasının mahiyyətini üzə çıxarır. Diaxroniya və sinxroniya anlayışlarını elmə (konkret olaraq dilçiliyə) gətirən Ferndinand de Sössür sinxron və diaxron hadisələrin ümumi bir cəhətə malik olmadığı qənaətində idi. Ancaq sistemli yanaşma sinxroniya və diaxroniya qanunlarının vəhdəti ilə mümkündür. Strukturalizmin inkişafı və onun metodlarının humanitar və təbiət elmlərinə yayılması nəticəsində diaxroniya və sinxroniya anlayışlarının tətbiq dairəsi də xeyli genişlənmiş, onların qarşıqoyulması ilə yanaşı, bir-biri ilə qarşılıqlı şəkildə bağlılığı da sistemli yanaşmada uğurlu sayılmışdır. Sosiumun təkamül dinamikasının dərkində diaxroniya tarixi və sinx-

İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

yən konseptual yanaşma da səmərəlidir. Diaxroniya və sinxroniyanın dixotomiyasından inkişaf və funksionallaşmanın, təkamül və quruluşlanmanın, tarixiləşmə və strukturlaşmanın dixotomiyasına nəzəri keçidlər yaranır. İnkişaf prosesinin özü onun müəyyən bir obyektinin və ya hadisəsinin strukturunun daimi formalaşması (həm də formadəyişməsi - deməli, məzmun dəyişməsi) və yenidəntəşəkkülüdürsə, onda həmin prosesin özüquruluşlanan sistem şəklində öyrənilməsində də diaxroniya və sinxroniya dixotomiyasından istifadə etmək zəruridir. Beləliklə, qlobalistik-sivilizoloji metodologiya vasitəsilə tədqiq üsullarının müvafiq aspektlərindən də bəhrələnərək müəyyən etmək mümkündür ki, bəşəriyyətin tarixi həyatı - özünü təşkil edən və dərk edən orqanik sistemdir.

Bəşəriyyət tarixinin diaxron inkişafı onun sinxron inkişafı ilə stratifikasiyalaşır. Diaxroniya (ardıcılzamanlılıq) sinxroniyanı, sinxroniya (eynizamanlılıq) diaxroniyanı şərtləndirir. Bu kontekstdən yanaşdıqda, tarix - sadəcə aktların təkrarlanması, növbələşməsi deyil, həm də bir-birini tamamlaması və stimullaşdırmasıdır. Eyni zamanda baş verən hadisələr bir-biri ilə əlaqədə olub-olmamasından, bir-birinə təsir edib-etməməsindən asılı olmayaraq bütöv kompleks halında zaman ardıcıllığında laylanır. Tarixin müəyyən mərhələsində planetin bir optimal sahəsində yaranmış sivilizasiya ilə onun digər ərazilərindəki primitiv durumun yanaşı mövcudluğu tamamilə təbiidir. Primitiv durum sahəsi tarixin hansı pilləsindəsə özünün sivilizasiya potensialını gerçəkləşdirmək məqamını gözləyir. Ayrı-ayrı mərhələlərdə planetin başqa regionlarından da həmin əraziyə axan sivilizasiya təcrübəsi avtoxton sivilizasiyanın qatlarına çökərək burada tamamilə yeni bir sivilizasiya mühitinin formalaşmasına təkan olur. Bu mənada planetin bütün ərazisi potensi-



al sivilizasiya məkanıdır. Yanaşı mövcud olan (sinxrondurumlu) sivilizasiyaların bir-birini stimullaşdırması və ortaq sivilizasiya dəyərlərindən yeni sivilizasiya örnəklərinin yaranması isə spontan xarakterlidir və tarixi inkişafın əsas hərəkət mexanizmidir. Deməli, əslində eynizamanlılıq (sinxroniya) ardıcılzamanlılığın (diaxroniyanın) daxili mahiyyətini ifadə edir. Ağacın kökündən budağınadək boyartımı, iç zoğundan qabığınadək en kəsiyinin laylanması kimi diaxroniya olmadan sinxroniya, sinxroniya olmadan diaxroniya mümkün deyil. Eyni zamanda baş verən hadisələrin sinxroniyasından tarixin diaxroniyası pillələnir. Tarixin hər hansı bir yeni mərhələsində onun bütün keçmiş mərhələlərinin yaddaş və təcrübəsi - onların hətta inkar edilməsi halında - yaşarıdır. Tarixin diasinxroniyası - onun indisi və gələcəyindən bütün keçmişinin sinxroniya qatları və diaxroniya mərhələləri ilə görünməsidir. Tarix - bütün keçmişini özü ilə gətirən indi və gələcəkdir, diasinxronik zaman axarıdır. Tarixin orqanikasında onun diaxroniya və sinxroniyası gövdə və onun en kəsiyi kimi ayrılmazdır. Gövdənin inkişafında tarixin diaxroniyası, en kəsiyində isə onun sinxroniyası ifadə olunur. Hər yaşanan çağın fokusunda diaxroniya (ardıcılzamanlılıq) və sinxroniya (eynizamanlılıq) mütləq və arasıkəsilməz koordinasiya məqamındadır. "Zamanların rabitəsi qırılanda" (V.Şekspir) tarixin "vakuumu" yaranır. Diasinxroniyalaşma - tarixi bütövləyir. Onun müəyyən bir pilləsindən bütün məqamlarına, bütün məqamlarından müəyyən bir pilləsinə ya bilavasitə, ya virtual yollar var. Planetar inkişafın diasinxroniyasında həm dərininə, həm eninə bəşəriyyətin təkamül prosesinin bütün mərhələləri daxili quruluşlanma məntiqi və prinsipi ilə öz əksini tapmış, bəlli yerini müəyyən etmişdir. Qloballaşma epoxasına doğru həm kəmiyyət, həm də keyfiyyət baxımın-

sına doğru həm кəmiyyət, həm də кeyfiyyət baxımından diasinxroniya prosesi öz optimumunaçatma qanunauyğunluğu ilə güclənir və genişlənir. Müxtəlif sferaların əlaqələnmə və təsir dairəsi böyüyür. Diaxron axarında sinxron hadisələrin diapazonu genəlir, qarşılıqlı fəaliyyət aкtları intensivləşir, münasibətlərin gərginliк dərəcəsi artır, çoxvariantlaşır, loкal olanın qlobal mühitə, qlobal olanın loкal mühitə siyarətetmə səviyyəsi yüкsəlir.

Planetar inкişafın diasinxroniya qanunauyğunluqluğu tarixin bütün xronosofiyasını özünəməxsus harmoniк arxiteкtoniкası və təzadları ilə təsəvvür etməyə imкan verir.



## Şərq və Qərb geopolitiк-sivilizasion bloкlarının formalaşması konteкstində türк sivilizasiyası

Dünyanın müasir elmi nəzəriyyəsində bəşəriyyətin tarixi təкamülünün yeni кonsepsiyası sistemliliк, dinamizm, özünütəşкil və diasinxroniya formulları və prinsiplərinin qarşılıqlı vəhdəti ilə həmin təкamül prosesinin tam mənzərəsini, qlobal panoramını yaratmaq səyindədir.

Kainatın günəş sistemi məкanında - yer кürəsində həyatın əmələ gəlməsi - onun özünütəşкilində ən böyüк və əhəmiyyətli hadisə olaraq dünyanın maddiliyindən mənəviliyinə və əкsinə кeçilişinin ilк mərhələsi кimi ona görə uniкaldır кi, məhz bu təкamül prosesində təşəккül tapan insan tarixi öz optimumunaçatma durumunda кosmosivilizasiya ilə geosivilizasiyanın daha yüкsəк elmi əsaslarda münasibətlərinin qurulmasına zəmin hazırlayır. Antiк fəlsəfədən müasir astronavtiкaya qədər ardıcıl düşüncə tarixi, ideya layihələri кosmoloqosla homoloqosun bu vəhdətinə çatılmasına səy göstərmişdir. Bu vəhdət sayəsində insan - ən yüкsəк intelleкtual səviyyədə, ali mənəvi-ruhi qatda təbiətin özünəbaxışı olur. Təbiət - yaratdığı insan və onun idraкı, mənəviyyatı vasitəsilə özü-özünə baxır, özünü dərк edir. Kainat harmoniyasında кosmiк subyeкt olan insan - təbiətin özünüdərкetməsi, кosmiк subyeкtin - insanın fəaliyyəti - təbiətin özünüdərкet-

məsinin prosesi olur. Buna görə də yer planeti üzərində homosivili-zasiyanın genişlənməsi, genişləndikcə məzmunlaşması, mahiyyətləşməsi məntiqi kosmoloqosun məntiqinə proeksiya oluna bilir. Kainatın genişlənməsi (R.Tom və V.İ.Arnoldun nəzəriyyəsinə görə) homosivilizasiyanın tarixində xüsusilə qloballaşma vasitəsilə özünü sosiumda təkrar edir. R.E.Rovinskinin qeyd etdiyi kimi, "ondakı (Kainatdakı) genişlənmənin və soyumanın ölçüsünə uyğun olaraq elementlərin mürəkkəbləşməsi, sistemlərin təşkil olunması, nizamlılığın artması prosesləri getmiş, eyni zamanda maddənin ilkin bircürlüyü və bundan törənən proseslər onların cürbəcürləşməsinin artması ilə əvəz olunmuşdur. Buna əmin olmaq üçün, başlanğıcdan bizim günlərədək Kainatın genişlənməsi sürəcində çatılan ən başlıca məqamları qısaca sadalamaq kifayətdir". Kosmosun müşahidəsindən bəlli olan "Kainatın genişlənməsi və onun tədrici inkişafı - bizim dünyamızın inkişafdan kənarda mövcudluğunun mümkünsüzlüyünü əyani şəkildə göstərmişdir" [96, s. 69-76]. Kainatın yaranmasından təqribən 1-2 milyard il sonra - 4 milyard il öncə yer planetində biosfer sistemi yaranmağa başlamışdır. 70-110 milyon il bundan əvvəl biosferdə mühüm dəyişikliklər baş vermiş, ilk dəfə planetin həyat mühitini oksigen okeanında daha dinamik şəkildə təkamülə uğradan meşələr yaranmışdır. Biosfer sistemi ilkin birhüceyrəli orqanizmlərdən hominidlərin, həmin mürəkkəb quruluşlu canlılardan Homo sapiensin yaranışınadək özünüquruluşlayıcı təkamül prosesi keçmişdir. Məhz insanın planet tarixində meydana çıxmasından sonra biosferlə antroposferin xaoharmonik sinergiyalı (birgə hərəkət) münasibətləri formalaşmışdır. Biosfer təkamülündən onun tərkib hissəsi, inkişaf dönəmi kimi insanın yaranışı - planetin loqos-həyata başlaması, deməli, insanın özünüyaratması tarixinin,



dünyanın gələcək idarəolunması, özünüidarəetmə tarixinin açılması perspektivinin, eyni zamanda, vəhşihəyat törəmələrindən etik-həyat alternativinin seçilməsinin ilk mərhələsidir. Yer kürəsinin geoloji tarixinin bizim günlərədək davam edən təkamül mərhələlərində noosfer dönəminin yaradıcısı insan öz sosial təbiətində bundan sonra hər iki təkamülün - biosfer və noosferin qarşılıqlı əlaqəsinin - koevolyusiya balansının strukturlaşdırıcı dominantlığını yaşatmaq zərurətini daşıyır. Ancaq insan fəaliyyətinin təsiri ilə biosferin stixiyalı dəyişdirilməsinin getdikcə artan tempi - xüsusilə kənd təsərrüfatçılığı və sənayeləşdirmə nəticəsində planetin üz qabığının təhlükətörədici həddə əsaslı dəyişikliklərə uğradılması homoloqosun sivilizasiyalaşma proseslərinin mükəmməl xarakter daşımadığını bəlli edir. Buna görə də sistem olaraq biosferin inkişafındakı böhran situasiyaları Yer noosfer sivilizasiyasının özünütəşkil proseslərindəki sarsıntılarla müşayiət olunur. Üzvi aləmin təkamülündə əvvəlindən sonunadək fərdi inkişafı ümumnöv inkişafının daxilində strukturlaşdıran filogenez və ontogenezin bir-birini şərtləndirmə qanunauyğunluğu (təbii qanunauyğunluq) Homo sapiensin həyatının tarixəqədərki və tarixi mərhələlərinin birləşməsi və sosiallaşması qanunauyğunluğunda, subyekt-sosium münasibətlərinin quruluşlanmasında da (sosial qanunauyğunluq) özünü göstərir. Antropogenez və sosiogenez də qətiyyən müstəqil və paralellikdə davam edən proseslər şəklində yox, bir-birini şərtləndirən proseslər halında üzviləşir. Sosial şüur natural-sosial həyatı tənzimləməkdən ötrü (məsələn, ailə, dövlət modellərinin formalaşması) stimullaşır. Arxaikadan antikliyə doğru böyük tarixi təkamülün proqramı fəaliyyətə düşür. Ancaq insan tarixə başlasa da, yenə təbiət olaraq qalır. İnsanın irsi-genetik kompleksi ilə sosial-etik kompleksinin vəhdət-

lənməsi homosivilizasiya tarixinin xaraкterini müəyyən edən ən başlıca faкtora çevrilir. İnsan cəmiyyətinin təкamül prosesi sosial orqanizmin yaranması və ierarxiyalaşması istiqamətində davam edərəк struкtur və ərazi genişlənmələrinə açılır. Paleolit, mezolit, neolit və eneolit mədəniyyətlərinin mövcud olduğu təqribən 2 milyon 500 minillik bir dövrün yarısından bəri - Afriкadan insan əcdadlarının yayılması, son 100 min ildə Homo sapiensin meydana çıxması və son 40 min ildə planetin hər iкi yarımкürəsində məsкunlaşmasından sonra [130, s. 1-10] bu məsкunlaşmanın loкal çevrələri böyüyür, sıxlaşır, çevrələrarası münasibətləri struкturlaşdırmağın ilк sosial zərurəti meydana çıxır.

Bəşər tarixinin ən qədim çağlarından müasir dövrümüzədəк inкişafının ən ümumi cizgiləri ilə diasinxroniк cədvəlini təqdim edən fundamental "Dünya tarixi" sivilizasiyaönü mərhələdən sivilizasiya mərhələsinə кeçidin dəyişкən panoramını əsas hadisə və qabarıq görüntüləri ilə canlandıra bilir. Burada bəşəriyyətin tarixi iкi böyüк zaman layının - b.e. 1500-cü illərinədəк "Böyüк Sivilizasiyalırın İnкişafı" və 1500-cü illərdən müasir dövrümüzədəк "Qlobal İnteqrasiya Çağı"nın ardıcıllığı və bütövlüyü şəкlində təqdim edilir [130]. Bu metodologiyanın özü artıq tarixə qlobal yanaşmanın mahiyyətini bildirir. Həmin metodoloji yanaşma meyarının yaradıcılarından biri A.Toynbidir кi, onun fiкrincə "əgər bəşəriyyətin yaşı təqribən 300 min il hesablanırsa, onda indiyədəк insan tarixinin müddəti ilə eyniləşdirilən sivilizasiyanın yaşı həmin zaman кəsiyinin iкi faizindən də az vaxta bərabər olur" [99, s. 92].

Tarixin erкən çağlarında etnobirliкlərin yayılaraq həyat üçün daha əlverişli ərazilərdə məsкunlaşması və ilк sosial-siyasi təşкilatlanmalarının nəticəsi olaraq yaratdıqları dövlət və şəhər-dövlət formalarının



getdiкcə təкmilləşməsi planetar inкişafın diasinxroniyasının (yanaşı - interaкtiv hərəкət və yanaşı - interaкtiv mövcudluq) başlanğıc mərhələsi sayıla bilər. Etnobirliкlərin yayılması və sosial кompaкtlığında birləşməsi - iкi zahirən bir-birinə əкs olan bu istiqamətlər (кöçmə və şəhərləşmə) planetdə sivilizasiya areallarının genişlənməsi və dayanıqlaşmasının ən mühüm şərtlərindən olmuşdur. Oturaq və кöçəri xalqların yüz illərcə sülh və müharibə şəraitində davam edən təması ilə interaкsiya prosesləri daimiləşməyə və sürətlənməyə, etnoslararası çoxçeşidli münasibətlər formasına düşməyə başlamışdır. E.ə. IX-VII minilliкlərdə Yaxın Şərqdə başlamış "neolit inqilabı"nın əsas areallarından olan, Asiya ilə Avropa arasında minilliкlər boyu кörpü rolunu oynayan Anadolu "bəşəriyyətin tərəqqisində çox mühüm əhəmiyyət кəsb etmişdir" [78, s. 4-5]. Cənubi Anadolunun Konya düzənliyindəкi Çatal-Hüyüк ərazisində aşкar edilən "neolit şəhəri" e.ə. VII minilliкdə salınmış və təqribən e.ə. 5600-cü illərədəк mövcud olmuşdur [78, s. 8]. "Müxtəlif irqlərin qarışığından ibarət olmuş", özlərinin müasiri qonşu xalqlarla müxtəlif səviyyələrdə əlaqələr qurmuş hetlər, deməк olar, bütün Anadolu ərazisini əhatə edən, e.ə. I minilliyin ortalarınadəк davam edən dövlət və nəhayət, imperiya yarada bilmişlər. Hetlərin şərq qonşuluğundan - Ön Asiyada Van, Urmiya ətraflarındaкı ilкin vətənlərindən iкi min il ərzində (e.ə. III-I minilliкlər) Avropaya, Hindistana və digər ərazilərə doğru кöç edən ulu hind-avropalılar, bir qədər sonra - e.ə. I minilliyin ortalarından b.e. I minilliyinin axırlarənadəк Xəzər dənizinin şimal və cənub yönlərindən кeçərəк əкs istiqamətdə Avropaya və Kiçiк Asiyaya doğru hərəкət edən hunlar və türкlər, etnomiqrasiyaların, yerdəyişmələrin başqa traeкtoriyalarını cızan sкiflər, sarmatlar, alanlar və s. etnoslar Avrasiyada etniк, dövlət və sivi-

lizasiya quruculuğunun tarixi mərhələlərini yaratmış, Avrasiyanın gələcək seçkin sivilizasiyalarının identikliyinə bünövrə qoymuşlar. Qədim Misirin Orta Çarlıq dövrünün rəsmi sənədlərinə görə təqribən e.ə. XV əsrədək Egey dənizinin Avropa sahillərindən Krit adasına, buradan da Misir və Anadoluya axey və başqa etnosların axınları olmuş, e.ə. XVII əsrin sonlarına yaxın Egey dənizi, Peleponnes və Mərkəzi Yunanıstanda yayılaraq öz sivilizasiya mərkəzini Kritdə yaradan Minoy ulusunun müasir geopolitika terminologiyasında da işlədilən "talassokratiyasına" ("dəniz hökmranlığına") e.ə. 1400-cü illərdə son qoyulmuşdur [99, s. 63-64]. E.ə. VII-IV minilliklərdə planetin qərb yarımkürəsində - Mezoamerika və And dağlarında yaranan neolit sivilizasiyası Anadolu, Mesopatamiya, Hindistan, Çin, Misir sivilizasiyaları ilə yaşıd olsa da, o, Avrasiyadakı kimi genişlənmə və əlaqələnmə intensivliyi əldə edə bilməmiş, Kolumbaqədərki dövrdə bütün kontinentdə əhalinin üçdə-iki hissəsi onun yalnız 6,2 % ərazisində yaşamışdır [130, s. 9-10; 71, s. 452-457]. E.ə. III minillik - I minilliyin ortalarında Afrikanın şimal-şərqində (Misir), Qərbi Asiya, Egey hövzəsi və Avrasiya hüdudlarında (Şumer, Akkad, Babilistan, Assuriya, Minoy, Axey, Het, Yunanıstan, İran, Qafqaz, Skifiya və s.), Cənubi, Şərqi və Mərkəzi Asiyada (Hindistan, Çin, Türküstan və s.) və planetin digər regionlarında bəşər sivilizasiyasının inkişafı bir-biri ilə bağlı olan bir neçə istiqamətdə - sosial-siyasi təşkilatlanmaların dövlət orqanizminə çevrilməsi, dövlətin müəyyən gəlişmə həddində imperiyalaşması, təsərrüfat və ticarət ənənələrinin zənginləşməsi, cəmiyyətdaxili sosial strukturun təbəqələnməsi, praktiki və intellektual sahələrin ayrılması, mədəniyyətin sütunlarını təşkil edən elm, din, fəlsəfə və təhsilin elitar cəmiyyətin həyatında müxtəlif səviyyələrdə yönəldici funksiya daşımağa başlaması, böyük dinlərin, dini-fəlsəfi cərəyan və məktəblərin formalaşması və aparıcı mövqeyə qalxması, xalqlar və dövlətlərarası münasibətlərin hərbiləşməsi, siyasiləşməsi və diplomatikləşməsi, seçkin sivilizasiyaların indentikləşməyə - özümləşməyə və indentifikasiya - tutuşdurma aparmağa can atması, təcridolma və qaynayıbqarışma, rəqibləşmə və dincyanaşı yaşama psixolojisinin qarşılıqlı münasibətlərin xarakterində qabarması yönündə və təzahürlərində davam etmişdir. Etnoyayılmalarla şəhər-dövlətləşmənin ayrıcalığında, qoşalığında və çarpazlaşmasında inkişafı planetin sivilizasiyalaşmasının ən effektli hərəkətvericisi olmuşdur. Bu tarixi proseslərin nəticəsi olaraq qədim dünyanın struktur-sivilizasion seqmenti özünü aşkarca nəzərə çarpdırır. Sivilizasiya quruculuğunun elə klassik tarixi (maddi və mənəvi) məkanları müəyyənləşir ki, onların bu günümüzədək davam edən proseslərə, ölkələr, xalqlar arasındakı münasibətlərə təsirsiz ötüşmədiyi bəlli olur. Qədim dünya özünü bütövlüyündə müasir dünyaya gətirir - özünü onun yaddaş saxlancında yaşadır. Müasir meqapolislərin ilk antik modeli şəhər-dövlətdir: "Şəhər-dövlətin genezisi - eyni zamanda baş verən inteqrasiya və bölünmə tarixidir. Bölünmüş tayfa və birliklərin inteqrasiyası, onların səpəli mövcudluğunun müəyyən bir yeni bütövlüyə transformasiyası və paralel olaraq - onların təbiətdən ayrılmasıdır. Yer üzərində ilk şəhər xüsusi qarşılıqlı fəaliyyət məkanı, interkommunikasion bağlantı kimi yaranmışdır" [86, s. 65]. Bunu nəzərə alaraq O.Şpenqler qeyd edirdi ki, "ümumdünya tarixi - şəhər adamanın tarixidir" [107, c. 2, s. 92].

E.ə. VI-V əsrlərdən planetar inkişafın diasinxroniyasının ikinci mərhələsi - Sakit okeandan Atlantik okeanına qədər Avrasiyanın bütün mövcud sivilizasiyalar məkanını (Afrikanın cənubu və Mezoamerika da

daxil olmaqla) əhatə edən ərazisində imperiyalaşma ilə başlayır. Homogen sivilizasiya mühitlərinin, qapalı sosial universumların genişlənməsi və bir-birinə daha intensiv şəkildə qovuşması ilə planetin irqi-etnik xəritəsi xeyli dəyişir, yeniləşir. E.ə. VI əsrin ortalarında Yaxın Şərqdə dörd böyük dövlət (imperiya) var idi: Midiya, Lidiya, Babilistan və Misir. Ancaq VI əsrin sonuna yaxın nəinki həmin ölkələrin əraziləri və nüfuz dairələri, həmçinin, şərqdən qərbə doğru - Hind çayından Egey dənizinə, şimaldan cənuba doğru - Böyük Qafqaz dağ silsilələrindən Nil vadilərinə qədər böyük bir ərazi Əhəməni imperiyasının tərkibində birləşdirildi. Əsasən etnik passionarlıq, hərbiləşdirilmiş - mərkəzləşdirilmiş dövlət sistemi, vergiyığma və iqtisadiyyatdan uğurlu faydalanma üstünlüyü və digər amillərlə şərtlənən imperiyayaratma texnologiyası bu və ya buna bənzər şəkildə Aralıq dənizi hövzəsindən Çin sahillərinədək nəhəng Avrasiya qurşağında mövcud olmuş simbiozdurumlu və bir-birini əvəzləyən - adətən hərbi yolla yenən və yenilən imperiyaların varlıq üsulu kimi təkrarlanmışdır (Bu epoxanın imperator titulu - "böyük hökmdar, hökmdarlar hökmdarı, ölkələr hökmdarıdır" [71, s. 143]). Böyük dinlər və ideologiyalar ya bu imperiyalarla qarşı-qarşıya dayanmış, ya da onun ifadə vasitəsinə çevrilmişdir. Buna görə də planetar inkişafın diasinxroniyasında imperiyalaşma və sivilizasiyalaşma paradiqmalarının toqquşduğu, paralelləşdiyi və səsləşdiyi məqamların sintezi daha dolaşıq, mürəkkəb və ziddiyyətli formasında tarixin sonrakı dövrlərinə də ötürülmüşdür.

E.ə. V əsrin əvvəllərindən Kiçik Asiyadan Balkanlara - Avropaya doğru hərəkət edən Əhəməni imperiyasının yunan polisləri ilə 30 il ərzində apardığı müharibələr, nəhayət, onun məğlubiyyəti ilə nəticələndi. 250 polisi özündə birləşdirən Delos sülh müqavilə-



si Yunanıstanı bütün Aralıq dənizi bölgəsində dominanta çevirdi. Afina Elladanın bir çox şəhərlərini öz ətrafında birləşdirən böyük mərkəz kimi önə çıxdı. E.ə. IV əsrin ortalarında Yunanıstan daxili müharibələr nəticəsində zəiflədi, əsas müttəfiqlərini itirdi, regionda başqa qüvvələr hegemonluq uğrunda mübarizəyə başladılar. Filippin apardığı ordu islahatı Makedoniyanı Balkan yarımadasının ən güclü dövlətinə çevirdi. Makedoniyalı İsgəndərin dövründə (e.ə. 336-323) tarixdə ilk dəfə olaraq Avropa və Asiyanı birləşdirən nəhəng imperiya yarandı. Antik çağın imperiyalaşma hərəkatı (özünəbirləşdirmənin ən müxtəlif variantları), imperiya idarəçiliyi (metropoliya - periferiya münasibətləri), imperiya siyasəti (hegemonluq rolunun bütün vasitələrlə qorunması) - üç qitənin (Avropa, Asiya, Afrika) istila etdiyi ərazilərini özündə birləşdirən Roma imperiyası ilə (e.ə. I - b.e. V əsrlər) klassik səviyyəsinə çatır. Birlikyaratma və totallaşmanın təşəbbüskarı olan meqapolis ulusu Romada b.e. I əsrində əhalinin sayı bir milyon nəfərdən az deyildi. Bu epoxanın imperiyaçılıq ruhunu Siseron dəqiq ifadə etmişdi: "Öz müttəfiqləri tərəfindən müdafiə olunan bizim xalqımız bütün dünyaya sahib olmuşdur" [130, s. 137]. Ancaq bütün antik dünyanı öz hüdudlarında birləşdirən Roma imperiyası da total fövqəldövlətçilik mexanizminin dağılması prinsipi ilə çökmə aqibətini yaşayır: İmperiya dağılır, ancaq onun mövcud olduğu məkanda xalqların təmas və qarşılıqlı əlaqə ənənəsi davam edir. Təkin çoxalması çoxluğun növbəti proseslərdə vəhdətlənməsinə şərt olur [119, s. 451-462]. Qərbi və Şərqi Roma imperiyalarının ayrılması və Qərbi Roma imperiyasının çökməsindən sonra Şərqi Roma imperiyası - Bizans imperiyası min il - 1453-cü ildə türklərin Konstantinopolu fəth etməsinə qədər davam etdi. "Müqəddəs Roma imperiyası" Qərb dünyasında

Böyük Karlın və başqa kralların sayəsində varis və davamçılar tapmışdı. Konstantinopolun çökməsindən sonra Rusiyada (Rus) Moskvanı "Üçüncü Roma" kimi təsəvvür etmək - 300 ildən sonra şimalda yeni imperiya hərəkatının ideya motivlərindən oldu.

Əhəməni və Makedoniya imperiyalarının istilalarından sonra e.ə. IV əsrin birinci yarısında yaranmış, demək olar ki, Hindiquşdan cənuba bütün Hindistan ərazisini özündə birləşdirmiş, Aşokun dövründə ən yüksək inkişaf səviyyəsinə çatmış Maurya imperiyasının Misir, Makedoniya və Selevki imperiyalarının saraylarında səfirləri fəaliyyət göstərirdi [130, s. 152-157]. Roma kimi Şərq və Qərb hissələrinə parçalanan Maurya imperiyasının yerində b.e. III əsrində Sasani imperiyası ilə toqquşmada olmuş və ərazisinin qərb vilayətlərini onun xeyrinə əldən çıxarmış Kuşan imperiyası Qupta imperiyası ilə (b.e. IV-V əsrlər) əvəzləndi. Planetin şərq yarımkürəsinin ən böyük imperiyalarından birini hun-türklər qurmuşlar (e.ə. III - b.e. V əsrlər). Hun tayfa ittifaqları Altaydan Çinə, Xəzər dənizi və Şimali Qafqazdan Azov dənizinə, Şərqi Avropaya qədər böyük bir ərazini tutmuşdular, onların qərb qolu 405-ci ildə Romaya daxil oldu, şərq qolu isə V əsrin sonu - VI əsrin əvvəllərində Hindistana doğru irəliləyərək Qupta imperiyasını çökdürdü. Tsin və Xan dövründə (e.ə. III əsrin sonu - b.e. III əsri) Çinin özünü sosial-siyasi vahid kimi dərk etməsi prosesi başa çatır (bu faktor əvəzlənən imperiyalarda Çin dövlətçilik sisteminin sarsılmazlığını təmin edir), o, Koreya və Vyetnamı da nəzarətdə saxlayır və Mərkəzi, Şərqi Asiyanın qüdrətli imperiyasına çevrilərək Hindistan, İran və Roma imperiyasını quru və dənizlə birləşdirən, XX əsrin sonu - XXI əsrin əvvəllərində yenidən qlobal Avrasiya bütövlüyü layihəsini gündəmə gətirən İpək yolunun üstündə özünün gözətçi məntəqələri və qarni-



zonları ilə dominant olur. E.ə. I minilliyin ortalarından b.e. I minilliyinin ortalarına doğru Avrasiya tarixində mühüm rol oynayan hunların, sonra isə türklərin Mərkəzi Asiya və onun həndəvərində hegemon mövqeyə qalxması, Orta Asiyada Parfiya imperiyasının yaranması dövründən sonra Mərkəzi Asiyadan qərbə - Xəzər və Qara dəniz hövzələrinə, Qafqaza, şimala - Hindistan yarımadasına və şərqə - Çinə doğru yönələn istiqamətlərdə, əsasən, ənənəvi terminologiya ilə desək, Turan-İran, hun-türk-Çin, Çin-Hindistan, Çin və ətraf regionlar, Hindistan və ətraf regionlar arasında sivilizasion - geopolitik münasibətlərin ilk davamlı konturları cızılır, Asiyadaxili münasibətlərin özünüstrukturlaşdırması prosesləri gedir.

Eyni zamanda, xalqların böyük köçü XXI əsrin başlanğıcında bu mülahizəni ortaya çıxarır ki, "müasir Avropa geniş Avrasiya məkanında II-VII əsrlərdəki qlobal proseslərin məhsuludur" [102, s. 15].

Beləliklə, e.ə. I minilliyin ortalarından b.e. VII əsrində dünyanın üçüncü böyük və son dini İslamın yaranmasına qədərki min ildən artıq davam edən bir dövrdə bəşəriyyətin tarixi həyatında fəal inteqriləşmə - imperiyalaşma və onların dağılma prosesləri ilə müşayiət olunan çox mühüm qlobalmiqyaslı sivilizasiya dəyişiklikləri, etnosiyasi dəyişikliklər baş verir (İmperiyaların tənəzzül və dağılma səbəblərinin bütöv amillər kompleksi "Dünya tarixi"ndə mükəmməl, sistemli təhlilini tapmışdır [130, s. 174-175]). Passionarlığın yüksək həddində superetnoslar total imperiya qurmağın klassik örnək və ənənəsini yaradırlar. Bəzi etnoslar köçərilikdən bu mövqeyə qalxır, aristokratların qurduğu imperiyaları dağıdırlar. Adətən, imperiyalar həm də sivilizasiya mərkəzləri kimi özlərini göstərirlər. Bir neçə imperiya bir mükəmməl sivilizasiyanın yaradıcısı ola bilir. Bu mərhələnin əsas dönüş hadisə-

ləri və bir-birini şərtləndirən, bir-birinin səbəb-nəticəsi olan prosesləri ilə Avrasiyanın ən fəal sivilizasion-geopolitik zonaları müəyyənləşir. Aralıq, Egey, Mərmərə və Qara dəniz boyunca yüz illər boyu davam edən Asiya - Avropa qarşıdurması sonrakı yüzilliklərdə, xüsusilə XIX-XX-XXI əsrlərdə də kəskinləşən Şərq-Qərb geopolitik mənafe toqquşmalarının mənbəyində dayanan səbəblərdən olur. Həmin xətt boyunca Şərq və Qərb sivilizasiya modelləri formalaşır və bu modellərin müxtəlif kompleks və konfiqurasiyalarda diferensiasiyasına zəmin yaranır. Bütövlükdə Şərq və Qərb - planetin iki böyük sivilizasion-geopolitik bloku kimi strukturlaşır. "Ellinlərin barbarlara" qarşı (Herodot, e.ə. V əsr) [89, c. 1, s. 11, 33, 124], "müxtəlif dövlətlərin hüdudlarında mövcud olmasına baxmayaraq yunan dünyasının barbarların dünyasına" qarşı qoyulması (Plutarx, b.e. I-II əsrlər) tendensiyası - Qərbin Şərqə qarşı qoyulmasının bir modeli kimi bu və ya digər formada sonrakı çağlarda, eləcə də, bizim dövrümüzdə S.Hantinqtonun "Sivilizasiyaların toqquşması" konsepsiyasında davam etdirilir [122]. Qlobal inteqrasiyaya doğru planetar inkişafın diasinxroniyasının bu mərhələsi Şərq və Qərb sivilizasiya dünyalarının həm aramsız mübarizəsi, seçkinləşməsi, həm də bir-birini təcrübələndirməsi, bəhrələndirməsi kimi özünü fərqləndirir. Bu mərhələdə bütövlükdə Şərqlə Qərbin imperiya - və sivilizasiyayaratma potensiyasının daha çox bərabərsəviyyəliliyi üzə çıxır.

Planetar inkişafın diasinxroniyasının üçüncü mərhələsi b.e. VII əsrində "dünyanın böyük dinləri arasında İslamın üstünlük qazanması" ilə [130, s. 178] başlayır. Bu epoxanın böyük hadisələri də - İslam sivilizasiyası, Monqol və Osmanlı imperiyasının aparıcı mövqeyə qalxması, Şərq-Qərb sivilizasiyaları balansında Şərqin çəkisinin ağırlaşması, ümumiyyətlə, Şərq



dominantlığının planetin şərq yarımkürəsində özünü göstərməsidir. VII-VIII əsrlərdə ilk müsəlman imperiyası - Xilafət adından döyüşən ordular xristian dünyasının içərilərinə doğru yayıldılar. Onlar Bizans imperiyasının Suriyadakı vilayətlərini, Müqəddəs torpağı və Misiri istila etdilər, sonra da Şimali Afrika, İspaniya və Siciliyaya doğru genişləndilər. IX əsrin ortalarında ərəb xəlifəsi Böyük Çin səddinə quru ekspedisiyası göndərmişdi; İbn Fadlan 921-ci ildə Volqa bulqarlarının yaşadığı ərazilərə, Abu Dulaf 944-cü ildə Mərkəzi və Şərqi Asiyaya etdiyi səyahətdən danışırdı. Artıq IX-X əsrlərdə ərəb xilafətinin quru, çay və dəniz yolları ticarəti Asiya, Avropa və Afrika qitələrini əhatə edirdi. Ərəblərin dəniz ticarəti IX-XIV əsrlərdə Atlantik okeanının şərq sahillərindən Cənub-Şərqi Asiyanın Banda dənizinə qədər (Yeni Qvineya) böyük bir ərazini çevrələyirdi [83, s. 227, 376-398]. Şərqdə olduğu kimi Qərbdə də beynəlxalq mübadilə məntəqələri - "türk poçtu" (barid ət-türk) vardı və hər üç mildən bir qurulan bu məntəqələr şərq istiqamətində Çin sədlərinədək, qərb istiqamətində isə Konstantinopoladək böyük bir məsafədə yerləşdirilmişdi [83, s. 384]. VIII əsrin ortalarında Karolinq imperiyası Avropanın əsas hissəsini özündə birləşdirsə də, yüz il sonra - 843-cü ildə üç yerə parçalandı. Orta əsrlərin Qərb dezinteqrasiya prosesləri nə Frank, nə Karolinq, nə də Bizans imperiyalarına "Universum Chiristianum" özəyində Avropanı birləşdirmək imkanı verdi. Üməyyə, Abbasi xilafəti zamanında xeyli genişlənən islam dünyası isə Böyük Səlcuq, Atabəylər, Böyük Monqol, Qızıl Ordu, Teymuri, Osmanlı, Səfəvi imperiyaları dövründə daha da gücləndi. Əsasən türk superetnosunun hərbi-siyasi və sosial-mədəni quruculuğu ilə İslam sivilizasiyası böyük vüsət qazandı. İspaniyadan İndoneziyaya, Afrikadan Urala, Amudəryaya qədər geniş və

zəngin etnocoğrafi məкanlarda yayılan islam ümumdünya sivilizasiyalaşma prosesinin əsas tendensiyalarından biri кimi məhz VII-XVI əsrlərdə Şərq sivilizasion - geopolitiк bloкunun dini-mədəni, ideyapotensiya mərкəzinə çevrilmişdi.

Məhz bu коntекstdə türк sivilizasiyasının identiкləşmə prosesinin davam etməsi, onun İslam sivilizasiyası ilə vəhdətdə, ayrılmaz bir axarda mövcudluğu, tənəzzül və yenidən dirçəliş mərhələlərini yaşaması maraq doğurur və eyni zamanda bu mürəккəb, ziddiyyətli prosesə ariçiliк коnsepsiyasından yanaşılmasının, yəni mahiyyətcə qərbyönlü tendensioz münasibətlərin ayırd edilməsi böyüк аktuallıq кəsb edir.

Oğuz türкlərinin Türкüstandan Aralıq dənizinə, Qafqazdan Fars кörfəzinədəк geniş bir ərazini əhatə edən dövlətləri (1038-1157) - sonra isə Osmanlı Türкiyəsi (XV-XX əsr), Azərbaycan Qaraqoyunlu (1410-1468), Ağqoyunlu (1468-1501), son çağ Şirvanşahlar və nəhayət, Səfəvi dövləti (1501-1736), Qazax, Коkand, Buxara xanlığından Xoya, Naxçıvanadəк olan xanlıqlar (XVI-XIX əsrlər) Gündoğarla Günbatar arasında “Türк Səddini” hördü. Bu türк sivilizasiyasının qərar tutduğu, dinamiк inкişaflı, eyni zamanda aramsız hərbi qarşıdurmaların baş verdiyi məкan idi. Avrasiyanın belinə кəmər кimi dolanan türк xalqlarının Səddini şərqlilər bir daha heç vaxt кeçmədilər, avropalılar üçünsə bu Sədd “Türк qürubuna” qədər aşılmaz oldu... (Vaxt gələcəк, bu Səddi yarmaq üçün Rusiya “erməni pazından” istifadə edəcəк...). Bu Sədd təкcə ayırmır, qorumur, həm də yaxınlaşdırır, münasibətlər yaradırdı. Qədim Şərq mədəniyyəti ümumtürк iradəsinin gücünə hifz olunur və zənginləşirdi. Şərq və Qərb münasibətləri XX əsrə qədər türк sivilizasiyasının mövqeyindən həlledici dərəcədə asılı idi.

Dövlət və mədəniyyət quruculuğu tezisini Şərq



irəli sürmüşdü. Onun antitezisini - XVI-XVII əsrlərdən başlayaraq - Avropa irəli sürdü. Yeni tarixi ərəfədə Şərq (eləcə də Ameriкa qitəsi daxil olmaqla bütün dünya) Avropa eкspansiyası qabağında tab gətirə bilmirdi. Şərq yenə də ortodoкsal - mühafizəкar üsulu davam etdirməкdən əl çəкmir, Avropa isə elmi-texniкi təfəккür bazisinə yiyələnərəк, özünə rasional diplomatiya və siyasət meydanı açaraq, ictimai inqilablara və vətəndaş ideyasına bünövrə yaradaraq, gələcəyi görünən radiкal dəyişiкliкlərə can atırdı. Şərqdə elm - tarixən mənəviyyat zəminində кöк atmışdı. Avropada isə maddi-intelleкtual əsaslardan, praqmatiк baxışlardan, nəzəriyyələrdən nəşət tapırdı (Elə bu xətlə getdiкcə ifrata vardığına görə də qatı Avropa rasionalizmi XX əsr fəlsəfəsi tərəfindən кəsкin tənqid olunacaqdı). Şərqdə elmlə işğalçılıq heç vaxt ittifaqa gəlməyib, Qərbdə isə gələcəк böyüк fəlaкətlərə bais olan belə ittifaq yarana bildi. Hərbi texniкanı yaratmaq üçün Çində elm hələ ilкin orta əsrlərdə yetişmişdi. Amma çinlilər barıtı görməк belə istəmədilər. Çünкi Şərqdə ictimai əxlaq bu cür tərəqqiyə sadəcə olaraq imкan vermirdi. Yazıq rahib Şvarsın - orta əsrlərin bu mömin bəndəsinin dini bayramlarda atəşfəşanlıq üçün кəşf etdiyi barıtı isə avropalılar əlüstü hərbi məqsədlərə yönəltdilər. Pyotr zamanından ruslar da Avropa tərəqqi üsuluna meyl etdilər. Şərq məsələsi ətrafında fiкir yürüdərкən, tarixi perspeкtivi Avropa mənafeyi baxımından müəyyənləşdirən F.Engels yazırdı: “Türкiyə problemi кimi digər böyüк problemlər də öz həllini Avropa inqilabında tapacaq” [81, s. 33]

Avropanın qüvvətləndiyi, yaxın-uzaq ərazilərə iştahla əl uzatmağa başladığı çağlarda Şərqdə-türк dövlətləri arasında çaкişmələr bitib-tüкənməк bilmirdi...

Yavaş-yavaş İran, Türк, Qafqaz məmləкətlərinə ayaq açan Avropa diplomatiyası bu çaкişmələrdən ba-

carıqla istifadə etməyə başladı...

Türк dövlətləri yarandığı vaxtdan - feodal təfəккürünün obyeкtiv səbəbləri ilə - öz içində faciə ocaqlarım кözərdirdi: Etniк enerjinin кüкrəyişi - passionar vəcd (Qazi Bürhanəddin - "Bu cəhan ərənlərün meydanıdür!") türкü həm də sürətlə şaxələndirirdi. Türк xalqları müstəqilləşib ayrılma zərurəti ilə vahid dövlət yaratma zərurətinin qaçılmaz təzadını yüzilliкlər boyu tam uğurla həll edə bilmədiкləri üçün XIX əsrin ortalarına qədər özlərini tamam yorub əldən saldılar (Üstünə Mirzə Cəlil və Sabirin satira əndərdiyi süstlüк və cəhalət xislətinin кöкü elə buradan başlayır). Xüsusilə XIV-XVII əsrlərdə türк dövlətlərinin Şərqdə sabit sülh siyasətini axıradəк qoruya bilmədiкlərindən, öz aralarında etibarlı ittifaq zəmini yarada bilmədiкlərindən tarixi imкan əldən buraxılırdı (Əgər o imкan əldən buraxılmasaydı - təsəvvür edəк кi, Şərq mədəniyyəti bütün rəngarəngliyi ilə özünün misilsiz inкişaf yüкsəкliyinə çatacaqdı. Ancaq bu baş vermədi. Bir çox mədəniyyət xətləri yanmçıq qaldı və yaxud heç yarana bilmədi.). Bu vaxt feodal təfəккürü ifrat həddində idi: ya ~ "monarxiya - haкimi- mütləq!" Ya da.. "heç olmasa, öz torpağımın xanı, öz evimin bəyi olaram!" Beləliкlə, Şərq son yüzilliкlərdə eynimənşəli və müxtəlif mənşəli dövlətlərin sabit münasibətləri ideyasını həyata кeçirməyə qadir olmadı. Şərq dövlət siyasəti onun zəngin mədəniyyəti üzərində əsaslı şəкildə yüкsələ bilmədi. Erкən orta əsrlərdə Çində və Hindistanda xanədanlıqlar öz təcrübələrini üst-üstə yığıb dövlət siyasətinin кlassiк ehramını ucaldırdılar. Son orta əsrlərin Şərq dövlətləri isə bir-birilərinin (xüsusilə müasirlərinin!) təcrübəsini dağıdıb, hər şeyi yenidən başlamaq "cəsarətini" nümayiş etdirirdilər. Son iкi zərbəni Nadir şah (1736-1747) və Qacar (1742-1797) vurdu. Köкlü türк tayfalarından (əfşar və qacar) olmalarına baxmayaraq, hər iкisi artıq çoxdan tarixi missiyasını başa çatdırmış fars monarxiyaçılığından çıxış etdiкləri üçün İran və Türк xalqlarına olmazın fəlaкət gətirdilər...



Qızılbaş tayfalarının qüdrətli siyasi birliyi nəticəsində yaradılmış, mərкəzləşdirilmiş Azərbaycan Səfəvi dövlətinin də I Şah Abbas (1587-1629) zamanından milli dayaqları laxladı və o tədriclə İran dövlətinə çevrildi...

Hələ X əsr ərəb tarixçisi, ğuzlar (oğuzlar), türкlər, Xəzər padşahlığı haqqıda məlumat verən əl-Məsudi "Qızıl yuyulan yer və cəvahirat mədənləri" əsərində yazırdı: "...Rusların gəmiləri dənizə səpələndi və... Azərbaycan istiqamətində olan bütün yerlərə basqın etdilər. Azərbaycanın Ərdəbil şəhərindən dənizə 3 günlüк yoldur. Ruslar qan töкür, qadın və uşaqlara istədiкlərini edir, mal-dövləti çapır, basqınlar törədir, xaraba qoyur və yandırırdılar. Bu dənizin ətrafında yaşayan xalqlar özlərini itirdilər; çünкi кeçmişdə onların üzərinə dənizdən basqın edən heç bir düşmən xatırlamırdılar. Dənizdə həmişə yalnız ticarət və balıqçı gəmiləri üzürdü" [44a, s. 56-57]. - Vaxt gələcəк, кeçmiş SSRİ məкtəblilərinə belə faкtlar yox, "monqol-tatar işğalçılarının zülmü altında inləyən rusların mübarizə tarixi" öyrədiləcəкdi...

Rusiya imperiyasının yaradılmasının elə iкinci ilində (1722) I Pyotrun ordusu və gəmiləri yenidən Xəzər sahilində göründü. Amma bu dəfə onlar təкcə yaraq-əsləhə ilə deyil, güclü diplomatiya ilə də silahlanmışdılar. I Pyotr Azərbaycan türкcəsində manifest çap etdirdi ("Üzən türк mətbəəsi"ndə) və yaydı кi, rus qoşunları İrana tabe olan vilayətlərdə nizamsızlığı aradan qaldırmaq üçün gəlir və yerli əhaliyə heç bir xətər toxundurmayacaqdır! Radiкal Avropa (rus) siyasətinin "Türк Səddinə" yeriməsi üçün belə bir psixolo-

ji zəmin vardı: belə кi, arasıкəsilməz feodal müharibələrindən cana doymuş əhali də saкitliк, əmin-amanlıq ilğımı yaradan “himayəyə” möhtac idi.

Rusiya “Türк Səddini” ələ кeçirməк üçün düz üç yüz il işğalçılıq müharibələri apardı. Nəhayət, sütunları lap əvvəldən möhкəm olan və Avropa əsaslarından da çox şey götürən Türкiyədən və Araz çayı boyunca bölünən Güney Azərbaycan türкlərindən başqa, deməк olar кi, bütün türк xalqları 19-cu yüzilliкdə Rusiya imperiyasının əsarəti altında “himayə” tapdılar...

Türк “can səddini” saxladı. Böyüк Müstəqilliyini isə ... itirdi.

SSRİ-ni söкən yenidənqurma tıxacı açandan sonra tarixi кöкü olan iddialar da dəbərişdi, кifini, кinini-qərəzini püsкürdü. Tarixən hər bir xalqın əleyhinə yönəldilməsi mümкün olan, bizim çağlarda isə antiazərbaycan, antitürк siyasətinə xidmət eləyən, - aralarındaкı sıx bağlılıqla bir-birini qabağa itələyən bu absurdlar aşağıdaкılardır: Ari maniyası; “Əzəli torpaqlar” iddiası; Türк xalqlarının qaibanə peydası; Qisasçılıq.

Qədim çinlilərdən, ellinlərdən üzü bəri bir çox xalqların həyatında ətrafındaкıları, “barbar” (vəhşi) saymaq təкəbbürü ara-sıra işarıb. Bu etniк məğrurluq həddini aşanda və dövlət siyasətinə yeriyəndə, dolanıb-fırlanıb, çanağını özündən müştəbeh xalqın başında çatladıb. Hind-avropalıların - onların içərisində də xüsusilə əsil “arilərin” müstəsna irq olması fərziyyəsi son iкi yüz ildə dünya imperializminin aləti кimi itilənə-itilənə rasist fövqəldövlətçiliyinə gətirib çıxardı və Avropada meydan sulayan alman faşizmi itilədiyi bu silahla da doğrandı. Əslində, Ariliк - aydan arılıq, sudan duruluq - bənzərsiz ali кeyfiyyətlərə maliк olma bütün xalqların mayasında var. Bu gün meşə mədəniyyətini yaşayan, təbiətlə qol-boyun, texnosivilizasiya



tünlüyündən uzaq xalqlarda da. Laкin imperiyaçılar xalqların təbii çiçəкlənməsinə imкan vermədiкləri üçün planetin Ümumbəşər Ariliyi кüll halında zühur edə bilmir. Kainat üçün кiçiк ulduz da, böyüк ulduz da eyni dərəcədə doğmadır. Təbiət üçün кəpənəк də, timsah da eyni dərəcədə zəruridir. İкinci dünya müharibəsinin başlanğıcında böyüк fransız antropoloqu və ilahiyyatçı-filosofu Pyer Teyyar de Şarden Peкində mühasirədə iкən, Materiyadan Ruha qədər bütün təкamül prosesini incəliкlə izləyə-izləyə bu sətirləri yazmışdı: “Rasist idealı uydurmadır və təbiətə ziddir, burada bir budaq ağacın bütün şirəsini özünə çəкib sorur və o biri budaqların quruması hesabına boy atır. Halbuкi Günəşi içməк üçün bütün çətirin birgə boyatımı gərəкdir. Dünyaya çıxış, gələcəyin qapısı, ümumbəşəriliyə yol irəlidədir, özü də bir neçə imtiyazlı кimsələr üçün deyil, bir seçmə xalq üçün deyil! O birgə təкanla açılır, özü də o istiqamətə açılır кi, burada hamı Yer кürəsinin mənəvi yeniləşməsində birləşə və varlığını göstərə bilsin” [105, s. 194]. Bu gün Qərbi Avropa belə istiqamətə meyllənsə də, ari iddiaları hələ möhкəmcə sızır və seçməmillətçiliyə rəvac verir.

Ariçilərin məntiqi belədir: planetdə ilк ocaqları Hind-Avropa xalqlarının ulu əcdadları qalayıb; Qafqaz ariçiləri də bundan çıxış nöqtəsi taparaq, hind-avropalı кöкündə əsкi erməni-кartvel-slavyanları xüsusi bir xətt elan edirlər; yəni Kiçiк Asiya, bütün Qafqaz və onun hüdudlarındaкı ən ilкin mədəniyyətlərin törədiciləri də bu “əcdadlar əcdadı” olub; erməni alimlərinin paleoantoroloji miflərindən az qala belə qənaət hasil olur кi, Darvinin əsilzadə meymunlarından da əvvəl Kür-Araz bölgələrində ermənilərin ulu babaları yaşayıbmış, onlardan da meymun əmələ gəlib, bəşəriyyət isə məhz bundan sonra meydana çıxıb!..

Slavyan yox, məhz “rus səltənətinin Nildən Ne-

vayadək, Elbadan Çinədək, Volqadan Fərata qədər, Qanqdan Dunaya qədər uzandığını" (Yada sal ...yanların "dənizdən dənizə" xəyallarını!) söyləyən Tütçevin cazibədar "poetik coğrafiyası" kimi mənzərələr imperiyanı az qidalandırırdımı?! 140 il ötəndən sonra bu "Rus coğrafiyası" yenidən işığa çıxarılır [101, s. 198].

Son 100 ildə Ari maniyası, "Milli Müstəsnalıq" ən müxtəlif səpkilərdə təzahür edərək, dünya imperializminin ictimai elmlərdə, xüsusən tarixdə davam etdirilən siyasəti kimi baş gicəlləndirir. Çoxdan hədəfinə çevrildiyimiz Ariçilik cürbəcür hoqqalara əl atır ki, halal torpağında yaşayan türklərin, eləcə də Azərbaycan türklərinin bu torpağa haqqı olmadığını "sübuta yetirsin". Gerçək tariximiz danılır ki, arxamızı hiss etməyək, tutacağımız - söykənəcəyimiz olmasın...

Özünü öyənin başqasını danmaq üzü də var... Ari maniyasından ("mən varam!") "əzəli torpaqlar" iddiasına ("sən yoxsan!") ilgək də buradan vurulur. Erməni ideologiyası belə bir absurd üzərində qurulub ki, onlar iddiasında olduqları bütün ərazilərin əzəl sahibləri olublar. (Özləri burada gəlmə olsalar da!). Erməni ideoloqları dəridən-qabıqdan çıxırlar ki, bu absurdu dünyaya təlqin etsinlər. Lakin bu gün planetin elə bir bucağını tapmaq olarmı ki, oranı mütləq mənada dəyişilməz etnik məskən adlandırmaq olsun?! Min illər boyunca Yer üzündə xalqlar elədən-belə axışıb. Qanlar qana qarışıb, nəfəslər-nəfəsə. Etnik dalğalanmalar dünyanın havasını təzələyib (Öz hücrəsinə çəkilən xalqlar həmişə uduzublar). Ahıl xalqlara cavan xalqlar qaynayıb-qarışıb ki, bəşəriyyətin ruhu sönükləşməsin, qanı köhnəlməsin, canı donmasın. Bəşəriyyətin etnik mərtəbələnməsində ən ulu torpaq hissi də, ən ilkin mədəniyyət izləri də nəsildən-nəslə cilalana-cilalana qorunub saxlanır, bir zərrəsini də itirmir. Hamının bu ümumi irsdə payı var. Görün, təkcə muğam, yaxud bir



əsatir süjeti nə qədər xalqın ürəyinə şaxələnib! İnsanın qəsb etmədiyi, halallıqla daş qoyduğu, namusla baş qoyduğu, yeddi arxadan dönəninin qəbrini götürən torpaq - onun Vətənidir. Əgər müasir xalqlar "əzəli torpaqlar" iddiası ilə yerindən tərpənsələr, Yer üzündə misli görünməmiş tüğyanlı bir çaxnaşma baş verər, dünya qana çalxanar! Türk xalqlarının ulu dil abidələri Sibirdən, Altaydan, Monqolustandan tapılıb. İndi nə edək, əlimizə silah alıb, Monqolustanla, Altay, Sibir xalqları ilə davaya başlayaq?! Macarlar Urala, latınmənşəli amerikalılar Avropaya cumsunlar?!

Ariçilər, "əzəli" torpaq iddiaçıları və digər tarix yozucuları "türk xalqlarının Qafqazda, Yaxın Şərq və Kiçik Asiyada qaibanə peyda olmasını" sübuta yetirmək üçün daha təkidli və hiddətlidirlər. Onlar türkün "gəlmə" olmasını təsdiq edən bütün "tarixi araşdırmalardan" əlüstü istifadə etməyə can atırlar. Məsələn, belə bir "əsas" verən simpoziumlardan biri hələ 1969-cu ildə Oksfordda keçirilib. Şərqşünas K.E.Bosvortun məqaləsinin adı da, məğzi də hər cür nanəcibi üstümüzə qısqırtmağa kifayətdir: "Barbarların axını: türklərin müsəlman dünyasında görünməsi". Mançester universitetinin professoru, yəqin ki, nə Britaniyanı fəth edən əcdadlarını - germanları, nə də Sakit okeanda Tasmaniya aborigenlərini bütünlüklə məhv edən Britaniya müstəmləkəçilərini "barbar" adlandırmağı özünə rəva görməzdi...

Bosvort islam peyğəmbərinin "Türklərə toxunmayın"... kəlmələrini apokrifık (qeyri-mötəbər) hesab etsə də, "türk hərbi qullarının" xilafətə axını üzərində xüsusi dayanır. Görəsən, türklər necə "qul" imişlər ki, Yaxın Şərqdə belə sürətlə hakim mövqeyə qalxıb, onu əsrlər boyu idarə edə bilmişlər?! - bunu isə elə həmin tədqiqatında Bosvort özü təsdiq edir... Şərqşünaslıq professoru yazır: "Yaxın Şərqdə torpaqların istifa-

də edilməsinə türk basqınlarının əhəmiyyətli təsiri göz qabağındadır. Şimali İrana qəsbkarlıqla soxulan tayfaların bir dəstəsi XI əsrin 20-ci illərində Anadoluya və Qafqaza keçir, burada qazi və axınçılar kimi xristian erməni, gürcü knyazlıqları və Vizantiya imperiyası ilə vuruşurdular... O tayfaların digər dəstəsi İran ərazisində sürüləri bəsləmək üçün əlverişli olan yerlərdə qaldı. Belə ki, Azərbaycanın, Kürdüstan, Fars və Gürganın müasir türk əhalisi, şəksiz, səlcuq dövrünə gedib çıxır, hərçənd onların sayı (xüsusilə Farsda) monqoldansonrakı mərhələdə arta bilərdi" [85, s. 30-31]. Professor Enn Lembton türklərin bu "təşrifini" bir qədər də yaxına çəkir: "Mən belə düşünürəm ki, müasir İranın türk tayfalarının səlcuq istilasına gedib çıxması qənaətinə gəlmək düz deyil. Gürgan və Azərbaycan, şübhəsiz, müəyyən dərəcədə məskunlaşmışdı, lakin hətta Azərbaycandakı ən iri məskunlaşmalar sonrakı dövrdə, monqolların, teymurilərin, Ağqoyunlu, Qaraqoyunlu və Səfəvilərin türkmən xanədanlıqları çağında oldu. Səlcuq zamanında Cənubi İranda Salqaridlərin meydana çıxmasına baxmayaraq, burada onlar əksəriyyətcə itib-batdılar, İrandakı Bayat, Əfşar, Qaşqayi isə sonrakı səlcuq dövründə məskunlaşmış oldu" [85, s. 139]. Avropa tarix elmi, əsasən, ərəb qaynaqlarına istinad edir. Xilafət mənafeləri baxımından deyilmişləri isə gerçək tarix kimi şərh etmək olmaz.

Ulu türklər sən deyən səlnaməçi olmayıblar, əvəzində danılmaz dövlət və mədəniyyət yaradıcılığına malikdirlər. Bu məsələ ətrafında Ziya Bünyadov yazır: "Bəzi tədqiqatçıların etdiyi kimi, türkləşmənin XI-XII əsrlərdə baş verdiyini qəbul etmək səhv olardı. Türkləri Azərbaycan ərazisinə kənardan gəlmiş bir ünsür hesab etmək də səhvdir, çünki onda, yerli böyük və çox yığcam türk tayfa təşəkküllərinin varlığına göz yumulur.



Türkləşmə prosesi yalnız türk aborigenlərinin cənubdan gələn oğuzlar və şimaldan gələn qıpçaqlarla qarışması nəticəsində, bunların assimilyasiyasından sonra başlandı və getdikcə sürətlənib XI-XII əsrlərdə qurtararaq, Azərbaycan və Arran ərazisində müasir Azərbaycan millətini əmələ gətirən türkdilli Azərbaycan xalqının təşəkkül tapması ilə nəticələndi" [8, s. 171]. Əgər "hunlar qədim türk qəhrəmanlığını və uqor dəyanətini" saxlamışdılarsa [67, s. 37], hunlar, xəzərlər və qıpçaqlar Qafqaz tarixində bir neçə yüz il rol oynamışdılarsa, Asiyanın və Şərqi Avropanın bütün qədim xalqlarının Xəzər ətrafında sarmaşması və sonra arınıb budaqlanması baş vermişsə, onda, görəsən, tarixçilər niyə Azərbaycan antikliyində ulu türk mənşəyini istisna etməyə çalışırlar?! Axı, hələ VII əsrdə Dağıstan hunları, həm də Tanqrı xan (türklərin ilahi tapınağı) adlandırdıqları Aspandiata sitayiş edirdilər" [88, s. 24].

Türk sivilizasiyasının təkamülünü bir sıra mühüm aspektləri və detalları ilə nəzərə gətirmək baxımından akademik V.V.Bartoldun fundamental tədqiqlərindəki bu incələmə olduqca dəyərlidir. Xəzərətrafı regionda tarixi-sivilizasion prosesləri araşdırarkən o yazır: "Bu ərazilər dünya mədəni ünsiyyət dairəsinə nə vaxt və necə daxil olub və çağımızdakı durumadək ayrı-ayrı şəhər və ərazilərin mütənasib olaraq əhəmiyyəti necə dəyişib, nə vaxtdan Bakı Xəzərətrafı regionda mədəni birincilik əldə edib? Hazırda Asiyanın və xüsusilə Ön Asiyanın tarixinə münasibətdə tədrici mədəniyyət hərəkatının gəlişməsini Fərat çayının yuxarı boyundan başlamaq lazım gəlir. Bizə bəlli olduğu kimi, bu mədəniyyət hərəkatında sülhsevər mədəni təsirlərdən başqa işğalçılıq yürüşləri də böyük rol oynamışdır... Xalqların köçünün iki əsas məntəqəsinə böyük əhəmiyyət verilir: onlardan biri - semit xalqları-

nın vətəni - Ərəbistan yarımadası, digəri - bu hərəkatın ən önəmli məntəqəsi - Mərkəzi Asiya hesab edilir ki, buradan ari, ardınca da türk xalqlarının yürüşü baş vermişdir" [57, s. 257-258]. Ümumiyyətlə, Avrasiya tarixində ari və türk xalqlarının qarşılıqlı münasibətlərinin dinamikası, Şərq və Qərb geopolitik-sivilizasion bloklarının təkamül prosesinə onun bütün dönüş mərhələlərində olduqca mühüm təsir göstərmişdir.

Qafqaz regionunda hind-Avropa başlanğıcından çıxış edərək, hər cür "protoazərbaycan"- uluazərbaycanlılıq- ulutürklük- anlayışını qətiyyətlə rədd edən, türkün "gəlmə" olduğunu dönə-dönə təsdiqləyən İqrar Əliyevin tədqiqatları isə hər bir ariçinin əlində fürsətverici "sənəddir". Əlbəttə, dərin tarixi proseslərin stixiyasını inkar edə bilməyən İ. Əliyev qeyd edir ki, hind-Avropa mənşəli irandilli tayfalar da Azərbaycan ərazisinə Şərqi Avropa çöllərindən gəlib və yerli əhali ilə assimilyasiya olunub [5, s. 57- 65]. İ.Əliyev xüsusilə 1986- cı ildən bəri "Xəbərlər" və "Вестник древней истории" jurnallarında çap etdirdiyi məqalələrində qədim torpağımızda yaşamış bütün "ünsürləri" - əsasən, kompilyasiya yolu ilə- yerli-yataqlı araşdırır və göstərir ki, "Azərbaycan xalqının əcdadları sırasında bu ərazinin təkcə ən qədim sakinlərinin deyil (Axı, kim imiş, hansı etnoslar imiş o qədim sakinlər?!- R. U.), bütün ilkin tarixi bizim tariximiz, bizim xalqın tarixi olan irandilli midiyalıların adını çəkirik. Midiyalılar vasitəsilə biz hind-İran, daha geniş şəkildə hind-Avropa dünyasına qoşuluruq, İran, indus, german, slavyan və digər xalqlarla qohum oluruq" [55, s. 82], ancaq o, bu "Ari tarixinə" Türk sivilizasiyasını bir addım da yaxın qoymur... Ona tarixin daha sonrakı mərhələsi kimi baxır. İ. Əliyevin fıkrincə, görəsən, Ari çağlarında Türk planetdə doğulmuşdu, ya yox?! 50-ci



illərin əvvəllərindən respublikamızda Ari tendensiyalı tədqiqatlara və 1978-ci ildən vəfatına qədər Azərbaycan MEA-nın Tarix institutuna başçılıq edən İ. Əliyev məhz belə dönməz inkarı ilə Türkün böyüklüyünə hədsiz inam yaradır: "Anadolu türkü, hərçənd ki, müəyyən mənada (hər halda antropoloji cəhətdən) Kiçik Asiyanın qədim sakinlərinin nəslindəndir, lakin onu qətiyyən türk dilinə keçən Kiçik Asiya avtoxtonu hesab etmək olmaz. Bu, XV-XVI əsrlərdə yerli əhalinin türkdilli tayfalarla assimilyasiyası nəticəsində yaranmış yeni etnik - türk-birliyin - nümayəndəsidir" [55, s. 81-82]. Lembtonkundan İ. Əliyevinkinə qədər bütün bu ənənəvi "tarixi dəlilləri" göz önündə olan bir fakt təkzib edir: çünki hamıya bəllidir ki, nəinki göstərilən əsrlərdə, hətta ondan qabaq da Şərqdə türkdilli poeziya (hələ ulu türkün islamaqədərki sənəti bir tərəfə qalsın) güclü klassik örnəklər içrə yeni bir xətt kimi özünü tanıtmışdı. Belə dərinköklü sivilizasiya isə yüzilliklər boyunca yetişir. Tarix paradoksçularının yozumunca belə çıxır ki, türk hələ etnik birlik kimi formalaşmamışdan... sivilizasiyasını yaradıb! Məhz qeyd olunan ərazilərdə XV-XVI əsrlərə qədər ərsəyə çatıb toxdamış, bu əsrlərdə isə yüksək tərəqqiyə yetərək türk sivilizasiyası özəyindən şaxələnməyə başlayan milli mədəniyyətləri (ən azı Yunus İmrə - XIII əsr - zirvəsini) kimin ayağına yazaq, hörmətli professorlar?!

Tarixən İran-Bizans-Qafqaz üçbucağmda nə qədər təsirlərə, dönümlərə məruz qalan erməni mədəniyyətinə XIV əsrin sonu - XV əsrin əvvəllərindən türk sivilizasiyasının da toxumu düşüb. Şərqin silkələndiyi bir çağda erməni şairləri böyük Nəsimiyə tapınmışdılar, erməni xalqı onun üsyankar şerlərini "nəsimilər" kimi dilə gətirirdi. Budaq Amtetsini isə bu "nəsimilərə" görə yandırmışdılar [76, s. 194-195]. Bu bir həqiqətdir

кi, yalnız tarixin nəfəsini duymaqla, güclü mədəniyyətlə, başcıl кəlamla ayrı xalqlara təsir etməк, digər mədəniyyətlərdə iz buraxmaq olar. Erməni ideoloqları bunların üstündən xətt çəкib, artıq IV əsrdə dövlətliyini itirmiş Ermənistanın bütün tarixi faciələrini Türкün adına yazmaqla [Bu barədə daha ətraflı bax: 6, s. 125-126], ətrafımızda ittiham toru hörür, genosid uydururlar... Son min beş yüz ildə Şərqə eкspansiyada maneə daşı olan Türкün "gəlmə" olmasını təlqin etməкdən başqa "tarix diplomatiyasının" ayrı çarəsi yoxdur кi, bundan da düşmənlərimiz çığırqanlıqla istifadə edirlər.

Bütün bu absurdları bir niyyət ətrafında birləşdirməкlə, hər cür tarixi və müasir falsifiкasiyaları iddiaçı bir millət üçün "siyasi bazaya" çevirməк mümкündür: yəni, - "biz ariyiк", "ayağımızın altındaкı və gözümüzü diкdiyimiz torpaqlar -bizimdir", "siz - gəlməsiniz", deməli, "tərк olmalısınız!" Məhz belə "absurd bazasından" beyni doldurulmuş ermənilər münaqişə yoluna ayaq qoydular...

O vaxtкı Azərbaycan rəhbərləri yenidənqurma dövründən sonra getdiкcə кüкrəyib güclənən bu iddiaları vaxtında dəf etməк üçün ideoloji müqavimətə stimul yaratmağa belə bizə imкan vermədilər. Nəticədə, Absurdun Silah və Qanla təhlüкəli ittifaqı yarandı. Və nəhayət... XX əsrin sonlarına yaxın "кöhnə qonşular" - "qarı düşmənlər" arasında ən rüsvayçı absurdun - кöкlü qisasçılıq absurdunun zəhəri dadıldı. Qisasçılıq pillə-pillə qanlı müharibəyə çevrildi!... Azərbaycan tarix elminin faciəsidir кi, ermənilər məhz ondaкı bu tendensiyadan yapışıb indi də əleyhimizə hər cür avantüraları işlətməyə "əsas" tapırlar.



Bu bir daha onu göstərir кi, tarixin siyasi mənafelərə uyğunlaşdırılmış interpretasiyaları Azərbaycan tarixinin, bütövlüкdə isə türк sivilizasiyasının mahiyyəti haqqında tamamilə yanlış mövqelərin formalaşmasına səbəb olur. Nəticə etibarilə bütün bunlar türк sivilizasiyası da daxil olmaqla Şərq sivilizasiyaları üzərində Qərb höкmranlığına ideoloji-geopolitiк zəmin yaratmaq məqsədi daşıyır.

XVII-XIX əsrlər planetar inкişafın diasinxroniyasının Şərq üzərində Qərbin, ümumən dünya üzərində Avropanın dominantlığa yüкsəlməsi ilə səciyyələnən dördüncü mərhələsidir. XV-XVI əsrlərdə Qərb Renessans hərəкatı, Reformasiya, elmi, coğrafi кəşflərlə təməli qoyulan bu mərhələdə Avropa iniкişafın yeni paradiqmasını irəli sürür: o, dini yox, dünyəvi sivilizasiyalaşma yolunu seçir. Xristianlıq əsasən Avropanın gələcəyi кimi deyil, кeçmişi, ənənə və bünövrə qatı кimi təsəvvür olunur. O, inкişafın aparıcı ön mövqeyindən təкanlayıcı arxa mövqeyinə кeçir. İndividualizm şəxsiyyət azadlığından dövlət azadlığına - müstəqil milli dövlət quruculuğuna yol açır. Avropa dövlətlərinin XX əsrin iкinci yarısından birləşməyə doğru hərəкatının özülündə də onların ötən üç yüz il ərzində davamlı milli dövlətləşmə iradəsi dayanır. Qarşıdurma və müharibə vəziyyətində olsalar da, "Qərbin müxtəlif milli ənənələrinin dərin vəhdəti", "Qərb ölкələrinin ayrı-ayrı saraylarında Avropa cəmiyyətlərinin vahid orqan кimi" duyulması özünü göstərir [109, c. 2, s. 10-11]. Türк sivilizasiyasının özəyi Osmanlı imperiyasını Avropadan çıxarmaq üçün 1684-cü ildə Avstriya, Polşa, Venesiya və Malta "Müqəddəs birliк" yaradırlar. 1686-cı ildə Rusiya da bu ittifaqa qoşulur. Həmin ildə ittifaqın birləşmiş ordusu Budapeşti tutur və Mərкəzi, Şərqi Avropanın özünümüəyyənləşdirməsi istiqamətində fəaliyyəti güclənir. Arasıкəsilməz

müharibələrlə müşayiət olunan bu dövrdən sonra ta Birinci dünya müharibəsinə qədər Osmanlı imperiyasının Avropadan çəkilməsi prosesi gedir. Osmanlı imperiyasının zəifləməsi ilə Rusiya imperiyasının güclənməsi Avrasiyada qüvvələr balansını əhəmiyyətli dərəcədə dəyişir. Atlantik okeanına çıxışı olan Qərbi Avropa ölkələrindən XV əsrdən başlamış ekspansiya sonrakı yüzilliklərdə böyük geopolitik nəticələrə gətirib çıxarır. Elm, texnika və kapitalistləşmə istiqamətində tərəqqi edən Avropa tədriclə dünya imperializminin mərkəzinə çevrilir. Planetin qərb və şərq yarımkürələrində Avropanın imperiya müstəmləkələri yaranır. Napoleonun "vahid Avropa" yaratmaq səyləri Qərb imperialist siyasətini Avropanı "yer kürəsinin hökmranı" etmək səylərinə stimullaşdırır. "Ekspansiya Avropa xalqlarını başqa mədəniyyətlərin xalqları ilə sıx kontakta gətirir" [99, s. 107]. "Bütün dünyaya tacir və quldur kimi səyahət edən avropalılar" [66, s. 313] həm də müxtəlif sivilizasiyaların təcrübəsini Avropada konsentrasiya edirlər. Dünyanı özündə uzlaşdıran Avropa imperializminin əsas tendensiyası isə - "hindiləşmək" yox, bəşəriyyətin başqa toplumlarını avropalaşdırmaq olur. Ancaq xalqların böyük köçündən XIX əsrə qədər Avropanın özünün də etnoqrafik xəritəsi xeyli dəyişir. Fransa, Böyük Britaniya və Rusiya imperiyalarının qüvvətlənməsi sürəcində - XVII-XVIII əsrlərdən başlayaraq XX əsrin əvvəllərinədək - türk sivilizasiyasının - bütövlükdə Şərq sivilizasiyaları blokunun son böyük imperiyası - Osmanlı dövləti sahib olduğu torpaqları tamamilə əldən çıxarır, yalnız müasir Türkiyənin ərazisini xilas etmək mümkün olur. Qərbin Şərq üzərində üstünləşməsinin səbəblərini araşdıran bir çox tədqiqatçılar bunu əsasən Qərbin müasir silahlara yiyələnmək, yeni taktika ilə müharibə aparmaq, iqtisadi inkişafa nail olmaq və dövlət idarəçiliyini təkmilləşdirmək, modernləşmə istiqamətində bütün səylərini birləşdirmək bacarığı ilə əlaqələndirirlər.



Beləliklə, bu mərhələdə təkcə XVII-XIX əsrlərin Qərb dominantlığı ilə səciyyələnən inkişaf dövrü yekunlaşmır, həm də Qərb meyarı ilə ikinci minilliyin ortalarından başlayan Yeni Çağ başa çatır. Yeni Çağın sosial konstruksiyasının fundamenti olan suveren milli dövlətlər planetin sivilizasiyalaşması prosesinin yeni mərhələsinə - XX əsrə tarixin imperiyalaşmaya əksparadiqmasını qoyaraq daha rasional-qanunauyğun transformasiyada daxil olurlar. Suveren milli dövlətlər "yeni birgəliyin - beynəlxalq münasibətlərin kollektiv sisteminin müdafiəsi üçün öz aralarında ittifaq və koalisiyalara girirlər. Bu quruluş artıq imperiya xalqları və çoxsaylı etnoslarla yox, sabit iqtisadi və siyasi hüquqlara malik olan, vətəndaş cəmiyyətinin "kollektiv subyektliyinin" özünəməxsus bir növü əsasında formalaşan vətəndaşlarla təsəvvür olunur". Həm də dünyəvi humanizm dünyagörüşünün, rasional fəaliyyət istiqamətlərinin institutlaşdırılmasına ardıcıl səy göstərən Avropa regionu "xüsusilə Avropa dünyasının qərbə və şərqə, şimala və cənuba çox geniş ekspansiyasında, son nəticədə qlobal cəmiyyət birliklərinin yaranmasına aparıb çıxarmış ekspansiyasında təzahür edən ciddi sivilizasion impuls, tarixi prioritet əldə edir. Burada biz dinamik, dominant-açıq sistemlərin prinsiplərinin ("Asiya dünyasının" mərkəzləşdirilmiş və statik, dominant-qapalı sosiosistemlərindən fərqli olaraq) ardıcıl təcəssümü əsasında quruluşlanan bütöv Oykumenlərin inkişafı ilə rastlaşırıq. Bu o sistemlərdir ki, demokratik cəmiyyət quruculuğuna, milli dövlətçiliyə və rəqabətli bazar iqtisadiyyatına əsaslanır" [86, s. 68].

lərin, həm bu mərhələnin, həm də ümumən tarixi inteqrasiya proseslərinin nəticəsi olaraq XX əsrin ikinci yarısından dünya inkişafının reallığına çevrilmişdir. Bəşər sivilizasiyası qloballaşma istiqamətində ona xeyir verən uğurlu inteqrativ proseslərdən keçərək müasir inkişaf səviyyəsinə çatmışdır. Qloballaşma, yuxarıda göstərdiyimiz kimi, hadisə olmazdan öncə, tarixi inkişafın məntiqindən doğan ideya kimi, bu inkişafın çağımıza qədərki bütün mərhələlərində, xüsusilə qloballaşmanın təməl mərhələsində - XX əsrin birinci yarısında daha konstruktiv, daha yetkin formada meydana çıxmışdır. Bəşəriyyətin tarixi həyat təcrübəsini ümumiləşdirən və onun gələcək perspektivlərini müəyyən etməyə qadir olan elm və fəlsəfə ümumtərəqqi proseslərinin vəhdətlənməyə, harmonikləşməyə doğru aparan məqamlarına, tendensiyalarına da ciddiyyətlə diqqət yönəltmişdir.

XX əsrin əvvəllərindən iki qlobal iradə aktı - ümumbəşəri vəhdətin humanist idealları ilə imperialist qüvvələrin dünyanı monopoliyalaşdırma siyasəti arasındakı ziddiyyət gərginlik həddinə çatır. "Böyük Vəhdət" nümunəsində ümumdünya cəmiyyəti yaratmaq idealı humanist sivilizasiya alternativi kimi praqmatist monopolist dünya siyasətinə qarşı dayanaraq ideyadan praktiki müstəviyə enməyə çalışır, bəzən də dövrün müxtəlif ideoloji tendensiyalarına transformasiya olunur. Dünyanın vəhdət paradiqmalarında dərki iki dünya müharibəsinin törətdiyi faciələr fonunda nizamlayıcı beynəlxalq təşkilatlanmaların zərurəti şəklində reallaşma imkanları qazanır. XX əsrin əvvəllərindən "kolossal ümumdünya tarixinin özünü vahid fizioqnomikasında təzahür etdirməsinə" daha çox diqqət verilir [107, c. 2, s. 31]. Özünü "qapalı universum" şəklində təsəvvür edən cəmiyyətdən fərqli olaraq, yeni yüzil cəmiyyəti "özünü daha geniş universumun



hissəsi kimi" düşünə bilir [99, s9. 24]. "Yer kürəsi tarixində ilk dəfə olaraq XX əsrdə insan bütün biosferi öyrənmiş, əhatə etmiş, yer kürəsinin coğrafi xəritəsini başa çatdırmış, onun bütün səthi üzrə yayılmışdır. Bəşəriyyət bütün həyatı ilə bir bütöv olmuşdur" [61, s. 509]. Elmi kəşflər və texniki nailiyyətlər şərait yaratmışdır ki, bəşəriyyət ayrılıq durumunu aradan qaldırsın və bir olsun. H.Elias İkinci dünya müharibəsi ərəfəsində qlobal sivilizasiyalaşma - universumlaşma proseslərinin antoqonist tendensiyalarının mahiyyətini şərh edərək göstərir ki, inteqrasiya mərkəzi yaradan dövlətlər "azad şəkildə rəqabət aparan ittifaqların öz güclərini balanslaşdırdığı tarazlıq sistemini qururlar... Üstünlük uğrunda - daha yüksək nizam əsasında mərkəzi monopoliya uğrunda mübarizə gedir. Bu mübarizə artıq kontinental üstünlük uğrunda aparıldığı üçün qarşılıqlı fəaliyyətin bütün sistemi - planetin insan məskunlaşmış bütün ərazisi uğrunda mübarizəyə çevrilincəyədək daha yeni və yeni bölgələr əhatə edir... Biz ilk dəfə olaraq dövlətlərin ittifaqları ilə hər cür dövlətüstü qurumların arasındakı ziddiyyətlərin bütün yer kürəsini bürüyən əlamətlərini görürük; onların arasında bir-birini "sıradançıxarma" uğrunda mübarizə, bütün yer kürəsində hökmranlıq uğrunda mübarizə başlayır və bu mübarizə zor əsasında ümumdünya monopoliyasının - bütün planet üzərində sülhə çatmağa kömək edən siyasi mərkəzi təsisatın yaranması üçün şərt olur" [109, c. 2, s. 315, 325]. Alman sosioloqunun son fikirləri zamanın sərt qarşıdurmalarının diqtəsi və qlobal müharibəyə aparıb çıxarmış siyasətin məntiqindən doğmuşdur. "Ümumdünya monopoliyası" - ümumdünya harmoniyası yarada bilməz. Qütblərində "hakim xalq" və "məhkum xalq" dayanan imperial hakimiyyət qlobal problemin yalnış həll yoludur. "İmperiya qurucularının universal dövlət yarat-

maq məqsədində" [99, s. 516] xalqların hüquq bərabərliyi təmin edilmədiyindən daxili ziddiyyətlər kəskinləşib onun dağılması ilə nəticələnir. Buna görə də tarixən imperiyalaşma inteqrasiya proseslərinin güc amilinə əsaslanan fəaliyyət istiqaməti olaraq, bəşəriyyətin qlobal strukturlaşmada normal özünütəşkil tendensiyalarına əngəl törədir. Bütün imperatorları birləşdirən bir ümumi cəhət varsa, o da - dünya imperiyası ideyasıdır. Ötən əsrlərdən müstəmləkəçiliyin ifrat formasına keçən klassik imperiyaçılıq nə qədər yeni ideoloji özünəhaqqazandırma vasitələrinə əl atsa da, artıq XX əsrin birinci yarısında özünü tükəndirib qurtarmış, ümumbəşəri inteqrasiyaya stimul yaradan yox, əksinə, mane olan meyl kimi yolverilməz sayılmışdı. Xalqlar dünya birliyinə yalnız özlərinin suveren dövlətləri ilə iştirak etmək alternativini seçmişdilər. Bu dönməz prosesin bünövrəsi artıq Avropada qoyulmuşdu. Hələ XIX əsrin sonlarına yaxın F.Nitsşe "yeni sintezin" öncəduyuluşu ilə bəyan edirdi ki, "Avropa birləşməyə doğru can atır" [87, c. 2, s. 376]. XX əsr Qərb filosofları Avropanın dərin böhran içərisində olduğunu qeyd etmək və onun səbəblərini araşdırmaqla yanaşı, həm də Avropanın ümumbəşəri missiyasında planetar inteqrasiya proseslərinə böyük təkanvericilik qüdrətinin olduğuna inam bəsləmiş, dünya tarixində Avropa ruhunun inqilabiləşdirici rol oynadığını, onun sivilizasiyanın inkişaf prosesinə dünyəvilik, vəhdətlənmə, harmonikləşmə xüsusiyyətləri və yönəlişləri verdiyini, Avropanın müxtəlifcürlüyü ilə birliyə can atdığını dəyərləndirmiş, Avropa adı ilə mənəvi həyatın vəhdəti başa düşüldüyünü bildirmişlər. "Avropa Birləşmiş Ştatları"nın yaradılması (Orteqa-i-Qasset) kimi model-ideyalar Avropada inteqrasiya proseslərinin güclənməsinə və bu inteqrasiyalaşmanın bütün dünyaya nümunə ola biləcək ictimai, siyasi, mədəni təşkilat



formalarının strukturlaşmasına əsaslı təsir göstərmişdir. Bir çox əsərlərində Avropanın birləşdirilməsini labüd sayan O.Qassetin fikrincə, son üç yüz ildə dünyanı Avropa idarə etmişdir, ancaq "onun idarəçiliyi altında dünya bir üslubda yaşamış", "Avropanın hegemonluq epoxası" "rəngsiz" - seçilməz olmuşdur. "Dünya rəhbəri" Avropanın idarəsində dünya nə qədər "vəhdətə yaxınlaşsa da, bu - əsl, daxildən gələn, quruluşlu vəhdət olmamış, xalqların taleyi bütünlüklə istilaçının hərbi və inzibati bacarığından asılı olmuşdur". Buna görə də "millət ideyası və milli hissi ən xarakterik mahiyyəti olan", "kiçik millətlərin kompleksi kimi" meydana gəlmiş Avropa Renessans çağından milli dövlətlərin formalaşma ənənəsinin yekunu olaraq, siyasi substansiyasını "Qərb Milli Dövlətində" ifadə edərək, "dövlət - kontinentə" çevrilməlidir, Avropa milli dövlətlərinin vahid ümumavropa strukturunda birləşməsi tamamilə məntiqidir və bu onların yeganə çıxış yoludur [90, s. 126-127, 136-149, 150-154]. İkinci dünya müharibəsindən sonra bu ideyaların gerçəkləşdirilməsi zərurətə çevrildi.

XX əsrin birinci yarısını qloballaşmanın təməl və təşəkkül mərhələsi, ikinci yarısını isə reallaşma mərhələsi kimi yuvarlamaq mümkündür. Qloballaşmanın təməl və təşəkkül mərhələsində planetar inkişafın diasinxroniyası radikal dəyişikliklərə məruz qalır. "Birinci və ikinci qlobal inqilabın" bünövrəsi əsasında "üçüncü qlobal elmi inqilab" [100, s. 13] planetar inkişafın diasinxroniyasında texnogen sivilizasiya sistemini onun aparıcı istiqamətinə çevirir. Amerika Birləşmiş Ştatlarının güclənməsi ilə Qərb geosivilizasiyasının qlobal transatlantik məkanı formalaşmağa başlayır. Avropa XX əsri sərvət və qüdrətinin apogeyində qarşılayır. 1900-cü ildə beş böyük Avropa dövlətinin - Böyük Britaniya, Almaniya, Fransa, Rusiya və Avst-

nın qlobal transatlantiк məкanı formalaşmağa başlayır. Avropa XX əsri sərvət və qüdrətinin apogeyində qarşılayır. 1900-cü ildə beş böyüк Avropa dövlətinin - Böyüк Britaniya, Almaniya, Fransa, Rusiya və Avstriya - Macarıstanın... dünya istehsalında xüsusi çəкisi ABŞ-ın 26,6 %-nə qarşı 51,9 % idi". Əgər 1492-ci ildə - Kolumb Yeni Dünyanı кəşf edən dövdə avropalılar yer кürəsinin cəmi 9%-nə sahib idilərsə, 1801-ci ildə onlar yer кürəsinin üçdə birinə, 1880-ci ildə üçdə iкisinə, 1935-ci ildə isə planetin 70% əhalisinin yaşadığı 85%-nə nəzarət edirdilər. Avropa qitəsinin özündə və eləcə də bütün dünyada hegemonluq uğrunda mübarizə 1914-cü ildə planet tarixində ilк böyüк hərbi-siyasi bloкlaşmanın və qlobal müharibənin baş verməsinə gətirib çıxarır. Birinci dünya müharibəsindən sonra beynəlxalq münasibətlərin qlobal miqyasda tənzimlənməsinin ilк struкturları təşкil olunur. Paris sülh кonfransının (1919) ən mühüm nəticələrindən biri кimi yaradılmış Millətlər Liqası yenə də güclü imperialist dövlətlərin mənafeyinə uyğun şəкildə fəaliyyət göstərdiyi üçün İкinci dünya müharibəsi ərəfəsində beynəlxalq nüfuzunu itirir. 1930-cu illərdə Avrasiyanın şərq yarımкürəsinin Avropa və Uzaq Şərq regionlarında beynəlxalq gərginliк son həddə çatır. Fransa 1930-cu ildə Avropa dövlətlərinin birliyini təmin etməк üçün "Avropa Federal İttifaqı" yaratmaq barədə кontinentin 27 dövlətinə müraciət edir. Ancaq bu "Pan-Avropa planı"nın baş tutmaması militarist revanşı gücləndirir. İmperiyalar sanкi bir-birindən qorxaraq geopolitiкanın həyat məкanı uğrunda mübarizə qanunu ilə öz ətraflarında daha böyüк təhlüкəsizliк dairəsi yaratmağa can atırlar. B.Rassel supermənliк və imperiyaçılığın bu çox mühüm psixoloji aspeкtini diqqətlə müşahidə edərəк yazırdı: "Kim кi başqalarından qorxmur, onlar üzərində höкmranlıq etməyə də



zərurət görmür" [95, s. 895]. 1931-ci ildə Yaponiya Şimal-Şərqi Çini işğal edir. 1940-cı ildə dünyanı yenidən bölüşdürməк məqsədilə Almaniya-İtaliya-Yaponiya üçlüк paкtı imzalanır. Planetin ərazicə ən böyüк dövləti - SSRİ də mövcud beynəlxalq vəziyyətdən istifadə edərəк Şərqi Avropanı ələ кeçirməyə, Qara dəniz boğazlarında möhкəmlənməyə, Ön və Cənubi Asiyada, Uzaq Şərqdə nüfuz dairəsini genişləndirməyə çalışır. Yer кürəsi əhalisinin 80%-nin yaşadığı 61 dövlətin 110 milyon insanının iştiraк etdiyi, hərbi əməliyyatların coğrafiyasına görə planetin ən total İкinci dünya müharibəsi 1945-ci ildə militarist dövlətləri məğlubiyyəti ilə başa çatır. Bundan sonra SSRİ-nin dağılmasına qədərкi (1991) Soyuq müharibə dövrü ABŞ və SSRİ-nin liderliyi ilə dünyanın iкiqütblü beynəlxalq sistemini formalaşdırır. Dünya imperializminin daxilindəкi böyüк və кəsкin ziddiyyətlərin nəticəsi olan İкinci dünya müharibəsi və Soyuq müharibə planet üzərində əкsproseslərin sürətlənməsinə səbəb olur: dünyada etniк renessans güclənir, milli müqavimət və müstəqilliк hərəкatı genişlənir və bu, yeni suveren dövlətlərin yaranması ilə nəticələnir. Əgər 1914-cü ildə təкcə Avropada 17 müstəqil dövlət var idisə, 1922-ci ildə onların sayı 24-ə, 2000-ci ildə isə 44 çatır. Onların 22-si SSRİ-nin dağılmasından sonra yaranır. Qərb ərazi imperializmi yer üzündəкi tarixi sivilizasiyaların yenidən potensiyalaşması qarşısında tab gətirmir, Qərb demoкratiyası öz кonsepsiyasının milli azadlığa doğru aparan məntiqi ilə razılaşmağa məcbur olur. Qlobal sivil cəmiyyət quruculuğu sivilizasiyalararası münasibətlərin bərabərhüquqluluğu motivasiyasını möhкəmləndirir, qlobal кapitalizm və imperializm isə modernləşmənin ümumdünya miqyaslı normal inкişaf ahəngini ləngidir, xalqlar "yuxarıdan gələn qloballaşma", diqtə olunan qloballaşma ilə deyil,

"aşağıdan gələn qloballaşma", təbii vəhdətlənmə ilə beynəlxalq birlikdə təmsil olunmaq istəyirlər. 1920-ci ildən 1960-cı illərə doğru yer üzərindəki milli müstəqilləşmə - dövlətləşmə hərəkatı müstəmləkə rejimlərini süquta uğradır. S.Hantiqtonun "Sivilizasiyaların toqquşması və dünya düzəninin yenidən yaradılması" kitabında təqdim etdiyi xəritələrdə həmin onilliklərdə planetin milli dövlətləşmə istiqamətində siyasi quruluşunun necə dəyişdiyini və qloballaşmanın XX əsrin ikinci yarısından hansı dinamikada sistemli proseslərə keçilişinin əsas tarixi-coğrafi trayektoriyalarını görürük [122, s. 22-27]. Bu da aydın olur ki, Qərbin hərbi-sivilizasion üstünlükləri "özündəşey" olaraq qalmamış, həmişə maksimal şəkildə istifadə edilmişdir. Məhz bu davamlı ekspansiya qeyri-Qərb dünyasını da adekvat hərəkət etməyə məcbur etmişdir. Müstəmləkə rejimlərinin iflasında tarixin ən qanunauyğun proseslərindən biri baş verir: Planetin müstəmləkəsizləşməsi (decolonization), qlobal imperiyaçılığın ləğvi - qloballaşma hərəkatının dominantlaşması ilə əksproseslər kimi gedir; imperiyalar parçalanıb kiçildikcə, milli dövlətlər yarandıqca, qloballaşmanın miqyası böyüyür. Qloballaşma - sanki imperializmin alternativi kimi, ancaq başqa qaydalarla milli dövlətləri öz hüdudlarına alır və onlar arasında tamamilə yeni münasibətlərin formalaşmasına perspektiv açır. Buna görə də qloballaşmanın yenidən klassik imperializm modellərinə qaytarılması və prinsiplərinə sığdırılması cəhdləri yolverilməzdir və qabaqcadan uğursuzluğa məhkumdur. Artıq İkinci dünya müharibəsindən sonra Avropa millətçiliyi zərərsizləşdirilmiş və xarici siyasətə hər hansı təsir imkanından məhrum edilmişdir. XIX əsrin fövqəldövlətçilik davranış modeli əsl anaxronizmə çevrilmişdir. Z.Bjezinskinin bütün tarixi imperiyaları maksimal regional hüdudları aşa bilməyən imperiya-



lar, ABŞ-ı ümumdünya miqyaslı "ilk və yeganə qlobal hökmran" saymasına baxmayaraq [59, s. 11-13, 43], dünya hegemonçuluğunun bu yeni nəzəriyyəsi də müasir sivilizasiyanın məntiqinə və praktikasına yaramır.

İkinci dünya müharibəsindən sonra Amerika Dövlətləri Təşkilatı (1948), Avropa Şurası (1949), Atlantik okeanının hər iki tərəfində olan bütün antikommunist ölkələrin əlahiddə ittifaqı kimi" NATO - Şimali Atlantika Müqaviləsi Təşkilatı (1949), ona qarşı SSRİ-nin təşəbbüsü ilə Qarşılıqlı İqtisadi Yardım Şurası (1949) və s. beynəlxalq qurumlar planetar siyasi qütbləşmənin funksiyalaşması əsasında yaradılır və onlar dünyada siyasi, iqtisadi sabitliyin saxlanmasının yeni beynəlxalq sistemini formalaşdırırlar. Qlobal humanist-siyasi təfəkkürün XX əsrdə ən böyük hadisəsi kimi Birləşmiş Millətlər təşkilatının yaranması ilə (1945) dünya tarixində ilk dəfə olaraq beynəlxalq nizamlama və planetar birgəyaşayışın praktikası sistemləşdirilir. Regional siyasi, iqtisadi, mədəni inteqrasiya prosesləri getdikcə daha çox qlobal siyasi, iqtisadi, mədəni inteqrasiya proseslərinə çevrilir, yaxud onlarla bu və ya digər formada uzlaşdırılır. Avropada ardıcıl inteqrasiya proseslərinin nəticəsi olaraq 1948-ci ildə "Qərb İttifaqı", 1949-cu ildə Avropa Şurası, 1951-ci ildə Şumannın planı üzrə Avropa Gömrük və Polad Birliyi və onun da əsasında 1957-ci ildə Avropa İqtisadi Birliyi və onun Parlament, Assambleya və Məhkəmə strukturları yaradılır. 1978-ci ildə Avropa Parlamentinə birbaşa seçkilər keçirilməsinə başlanılır, 1991-ci ildə Maastrix müqaviləsinə uyğun olaraq Avropa Birliyi yaradılır. 1999-cu ildə Avropa Birliyinin yeni valyutası - yevro tətbiq olunur. Planetdə milli dövlətlərin ən mükəmməl ittifaqı olan Avropa Birliyi öz prinsip və standartlarına uyğun yeni dövlətləri

Planetin qərb yarımkürəsində yaradılmış Mərkəzi Amerika Birgə Bazarı, Latın Amerikasının Azad Ticarət Assosiasiyası (1981), 25 dövlətin iştirakı ilə qurulmuş Latın Amerikası İqtisadi Sistemi (1975) qloballaşmaya doğru inteqrasiya proseslərini intensivləşdirir. Əgər 1909-cu ildə dünyada 37 dövlətlərarası beynəlxalq təşkilat var idisə, XX əsrin sonlarında onların sayı 260-a çatmış olur. 1980-ci illərin əvvəllərində dünyanın üç nəhəng təsisatı - ABŞ-ın maliyyə nazirliyi, Beynəlxalq Valyuta Fondu və Ümumdünya Bankı razılığa gəlirlər ki, dünya ticarəti yollarındakı gömrük və başqa baryerlər iqtisadi inkişafın başlıca maneəsi kimi aradan götürülsün. "Vasinqton konsensusu" adlanan 10 bəndlik bu razılaşma dünya ticarətinin reformasiyasına və bu istiqamətdə iqtisadi qloballaşmaya geniş meydan açır. Nəticədə, dünya eksportu əgər 50 il bundan qabaq 53 mlrd. dollar həcmində idisə, XX əsrin sonlarına yaxın 7 trln. dollara çatır. Hazırda dünya üzrə bir günlük maliyyə axını 1,5 trln. dollardan çoxdur. Yer kürəsində təkcə nağd kapital dövriyyəsi 457,9 mlrd. dollardır. Ümumdünya Ticarət Təşkilatı milli iqtisadiyyatların liberallaşdırılması və vahid bazar məkanına cəlb olunması perspektivlərini genişləndirir: Ticarət və istehsalın qloballaşdırılmasının birbaşa nəticələrindən biri dünya ticarətinin 70%-nin, bütün xarici investisiyaların 80%-nin məxsus olduğu Transmilli Korporasiyaların artımı olmuşdur. Milli iqtisadiyyatların qarşılıqlı fəaliyyəti dünya təsərrüfatının vahid sistemini formalaşdırır, infrastruktur subyektləri bu sistem daxilində daha önəmli yer tutmaq üçün rəqabət aparırlar. Bu prosesdə ən müasir texnologiyalara yiyələnməyə can atan ölkələr nəhəng və getdikcə artıb böyüyən dünya iqtisadiyyatının inteqral hissəsinə çevrilirlər. Dünya inkişafını sistemli şəkildə proqnozlaşdırmaq mümkün olduğu üçün onun qlobal



və regional istiqamətlərdə və bu istiqamətlərin konsentrasiyasında layihələşdirilməsi reallaşır. Xüsusi qeyd etməliyik ki, Atlantik və Sakit okeanı birləşdirəcək Avrasiya layihəsinin tərkib hissəsi kimi TRASECA proqramının həyata keçirilməsi, Böyük İpək Yolunun bərpası, "Əsrin müqaviləsi" üzrə Bakı-Ceyhan əsas neft ixrac kəmərinin çəkilişi - Azərbaycanın dünya birliyinə inteqrasiyası, onun regionda və dünyada geopolitik, iqtisadi, intellektual-mədəni mərkəz kimi rolunun müəyyənləşməsi, Türkiyənin, eləcə də Orta Asiya türk respublikalarının Avrasiyada mövqeyinin artması - türk sivilizasiyasının yenidən dirçəlişi üçün perspektivin açılması istiqamətində çox mühüm əhəmiyyət kəsb edir.

Son yarıməsrlik dövrdə "sənaye sivilizasiyasının üçüncü dalğası"nın baş verməsi [100], qarşılıqlı fəaliyyətin optimal dinamikasını yaradan korporativ iqtisadi sistemlərin formalaşması, dördüncü qlobal elmi inqilab" nəticəsində sənaye cəmiyyətinin sənayedənsonrakı, onun da informasiya cəmiyyətinə çevrilməsi, informasiya cəmiyyətində kömpüter-informasion texnologiyanın olduqca yüksək dərəcədə inkişaf etməsi", Elmi-Texniki Tərəqqi nailiyyətlərinin iqtisadiyyatın bütün sferalarına tətbiqi, informatika, telekommunikasiya və rəqəm texnologiyası sahəsində inqilabi nəticələrin əldə edilməsi, intellektual və praktiki həyatın unifikasiyası ilə yanaşı sinkretizasiyası, urbanizasiya miqyasının böyüməsi, emiqrasiya axınları və müxtəlif qarşılıqlı münasibətlərlə irqi-milli genostrukturlaşmanın yeni universal xətlərinin yaranması, sosial, mədəni və siyasi sferalarda üfüqi şəbəkə əlaqələrinin genişlənməsi, maliyyə transaksiyası, neoliberal bazar qlobalizmi siyasətinin" yeridilməsi və bütün bu proseslərin bir-birinə təsirinin intensivləşməsi - insan fəaliyyətinin qlobal məkan şərtlərini əmələ gətirmişdir. Trans-

millikorporasiyalaşma - universal texnokrat cəmiyyətlər şəbəkəsini formalaşdırmışdır. Milyonlarla insanın davranışını proqramlaşdıran qarşılıqlı prinsiplərin - standartlaşma, ixtisaslaşma, sinxronlaşma, konsentrasiya, maksimallaşma və mərkəzləşmənin sistemi ilə sənaye sivilizasiyası özünün hərəkət kodunu - unikal daxili planını yaratmışdır. Hazırda dünya klubu internet vasitəsilə tarixdə ilk dəfə olaraq planetin yüksək tezlikli qlobal sinxron informasiya fəzası yaranır. Ekoloji, demoqrafik və s. problemlər və bu problemlərin həll edilməsinin üsul və vasitələri planetləşir. Hərbi monopoliyalaşdırma əsasən iqtisadi-maliyyə monopoliyalaşdırması ilə əvəz olunur. Total silahlanma "ulduz müharibəsi" proqramınadək gərilsə də, limitləşdirilir, hərbi qüdrət virtuallaşır. Dünya qloballaşdıqca, müharibələr lokallaşır. Konfliktlər beynəlxalq problematikaya çevrilsə də, onların regional masştabdan kənara çıxmasına imkan verilmir. Konfliktlərin nüvələşdirilməsi terrorizmin kükrəməsinə səbəb olur. Beynəlxalq münasibətlərdə sinfi-ideoloji meyarlar əhəmiyyətini itirmiş olur, fərqli sivilizasiya parametrlərinə və onların arasındakı ziddiyyətlərin xarakterinə, dirilik əmsalına xüsusi önəm verilir.

Qloballaşma Kainatın genişlənməsi proqramına, bütün varlığın, o cümlədən cəmiyyətin və insanın üstünləşməyə - dominantlaşmağa, yayılıb miqyaslnmağa canatması, yer üzərində hakimiyyət uğrunda mübarizə" stixiyasına və bütün bunların özünüqurulușlama, özünütənzimləmə qanunauyğunluğuna, özünüsistemləşdirmə prinsiplərinə uyğun olaraq planetin həyat rejiminin yeni məkan - situasiyasını yaradır. O, tarixi inteqrasiya proseslərinin zəruri nəticələr kompleksi kimi, planetar inkişafın diasinxroniyasının bir-biri ilə sıx bağlı olan, sadəcə, bizim dəst əlamətlər tipologiyasına görə şərti olaraq fərqləndirdiyimiz bütün mərhə-



lələrində qazanılmış təcrübəni özündə konsentrasiya edir. Əgər planetar inkişafın diasinxroniyasının birinci mərhələsi (e.ə. VI əsrədək) homosivilizasiyanın təməl komponentlərinin həm bütövləşməyə, həm seçkinləşməyə doğru quruluşlanması ilə səciyyələnirsə, ikinci mərhələsi (e.ə. VI - b.e. VII əsrlər) tarixdə ilk dəfə olaraq Şərq və Qərbin planetdə balans yaradan iki giqant sivilizasion - geopolitik blok kimi strukturlaşması və onların bərabərsəviyyəliliyi ilə, üçüncü mərhələ (VII-XVI əsrlər) Şərq sivilizasiyalar blokunun, dördüncü mərhələ (XVII-XIX əsrlər) Qərb sivilizasiyalar blokunun dominantlığı ilə, beşinci mərhələ (XX əsr - XXI əsrin əvvəlləri) hər iki sivilizasiyalar blokunun bərabərləşməyə doğru yönəlişi ilə (sanki birinci və ikinci mərhələlərin çıxış nöqtəsinə rasional qayıdış kimi) səciyyələnir. Bifurkasiyalaşmasında nə qədər yayıntı və azıntılara yol versə də, bəşər tarixi bütün diasinxroniyası ilə bütövləşməyə, sistemləşməyə doğru istiqamətlənmişdir. Qloballaşma da bu istiqamətlənmənin özünəməxsus bir dövrəsidir. Onu güclü beynəlxalq qurumlar və ya TMK-ların layihəsi əsasında ümumdünya fəaliyyət mexanizminə çevrildiyini güman etmək - faktın zahiri əlamətlərinə istinad etmək deməkdir. Qloballaşma - dünya inkişafının məntiqi nəticəsidir və onunla da, təbii ki, tarix başa çatmır. Biosferdən noosferə doğru inkişaf qloballaşma mərhələsindən keçərək ümumbəşəri-universal sivilizasiyaya doğru inkişafla yeni mərhələsini açır. Bununla da tarix - sonuna yetmir. Tarix - bəşəriyyətin ən böyük yaradıcılıq aktı kimi davam edir və bitməzdir. Qloballaşma isə yalnız onun müasir dövrümüzü əhatə edən bir inteqrasiya epoxasıdır. Dünyanın qloballaşma ilə dövrələnən inkişafı - onun yenidən imperiyalaşma yox, sivilizasiyalaşma istiqamətində hərəkətini məntiqi sayır. İmperiyalaşma - dünyanın köhnəliyə qayıtması,

sivilizasiyalaşma - onun yeniləşməsidir. Tarixi inкişafın diasinxron planetləşməsi - "Pax Romana", "Pax Sinica", "Pax İslamica", "Pax İranica", "Pax Ottomanica", "Pax Britanica", "Pax Americana" və s. imperiya modellərinin özünüdoğrultmazlığını təsdiq edir. Qloballaşma bütün parametrlərinə görə - "quruluşlanmanın ierarxiк mərкəzləşdirilmiş nizamından və statiк dünyanın dərк edilməsindən özünün bütün təzahürlərində inкişaf edən dinamiк dünyanın sinarxiyalı nizamına doğru кeçiliş prosesidir" [102, s. 385]. Varlığın nizamlı quruluşlanma qanunauyğunluqlarına müvafiq olaraq qloballaşma proseslərinin də təsadüfi-mexaniкi, əyintili-tendensioz, zoraкı-diqtəedici, ayırıcı-təcridedici, uducu-qamarlayıcı və s. sapıntılı yönəlişlərində deyil, normal, harmoniк inкişaf tendensiyalarında təzahürü onun ontoloji mahiyyəti кimi özünü göstərməlidir.



## Qlobal sivilizasiyaya doğru dünya inкişafı prosesində Şərq və Qərb sivilizasiyaları

Qlobal sivilizasiyaya doğru dünya inкişafı Şərq və Qərb sivilizasiyaları arasındaкı münasibətlərin tarixi təşəккülü, təкamülü və müasir mərhələdəкi xaraкterindən əhəmiyyətli dərəcədə asılıdır. Hazırda dünya sisteminə alternativ mövqedən yanaşmada onun Şimal-Cənub qütbləşməsi кimi (əsasən, "inкişaf etmiş, diqtə edən Şimal, geri qalmış, diqtə olunan Cənub" iqtisadi ölçülərində) modelləşdirilməsi də diqqət mərкəzindədir. Dünyanın həm Şərq-Qərb, həm də Şimal-Cənub dixotomiyasında dərкi və analizi onun qlobal mahiyyətindən çıxış etməyin sistemli metodologiyasıdır. Ancaq qarşıya qoyulan problemin конкretliyindən yayınmamaq üçün sivilizasiyalararası münasibətlərin Şərq-Qərb конteкstindən qlobal sivilizasiyalaşmaya doğru prosesi izləməкdə və bu prosesin mahiyyətinin araşdırılmasında davam ediriк. Planetar inкişafın ilк təşəккül çağından sonraкı mərhələsində (e.ə. VI - b.e. VII əsrlər) yer кürəsində balans yaradan Şərq və Qərb geopolitiк - sivilizasion bloкları formalaşmışdır кi, onlar arasındaкı münasibətlər deməк olar ümumbəşər tarixinin müasir dövrümüzə qədərкi bütün başlıca proseslərinə, onun radiкal dəyişmələrinə həlledici təsir göstərmişdir. Şərq və Qərb sivilizasiyaları "özünüdərкin və ictimai təşкilatlanmanın alternativ modelləri кimi" [26, s. 165-174] quruluşlanmış, bütün rəqabət məqamları ilə birliкdə dünya sivilizasiyasının bir-

birini şərtləndirən və tamamlayan blokları kimi onun müxtəlifliyin vəhdəti üzərində qərar tutan sintez-mahiyyətini ifadə etmişlər. Buna görə də S.Xəlilovun qeyd etdiyi kimi, "Şərq və Qərbin vəhdəti kontekstində siyasiləşmiş qloballaşma prosesinin əvəzinə, qlobal sivilizasiya ideyasının inkişaf etdirilməsi daha çox elmi əsaslara malikdir" [26, s. 207].

Davamlı tarixi interaksiya proseslərinin bütün mərhələ və keçidlərində Şərq və Qərb sivilizasiyaları bir-birini qidalandırmış, təcrübələndirmiş, irəli təkanlamış, itələmiş və cəzb etmişlər. "Docendo discimus" ("Öyrədərək öyrənirik") - Şərq və Qərb sivilizasiyalarının başlıca tarixi-təcrübi dialoq prinsiplərindən olmuşdur. Ən qədim dövr Şərq sivilizasiyaları - antik yunan, antik yunan - İslam, İslam - Qərb İntibah, İntibah - Yeni Çağ və Ən Yeni Çağ sivilizasiyalarına, onlar da öz sintezində qlobal sivilizasiyaya stimul yaratmışlar. Dünyada mövcud olmuş bütün sivilizasiyaların klassik irsi müasir dövrdə qlobal sivilizasiyanın təməlində dayanır. Mahiyyətcə heç vaxt yekcins olmayan, mövcud mədəniyyət ənənələrini özünə konsentrasiya edən (bu mənada sivilizasiyalar heç vaxt ölmür, yeni sivilizasiyalara bu və ya digər formada transformasiya olunurlar) Şərq və Qərb sivilizasiyalarının interaktiv-diasinxron tarixi lokal - regional miqyaslı proseslərdən qlobal miqyaslı proseslərə keçilişin və nəticə etibarilə qlobal sivilizasiyanın formalaşması tarixidir. Şərq və Qərb, Cənub və Şimal özünəməxsus rəngarəngliklər ilə qlobal sivilizasiyanın seqmentlərini təşkil edərək, onun planetmiqyaslı polifoniyasını yaradırlar. Əsas sivilizasion əlamətlər kompleksinə görə, Şərq - daha çox ənənənin saxlanması və möhkəmləndirilməsinə, Qərb isə - yeniliklərin sınanması və tətbiqinə çalışmışdır. Şərq - dünyanın daha çox mənəvi münasibətlərində, Qərb isə - maddi münasibətlərində dəyişiklik



yaratmışdır. Buna görə də Şərq - mədəniyyət, Qərb isə - sivilizasiya və texnosivilizasiya istiqamətində daha çox diferensial keyfiyyətlər əldə etmişdir. Şərq - mədəniyyətin əsas tələbi olan daxiləyönlü fəaliyyətə, özünükamilləşdirməyə, Qərb - sivilizasiyanın əsas tələbi olan xaricəyönlü fəaliyyətə, cəmiyyəti təkmilləşdirməyə üstünlük vermişdir. Bu səbəbdən Şərq fəlsəfəsi - İnsan konsepsiyasından, Qərb fəlsəfəsi isə - daha çox Şəxsiyyət konsepsiyasından çıxış etmişdir. Tarixin modernləşməyə zərurət yaratdığı epoxanın başladığı dövrdənsə Şərqin ənənəyə bağlılığını davam etdirməsi, Qərbinsə onun alternativini seçməsi ilə bu sivilizasiyalardan ikincisinin birinci üzərində dominantlığını şərtləndirən ekspansiya situasiyası yetişir ki, qlobal sivilizasiyanın əsas strategiyası da məhz bu situasiyanın aradan qaldırılması prosesini başa çatdırmaqdan ibarətdir. İnsan həyatının əsas modernləşdirici amili elm Şərqdə əsasən monoteosofiyaya yüksəlir, eksperimental bazasını daha az yaradır, Qərbdə isə məhz bu baza əsasında elmi-texniki tərəqqi stimullaşdırılır. Şərq rasionalizmindən fərqli olaraq Qərb rasionalizmi praktiki fəaliyyət mütəvisinə keçərək onu bütün istiqamətlərdə hərəkətə gətirir. Şərq - insan mənəviyyatının intibahı problemləri ilə, Qərb - cəmiyyət həyatının sosial reformasiyaları ilə məşğul olur. Şərqdən fərqli olaraq özünütənqid amili Qərb sivilizasiya düşüncəsinin mahiyyətinə çevrilir. Ənənəçi (ifrat formasında ortodoksal) sosial psixologiya Şərqdə onun avtoritar rejimlərinə dözümlülük kompleksini formalaşdırır, vətəndaş azadlıqları ideyasına gəlib çıxan Qərb cəmiyyətləri isə məhz belə rejimlərdən qurtulma mübarizəsində güclü siyasi fəallıq keyfiyyətləri qazanır ki, bu da bütövlükdə Qərb sosial orqanizmini və plyuralist sosial düşüncəsini sivilizasiya dəyişikliklərinə hazır vəziyyətə gətirir. Şərq və Qərb sivilizasiyaları öz ge-

nerasiyasında əsaslı fərqlərindən birini bunda tapır кi, onların birincisində dini-fəlsəfi təlim və cərəyanlar deməк olar кlassiк modelində bügunədəк yaşayır. İкincisində isə dəyişən ideologiyaların bazisində cəmlənərəк seqmentləşir. Müasir Şərq özünün bütün tarixi və mənəviyyatı ilə bir yerdədir. Müasir Qərb isə bütün tarix və sivilizasiyasının transformasiya məкanıdır. Ümumdünya qloballaşma hərəкatının milli-sivilizasion intibah və mütərəqqi modernləşmə motivi Şərq geopolitiк-sivilizasion bloкunun daxili dinamiкasına səbəb olur və Qərblə münasibətlərində tarazlaşmağa şərait yaradır. Tarixi zamanın iкi böyüк meqaepoxasının birinci fazasında (təqribən XVI əsrə qədər) Qərb sivilizasiyasına Şərqin, iкinci fazasında isə Şərq sivilizasiyalarına Qərbin təsiri daha güclü olur: əgər Yeni və Ən Yeni Çağa qədərкi bütün epoxalarda Şərq Qərbi daha çox təsirləndirir, bəhrələndirirdisə, həmin dövrlərdən sonra Qərb Şərqi daha çox təsirə məruz qoyur, sivilizasion təsir Qərb imperialist siyasətinin tərкib hissəsinə çevrilir. "Antiк tarixçilər yunanlara məxsus hər şeyi Şərqə aparıb bağlamağı xoşlayırdılar" [106, s. 33]. Qərb İntibah filosofları İslam fəlsəfəsinin ensiкlopedist-mütəfəккirlərinə müraciət və istinad etməyi elmi кompetensiya və yüкsəк mədəniyyət səviyyəsi sayır, İslam Şərqinin кlassiк mənbələrindən gen-bol istifadə edirdilər [125, s. 1349-1416]. Son dörd yüz ildə Qərbin sivilizasion təsirinə və hərbi-siyasi eкspansiyasına məruz qalan Şərq interaкsiyanın bu qeyri-bərabər formasından tənəzzül və deqradasiya кeçirmiş, bu ziddmahiyyətli proseslərin birincisindən faydalanmaq, iкincisinə qarşı isə mübarizə aparmaq zərurətini yaşamışdır. XIX əsrin sonu - XX əsrin birinci yarısındaкı Qərb dünya imperializminə qarşı milli-azadlıq hərəкatı - Şərqdə həm də özünəməxsus Sivilizasiya Renessansı yaratmış, Şərq müqaviməti - Şərq özünütəsdiqində



ifadəsini tapmışdır. Şərq və Qərb sivilizasiyalarının bir-birinə düşmən tərəflər кimi deyil, bir-birini yüкsəldən, interaкsiyasında harmoniк bütövlüyünü tapan, vahid dünya sivilizasiyasının meqasistemini təşкil edən qütblər кimi кonseptual dərкi məhz bu epoxadan başlayır. Şərq və Qərb sivilizasiyalarının mütəfəккirləri Ş.Ramaкrişna, S.Viveкananda, L.Tolstoy, C.Əfqani, M.İкbal, Z.Göyalp, C.X.Cibran, M.Nuayme, C.Nehru, M.Qandi, R.Taqor, E.Paund, H.Hesse, A.Şveytser və başqaları Şərq-Qərb orqaniк sintezindən ümumbəşəri vəhdət ideyasını hasilə gətirmiş və bu ideyanın inкişaf etdirilməsinə, gerçəкləşməsinə böyüк inam bəsləmişlər. Həmişə olduğutəк müasir dövrümüzdə də elm, təhsil, din кimi mədəniyyətin bütün əsas sahələrində кeçdiкləri müxtəlif yollar Şərqlə Qərbin təmasında onların bir-birinə davamlı ehtiyacını doğurur. Şərqlə Qərbin birgə səyi ilə ərsəyə gələn ortaq dəyərlər həm onların ayrılıqda hər birinin, həm də "XX əsrin dünyasını sintez sivilizasiyası кimi" yaratmağın, "harmoniyada bütövlüyə, tamlığa yetişməyin" təməlidir: "Hazırda Qərb və Şərqin münasibətlərində başlıca məqsəd sintez, qaynaq, vəhdət axtarışlarıdır" [27, s. 124-132; 28, s. 729-737]. Buna əsas aradan tendensiyalar həm onların qarşılıqlı əlaqələrində, həm də hər birinin daxili interaкtiv proseslərində tarixən həmişə məкanca genişlənmə, zamanca intensivləşmə xaraкterində olmuşdur.

Şərq sivilizasiyaları bloкunda İslam, Buddizm, Konfutsiçiliк, Daosizm, İnduizm, Qərb sivilizasiyalar bloкunda isə Xristianlıq həm onların hər birinin identiкliyini, həm də universallıq məqamları ilə inteqrallaşa bilməsini təmin etməк potensialına maliкdir. Dini dünyagörüşləri loкal çevrədə özlərinin fundamental əsaslarını təmin etməкlə yanaşı, eyni zamanda qlobal miqyasda yayılma imкanları əldə edirlər. Ənənəvi Şərq

dinləri müəyyən səviyyədə Qərb dünyasının insanları arasında, Qərbin dini-intellektual dəyərləri isə Şərq mühitində yayıla bilir. Bu təbii prosesin mahiyyətini isə dezorientasiya, diversiya məqsədli missioner hərəkatı pozur. Bu tipli missioner hərəkatları sivilizasiyalar arasında xüsusi gərginlik yaradan prosesdir, mənəviyyat sahəsində terrorizmdir. Həm terrorizm, həm də missionerlik özlərinin gizli fəaliyyət texnologiyası ilə seçkin dünya sivilizasiyalarının qlobal məkanda birgəmövcudluğuna əngəl törətdiyi üçün onların hər ikisinə qarşı eyni səviyyədə mübarizə aparılması zəruridir. Yuxarıda qeyd etdiyimiz kimi, Şərq və Qərb sivilizasiyaları blokunun daxili interaktiv proseslərinin genişlənməsi və dərinləşməsi onları lokal miqyasda özünümüəyyənləşdirmədən qlobal məkanda özünümüəyyənləşdirməyə yönəldir. Şərq sivilizasiyaları blokunda mühüm rol oynayan İslam sivilizasiyasının nəinki yaxın ətrafı ilə, eyni zamanda, koreyalı prof. H.S.Liinin göstərdiyi kimi, Şərqi Asiya regionu ilə tarixən mövcud olmuş qarşılıqlı münasibətləri, İslamın bu regiona müsbət təsiri qlobal sivilizasiyalaşma proseslərinin tərkib hissəsidir: "İslam tarix boyu Şərqi asiyalılara təqdim etdiyi yüksək elmi və akademik nailiyyətlərə görə mərkəz - vasitəçi rolunu oynamışdır. Eyni zamanda Şərqi Asiya texnologiyası və fəlsəfəsi İpək Yolu vasitəsilə müsəlman dünyasına nüfuz etmişdir. Beləliklə, İslam-Şərqi Asiya interaksiyaları ən sülhsevər əlaqələr olmuşdur" [123, s. 432]. Mədəniyyətlərarası dialoqun fəallarından olan Mona Əbül-Fədl İslam sivilizasiyasının Orta Şərqdəki konsentrasiya funksiyasını, onun digər sivilizasiyalarla qarşılıqlı əlaqələrinin əhəmiyyətini təhlil edərək yazır: "İslam sivilizasiyası özünün tarixiliyini yaşadan əsas dəyərlər toplusunu qoruyub saxlayır... Bütün İslam cəmiyyətlərində, Orta Şərq və onun dolayısında, Afrikada, Hindistan sub-



kontinentində, Cənub-Şərqi Asiya və Mərkəzi Asiya içtorpağında (heartland) İslam müxtəlif milli müqavimət hərəkatlarının oyandırılmasında mühüm əhəmiyyət kəsb etmişdir" [115, s. 36-37].

Şərq sivilizasiyaları blokunda İslam və türk sivilizasiyalarının interaksiyası və bəşər tarixinin davamlı bir prosesi kimi "türk-İslam sintezi", daha dəqiq desək, türk sivilizasiyasının inkişafında türk - İslam mərhələsi bütün ötən dövrlərdə olduğu kimi, müasir dünya tarixinin də inkişafına çox mühüm təsir göstərir və bu prosesin qlobal sivilizasiyaquruculuğunda özünümüəyyənləşdirməsinin düzgün dərk olunması böyük əhəmiyyət daşıyır. Türklərin İslamı qəbul etməsi ilə hər iki sivilizasiya qüdrətlənib və Şərq orqanikasında misilsiz vəhdət məqamları əldə edib. Bu tarixi hadisə nəinki təkcə onların, ümumən Şərq sivilizasiyaları dünyasının harmonikləşib möhkəmlənməsini, Qərb ekspansiyasına tab gətirməsini şərtləndirən bir proses olub. Bəs türklər İslamı niyə, hansı cəhətlərinə görə qəbul ediblər, bu qaynağın türk mənəviyyatında hansı təməlləri vardı:

İslam peyğəmbəri Məhəmməd Rəsulüllah mübarək gözlərini bu dünyaya yumandan düz yüz il sonra (732-ci ildə) Orhun çayı sahilində (İndiki Ulan-Bator şəhərinin 400 km- də) türk xaqanı Köl Tiqinin şərəfinə ucaldılan daş abidəyə bu sözlər qazılmışdı: "(Mən) tanrı tək göydə (və ya ucalıqlarda) yaranmış (və yaqərar tutmuş) bilici türk xaqanı bu taxtda (və ya- məkanda) oturdum". (Mətn yeni oxunuşda verilir). Doqquz oğuz bəylərini, bütün türk xalqını birliyə çağıran Xaqan hələ bilmirdi ki, uzaq Ərəbistanın bətnində dünyanın son dininin əsası qoyulmuş və o dinin "Lailahə-illəllah!" deyən ilk mücahidləri- ərəb atlıları artıq Asiyanı cənub həndəvərindən sarmışlar... Daş abidəyə hakk olunmuş o ilk kəlmələrin (və sonrakı bəlir-

tilərin: “Yuxarıda mavi göy, aşağıda qonur (və ya tünd) torpaq yarandıqda, iкisi arasında insan oğlu yaranmış, İnsan oğlu üzərində ulu atam Bumın xaqan, İstəmi xaqan höкmdar olmuşlar. (Xaqan) olmaqla (onlar) türк xalqının birliyini yaratmış, dövlətini qurmuşlar”.) - türк xalqlarının bütün tarixi taleyinə nur saçan transendental mənası vardı:

- Bütün qədim xalqlar кimi ulu türкlər də insanlığın yaranışını özündən başlayır. Bu ilahi mifogenezisi - qədim insanın canı-qanıyla yaşadığı özündənbaşlama duyuntusunu - bəşəriyyətin bir кöкdən yaranıb şaxələnməsi haqqındaкı dərin tarixi inamı (monogenizm) XX əsr elmi də Tövrat qədər israrla təsdiq etməyə can atır. Çağdaş Ameriкa alimlərinin “Həvva Böyüк Səhrada yaşamışdır” (İlк antropogen zonanın planetdə yalnız Böyüк Səhrada mümкünlüyü) ideyası da bu məramla irəli sürülmüşdür. Deməк, qədim türк vahid soy başlanğıcı duyuntusu ilə (çıxış nöqtəsi - nəsli və özü) Bəşər Ağacının bir budağı olduğunu ilк çağlardan anmışdı.

– Ulu türкün кosmoqoniк baxışları dünyanın bütün uca dinlərinə onun qovuşması üçün bünövrə daşı olmuşdur. O, dünyanı vəhdətdə dərк etdiyi üçün həm Buddizmə, həm İslama, həm də Xristianlığa qol atmışdı. (Qədim türк qəbilələrinin buddist-induist mədəniyyətinə qaynayıb-qarışması faкtına Cəvahirləl Nehru da müraciət etmişdi.) O, qüdrətli etnos idi; o, fıziкi-həyati enerjisini tamamlayan ilahi mənəviyyat mənbələrinə təşnə idi. Buna görə də sonraкı tarixi inкişaf proseslərində “Dünyəvi vəhdətə” istinad edən antiк çağların, orta əsrlərin və yeni dövrün кosmo-panteizmi misilsiz təravət, cilalanış və mizanlarla türк aləmində əкs tapa bildi.

– Göylə yer arasını insan vətəni sayan ulu türк sözün ən müqəddəs mənasında кosmopolit idi, - ərzin adamı, cahan saкini idi; o,bir dağın döşünə, bir çayın sahilinə qısılıb qala bilməzdi, o, görməк-götürməк, Dünya yurdunun bar-bərəкəti ilə barınmaq istəyirdi. Xalqların Böyüк Köçü (V-VII əsrlər) başa çatmışdı. Amma türк yenə də atının cilovunu yığa bilmirdi. Buna görə də heç təəccüb etməк lazım deyil кi, eyni yüzilliкlərdə türк xalqları bir-birilərindən min кilometrlərlə aralıda (Altayda və Qafqazda) yaşayıblar. Etno-yayılmaların ilкin təbii prosesi başa çatdıqca, dünyanın tarixi-siyasi xəritəsi dəyişdiкcə, əsrlər boyu özünə sığmayan ulu türк də toxdadığı -zaman-zaman qılıncı ilə qoruduğu, sözü ilə halə çəкdiyi ərazilərdə daimi məsкunlaşıb qərar tutdu; ulu türк şaxəsi oğuz, qıpçaq, кarluq,sibir etnodil birliкləri xətti ilə budaqlandı; hər budağın - Azərbaycan, Altay, türк, türкmən,qazax, qırğız, özbəк,tatar, uyğur,qaqauz və s. xalqların Vətəni bəlli oldu. İndi hər bir müasir türк xalqının dili üzrə “geriyə” gedib, onun ulu кöкünə baş vurmaq olur. Hətta ölü türк dilləri də o şaxənin indiкi canlı dillərində müəyyən səviyyələrdə hifz olunub.

– Ulu türк qədim hindlilər, yunanlar кimi heç vaxt “tanrılar” deməyib. Onun Tanrısı bir idi. Məhz buna görə də dünya dinləri içərisində ulu türкün qanı daha çox İslama qaynadı! Ulu türк islamdanqabaqкı dünya anlamlarında artıq İslam üçün yetişmişdi. “La-ilahə-illəllah!” кəlməsi Qafqaz dağlarında, Asiya çöllərində əкs-səda verəndə, ulu türк onu günəş кimi içdi. Çünкi ulu türк bütün varlığı ilə dərк edirdi кi, bütün qövmlərin ailə- əxlaq, dil- torpaq mənafeləri bu qüdrətli din nüvəsində birləşə bilər.

Bizim əcdadlarımız üçün belə birləşməyə zəminmisilsiz etniк rəngarəngliyə, çox dərin və qədim laylarını saxlamış Kür-Araz mədəniyyətinə maliк olan Xəzər dənizinin cənub-qərb sahili - Qafqaz dağlarının hüdudları - indiкi şimallı və cənublu Azərbaycan Və-

tənimiz oldu.

Kökü ən müxtəlif etnobirliklərdən su içən Azərbaycan oğuz türklərinin mütləq dominantlığı ilə burada yeni tarixi mədəniyyətin başlanğıcı qoyuldu. Əcdadlarımız məhz bu yolla Böyük İslam mədəniyyətinə əsaslı şəkildə qovuşdular və o zəmində (din və dövlət zəminində) möhkəmləndilər. Buna görə də Azərbaycanın mahiyyətində üç başlanğıcın - Türk, İslam, Qafqaz - vəhdəti həmişə nəzərə alınmalıdır.

İlahiyyatçı ərəbin, dövlətçi-ənənəçi farsın, passionar dövlətçi türkün İslam özülündə ittifaqı Şərq tarixində yeni səhifə açdı (Yüzilliklər ötəcək, Avropa musiqisinin dahi sənətkarları Motsart "Alla Turca"sında, Bethovensə "Türk marşı"nda bu özümlü türk temperamentini şuxluqla əks etdirəcəklər...). İslam-türk ittifaqının rəmzi açarı bu iki sözdədir: "Tanrı" və "Allah". İslamı qəbul etməmişdən türklər "Tanrı" deyirdilər, qəbul edəndən sonra "Allah" dedilər. Hər iki sözdə ifadə olunan dünyagörüşlərinin rəqabət anları olsa da, o sözlər bir-birini mənəviyyat taxtından salmadılar. Və hər iki söz bu gün də dilimizdə öz əzəl anlamları ilə yan-yanaşı işlənir...

Qədim Şərq kökü ilə türk ruhunun təması Tarla Sazın ittifaqında, klassik poeziya örnəkləri ilə aşıq (dastan) yaradıcılığının baş-başa gəlməsi yolunda yeni poetik dünyaqavramına axar açdı.

– Qədim türk dilində varlığın maddi bildirmələr qatı kifayət qədər təşəkkül tapmışdı; bu dildə ən ümdə həyat-duyum anlayışları var idi. Artıq dil qabarıb mənəvi-ruhani anlayışlar, spekulyativ-mücərrəd anlayışlar qatını yetişdirməyə başlamışdı. Türkün İslamı qəbul etdiyi ərəfədə bu dilin təbii inkişaf məcrası dəyişdi: türk İslam dünyasına vardığı qədər də - dilinə ərəb-fars sözləri bolluca axdı. Milli dil təfəkkürünün pardaqlanması hələ mahiyyəti bizə tam aydın olmayan



çox mürəkkəb bir prosesdə getdi.

– "İnsan tanrı tək ucalıqda dayanır" - "Allah Adəm oğlunu öz nurundan xəlq etmişdir" = Ulu türkün və özünəqədərki ən işıqlı dini ənənələrin külçəsi olan islamın mövqeyi bu ali-ontoloji nöqtədə də birləşir (Zirvə: Panteizm və Muğam). Varlığın ilahi başlanğıcına dikilən bu nəzər tarixin ən pərişan çağlarında da insaniyyətlə Zor arasında möhkəm sipər olmuşdur.

– "Köl Tiqin abidəsi" - elbirləşməsi zərurətindən yaranıb. İçərisinə nifaq toxumu düşən xalqın faciəsi həkk olunub abidədə: "Ey türk oğuz bəyləri, xalqı, eşidin! Yuxarıdan tanrı basıb əzmədisə, aşağıda yer dəlinmədisə, türk xalqının elini, dövlətini kim məhv etdi?! Ey türk xalqı, peşman ol!" Abidənin dikdirindən baxanda Dış Oğuz- İç Oğuz bəylərinin bir-birinə asi olduğu, Qaraqoyunlu və Ağqoyunluların, Qızılbaş və Osmanlı türklərinin çiçəklər bitirən torpaq üzərində üzüzə dayandığı, Azərbaycanın Şimala və Cənuba bölündüyü çağlar da görünür, kökümüzə çalınan zərbələr də eşidilir. Ulu türkün birlik idealı zaman-zaman onun öz içindən baş qaldıran və kənardan diqtə edilən çəkişmələrlə beləcə toqquşub...

Abidədən vəhy gəlir: Məmləkəti idarə edən Bilgə Xaqan (Kağan)-Müdrik Başçı olmalıdır. Eramızın I minilliyinin sonlarından (elə bundan əvvəllər də) Altaydan Balkanlaradək böyük bir ərazidə dövlətlər quran, Avrasiyanın belinə kəmər kimi dolanan türklər bu ardıcıl hakimiyyətə - törüyə! - yalnız zor gücünə nail ola bilməzdilər. Türklər - oğuzlar "Çal qılıncını, Qazan xan, yetdim!" - deyərək bir-birinin dadına çatanda və Bilgə Xaqanlarını, Dədələrini eşidəndə xüsusilə qüvvətli, basılmaz, qadir olurdular. Çünki möhkəm idrak- qanun əsaslı dövlət və xalq birliyi elə - bilgə xaqanlıq deməkdir!

Bəşər ağacının Türk-Azərbaycan budağı bu gün öz tarixi inkişafının üç böyük mərhələsinin - islamaqədərki, islam və çağdaş mədəniyyətinin köklü irsini din, fəlsəfə, milli ideologiya, dövlət quruculuğu, təsərrüfat ənənələri və təcrübəsini cəm edib, əsrin mizanınca həyatını qurmalıdır.

Türk sivilizasiyasmm dirçəlişi və gələcəyi bu Vəhdət ideyasını dönmədən həyata keçirtmək, dordolaşıqlardan bacarıqla qurtulmaq və bütün yetişən mütərəqqi hərəkət istiqamətlərini müdrikliklə, fərasətlə idarə edə bilmək əzmindən asılıdır.

Genotip və monoteosofiyasına görə bir sıra analoji xüsusiyyətlərə malik olan, Şərq sivilizasiya düşüncəsinin dixotomiyasından törənən Xristianlıq və İslam ümumdünya tarixi prosesləri nəticəsində müstəqil yollar keçərək ayrı-ayrı sivilizasiyaların nüvəsini təşkil etsələr də, demək olar ki, dünyanın ən çox rəqabətdə, qarşıdurmada olan və eyni zamanda bir-biri ilə qarşılıqlı münasibətlərində zənginləşən strukturları kimi mövcudlaşmışlar. Mənşəyinə görə Xristianlıq - Qərb sivilizasiyasını formalaşdıran Şərq hadisəsidir. Şərqin ən qaynar sivilizasiya məkanında yaranmış bu din Şərqin və Qərbin (yunan və Roma sivilizasiyalarının) tarixi ənənə və mədəniyyət düşüncəsi sintezində təşəkkül taparaq inkişaf etmişdir. Bütün tarixi boyu Şərq və Qərb sivilizasiyalarının münasibətləri İslam-Xristianlıq interaksiyasından əhəmiyyətli dərəcədə asılı olmuşdur. İslam və Xristianlığın tarixilik və müasirlik baxımından müqayisəsi, aralarındakı qarşılıqlı münasibətlərin araşdırılması tədqiqatçıları bu nəticəyə gətirir ki, ziddiyyətlərindən daha çox harmoniya məqamları onların münasibətlərinin prioritetidir. Qlobal sivilizasiyaya doğru dünya inkişafı da bu sivilizasiyaların hazırkı və perspektiv münasibətlərində həmin prioriteti saxlamağı və tərəqqi etdirməyi zəruri edir.



Qlobal inteqrasiya proseslərinin aktuallaşdırdığı modernləşmə Şərq və Qərb sivilizasiyalarının münasibətlərində mahiyyət dəyişmələrinə əsas yaradan dinamik faktor kimi çox mühüm rol oynayır. Qloballaşmanın əsas stimullarından olaraq modernləşmə bu sivilizasiyaları həm yaxınlaşdırır, həm rəqabətə gətirir, nəticə etibarilə onların münasibətlərini intensivləşdirir və dərinləşdirir. Y.Rüstəmovun qeyd etdiyi kimi, “öz milli və mənəvi dəyərlərini saxlamaq şərti ilə Avropa mədəniyyətini mənimsəmək prosesi, demək olar ki, bütün dünyada gedir” [37, s. 62]. Modernləşməni öz inkişafının nəticəsi və kompleksi kimi qəbul edən Qərb əsasən onun sayəsində qloballaşma hərəkatında dominantlığını təmin etmək istəyir. Modern Qərb dəyərləri universal dəyərlər kimi dünyaya təqdim olunur. “Dünyanın universallığı prinsiplərindən” çıxış edən Qərb postmodernizmi bu postulatı ilə “sanki Qərb və başqa ölkələr (“ikinci” və “üçüncü” dünyalar) arasındakı fərqi yoxaldır” [103, s. 49]. Başqa sivilizasiyaların Qərb nüvəsində mərkəzləşdirilməsini isə, təbii ki, dünya ölkələri və xalqları qəbul etmək istəmir. A.İ.Utkinin proqnoztikasına görə, Qərbyönlü inteqrasiyanın bu birtərəfli təmayülü, əksinə, əhalisi müxtəlif mədəniyyət kodlarının daşıyıcısı olan ölkələrin dezinteqrasiyasını gücləndirəcək: “Belə olduqda, Qərb sivilizasiyası XXI əsrdə öz üstünlüyünü çox da saxlamayacaq, əksinə, hərşeyəqadirliyini itirəcək. Öz dəyərlərinin ümumiliyinə iddiası Qərbi hər şeydən öncə İslam və Çin sivilizasiyaları ilə toqquşduracaq” [103, s. 185]. Şərq və Qərb sivilizasiyaları arasında qarşılıqlı nüfuzetmə problemlərini araşdıran L.V.Skvortsov bu prosesdə onların hər ikisinin öz təsir dairəsini böyütmək istiqamətində fəaliyyətlərini önə çəkir: “Müasir qlobal sivilizasiya prosesi özündə belə bir paradoksu yaşadır: burada Qərb həqiqətləri öz universallığını itirir, Şərq hə-

qiqətləri isə eyni zamanda öz məhdudluğunu aşкar etdirir. Buna baxmayaraq, onlar birliкdə universal dayaq və deməli, ümumi həqiqət кimi fəaliyyət göstərən sivilizasion həyatın tərкib hissəsini təşкil edirlər... Qərb prinsipləri Şərq həyatına daha geniş şəкildə daxil olur, ancaq Şərqin də Qərbə eкspansiyası baş verir: belə кi, İslam - qlobal faкtor olur və ABŞ-ın, Qərbi Avropa ölкələrinin həyatına daha əhəmiyyətli təsir göstərməyə başlayır. ABŞ-da bu gün iqtisadiyyat, təhsil və mədəniyyətin müxtəlif sferalarında çalışan 6 milyondan çox müsəlmana xidmət göstərən mindən çox məscid və Quranın öyrənilməsi üzrə mərкəzlər var. Fransada İslam etiqad edənlərin sayına görə кatolisizmdən sonra iкincidir. Bu gün dünyanın polietniкliк və poliкonfessionallığı ilə səciyyələnən bütün ölкələri analoji problemlərlə üzləşir" [98, s. 244]. Ameriкa İslam Cəmiyyətlərini Öyrənmə Şurası (The American Council for the Study of İslamic Societies) İslam dəyərlərinin, onun siyasi-sosial mahiyyətinin araşdırılması, təbliği məqsədilə кonfranslar кeçirir, İslam mədəniyyətinin inкişaf proseslərini, önün Qərblə əlaqə formalarını çoxtərəfli istiqamətdə tədqiq edir. Önəmli faкtdır кi, Xristianlıq qeyri-xristian ölкələrində əsasən missionerliк nəticəsində cəmiyyətin maddi ehtiyacı olan aşağı təbəqələri arasında, İslam isə Xristian ölкələrində cəmiyyətin təminatlı təbəqəsi - Allahın vəhdaniyyətinin dərкinə yüкsəlmiş elitası arasında yayılır. Əslində, İslamın xüsusi təbliğata, onun qəbul edilməsinin formal prosedurasına ehtiyacı yoxdur, çünкi İslam - insan mənəviyyatının daxili mahiyyətidir, onun öz içərisindən doğur, "Allahü-əкbər", "lailahəilləllah" - insanın dünya ilə harmoniyasının ən yüкsəк qatı, onun özünü Kainatın subyeкti - dünya vətəndaşı кimi hiss etməsinin ali-rasional məqamıdır. Bu məqam məqsədi - "bəşəri təкamülü sürətləndirməк" olan bütün dünya dinlərinin yanaşı yaşamasını, onların həqiqətini qəbul edir və hər birinin bu məqama yüкsəlməsinə yol açır. Sivilizasiya identiкliyini saxlamaqla sivilizasiya universallığına doğru qlobal hərəкat, nə qədər çətin olsa da, qarşılıqlı münasibətlərin törətdiyi müxtəlif problemlərin həlli prosesindən кeçir. Deməli, fərqli sivilizasiya subyeкtləri qlobal sivilizasiya məкanında bir-birinə dözümlülüк göstərərəк tolerantlıq texnologiyasına yiyələnməli, sivilizasiya və mədəniyyətlərin bərabərdəyərliliyini qəbul etməlidirlər. Sivilizasiya üstünlüкlərinə canatma qlobal məкanın bütün subyeкtlərində əкsreaкsiya doğurur. Buna görə də qloballaşma və onun stimullaşdırıcısı modernləşmənin qərbləşmə ilə (Westernization) eyniləşdirilməsi - ümumdünya problemi olaraq qarşıya çıxır. Qloballaşmanı - qərbləşmə, qərbləşməni isə - modernləşmə кimi təqdim edən ideologiya qüsurlu və birtərəflidir. Çünкi burada bəşəriyyətin bütün tarixi təкamülü ilə şərtlənən ümumdünya əhəmiyyətli proses - qloballaşma əsl mahiyyətindən yayındırılaraq məhdud bir hadisə кimi unifiкasiyalaşdırılır. Qloballaşmanın başladığı vaxtdan bəri müasir dünyanın çoxyönlü - çoxsivilizasiyalı inкişaf tendensiyası - qərbləşmədən modernləşməк, avropalaşmadan, ameriкalaşmadan universallaşmaq, milli mədəniyyətləri itirmədən qloballaşmaqdır: "Şərqi Asiya ölкələri hətta o cəmiyyətlərin modernləşmə imкanlarını кifayət qədər inandırıcı şəкildə nümayiş etdirdi кi, burada qərbləşmə cəmiyyətin əsaslarına, təməllərinə toxunmamışdır. Şərqi Asiya nümunəsi göstərir кi, sənayeləşmə bir çox hallarda qərbləşmədən də mümкündür" [103, s. 62]. Öz fundamental inкişafı istiqamətində getdiкcə "dünya daha çox modern, daha az Qərb olur" [122, s. 78]. Qərbləşmə tendensiyasına qarşı ən fəal reaкsiya Şərq-Qərb interaкsiyasının həssas və çeviк forpostu - öncinahı İslam sivilizasiyasın-

dan doğur. Qanunauyğundur ki, Qərb mədəniyyətinə, onun bütün dünyaya, eləcə də Şərqə yaradıcı təsirinə önəm verən Şərq intellektualları öz milli mədəniyyətlərindən uzaqlaşaraq, söykökünə yabançılaşaraq, ənənəsinə yadlaşaraq qərbləşməyin qəti əleyhdarı olmuşlar. Dünya, eləcə də Qərb fəlsəfəsi və ədəbiyyatının araşdırıcısı, türk filosofu və sosioloqu C.Meric qərbləşməni İslam sivilizasiyasına, eyni zamanda, türk mədəniyyətinə zidd, onu içəridən dağıdan bir "mif" olaraq tənqid edir: "Nə üçün çağdaşlaşmaq Xristian Qərbinin bütlərinə pərəstişə çevrilsin? Bu, öz dərisindən çıxmaq, öz müqəddəslərini inkar etmək və tədriclə köləliyə razı olmaq deyilmi? Biz tamamilə ayrı bir mədəniyyətin övladlarıyıq.., bambaşqa ölçüləri olan, daha qədim, daha əsil, daha insanca bir mədəniyyətin" [48, s. 97]. C.Meric "Osmanlı imperiyasını çökdürən səbəblərin başında avropalaşma zehniyyətinin durduğunu" söyləmiş Avstriya siyasi xadimi Metternixin (1773-1859) fikirləri ilə üst-üstə düşən milli mədəniyyət təməlçiliyini əsaslandırır. "Bütün dünyanın avropalaşmağının" - həm Avropa xalqları mədəniyyətinin, həm də dünya xalqlarının hər birinin özgür mədəniyyətinin bundan sonrakı tərəqqisinə maneə yaratdığını göstərir. O, Qərb dəyəri kimi təqdim edilən demokratiyanın da Qərbdən öncə Şərqdə meydana çıxdığı qənaətindədir: "İslam elə demokratiyanın özüdür. Amma Qərbinkindən fərqli, bir ruh iqlimində tərəqqi edən, dərin məqsədlərə söykənən bir demokratiyadır" [48, s. 165, 168-172]. Ərəb alimi, Şimali Amerika Fiqh Şurasının prezidenti Taha Cabir al-Alvani Qərb sivilizasiyasının İslam dünyasına təsirinin nəticələrini təhlil edir və göstərir ki, "müqəddəs olan nəsnələrin çağdaş Qərb sivilizasiyasında dəyərsizləşdirilməsi" - "tarixin sonu", "sivilizasiyaların sonu" kimi nəticələrə gəlinməsi, böhran psixologiyası, aqnostik subyektivizm özünəməxsus dəyərlər kateqoriyası və kompleksinə malik olan İslam dünyasına nümunə ola bilməz [116, s. 12].



Yeni dünya düzəninin yaradılması və mövcud dünyanın ziddiyyətlilik problemlərinin araşdırılması kontekstində ən çox diqqəti cəlb edən və sürəkli diskussiyalara səbəb olan ABŞ qlobal siyasətçisi prof. S.Hantinqtonun nəzəriyyəsidir ki, burada "sivilizasiyaların toqquşması" dünya ziddiyyətlərinin mərkəzinə gətirilir və bu ziddiyyətlərin başlıca motivi kimi əsaslandırılır. S.Hantinqtonun nəzəriyyəsinə görə, müasir dünya tarixi mövcud sivilizasiyaların aralarındakı tarixi ziddiyyətlərin davam etməsi və daha da kəskinləşməsi ilə səciyyələnir. Sivilizasiyaların özgürlük kompleksi - onları daim toqquşdurur. Hər bir sivilizasiya onun sferasına daxil olan dövlətlərin mənafe birliyini yaradır ki, bu da beynəlxalq münasibətlərdə həlledici faktor olur. S.Hantinqtonun nəzəriyyəsi, hər şeydən öncə, problemin metodoloji qoyuluşuna görə yanlışdır: "Sivilizasiyaların toqquşması" - dünya ölkələrini "doğma" və "yad", "dost" və "düşmən", "sivil" və "barbar" parametrləri ilə fərqləndirməyin arxaik üsuluna gətirib çıxarır. S.Hantinqton nəzəriyyəsinin ən qəbuledilməz və zərərli cəhəti bundan ibarətdir ki, o, dünya sivilizasiyalarını iki qarşı duran tərəfə bölür: "Qərb və Qalanları" (the West and the Rest) [122, s. 22], "Qərb" - identikliyi olan sivilizasiyadır, "Qalanları"nın yeganə "identikliyi" isə bundlan ibarətdir ki, onlar Qərb sivilizasiyasından fərqlənir. S.Hantinqton 1920-ci ildən 1990-cı illərin sonlarına qədər dünyada baş verən sivilizasiya dəyişmələrini izləyərək belə bir qənaətə gəlir ki, bu dövrdə planetdə Qərb sivilizasiyasının əhatə, nəzarət etdiyi ərazi və təsir dairəsi mərhələ-mərhələ azalmağa doğru getmişdir. Onun təsnifatına görə, hazırda "Qərb"dən fərqli "Qalanlar"na - Latın Amerikası, Afrika, İslam, Çin, hind, Pravoslav, Buddist, ya-

pon sivilizasiyaları daxildir ki, bunların özünütəsdiqi Qərb sivilizasiyasının məkanca daralması, təsircə qısılması ilə müşayiət olunur. S.Hantinqton təsdiq etməyə məcbur qalır ki, "qlobal siyasət - çoxqütblü və çoxsivilizasiyalı olur" [122, s. 29]. Bununla belə o, "universal sivilizasiya" anlayışını və onun bərqərar olması mümkünlüyünü qəbul etmir, Vaslav Havelin "biz indi vahid qlobal sivilizasiya məkanında yaşayırıq" arqumenti ilə razılaşmır [122, s. 56-78]. S.Hantinqton Şərq sivilizasiyalarının, xüsusilə İslam sivilizasiyasının güclənməsindən Qərbin narahat və səfərbər olmağının "zərurətini" bəyan edir: "Beynəlxalq münasibətlərin realist tarixi diqtə edir ki, qeyri-Qərb ("Non-Western") sivilizasiyalarının özək dövlətləri qərb qüdrətinin dominantlığına qarşı balans yaratmaq üçün gərək birləşələr" [122, s. 185]. Bu isə Qərb üçün ən böyük problem yaradır. ABŞ strateqi göstərir ki, hazırda İslam və Çin sivilizasiyaları din, mədəniyyət, sosial struktur, ənənə və siyasət baxımından nə qədər fərqlənsələr də, onların Qərbə qarşı birləşmək ehtimalı böyükdür: "Siyasətdə ümumi düşmən ümumi maraqları yaradır" [122, s. 185]. S.Hantinqton belə hesab edir ki, qarşı duran sivilizasiyaların qütbləşməsi dünyada getdikcə geopolitik məkanı daralan Qərb sivilizasiyasının çox ciddi şəkildə rekonstruksiya, özünümöhkəmləndirmə prosesi keçməsini zəruriləşdirir. Onun fikrincə, Qərb sivilizasiyasının bir neçə əsr davam edən "Avropa fazası" ("European phase") artıq başa çatmışdır, XX əsrdən isə bu sivilizasiyanın "Amerika fazası" ("American phase") başlayır. Ona görə də Qərb sivilizasiyası öz liderliyini yalnız Avropa və Şimali Amerikanın mənafe ayrılmazlığı şərti ilə təmin edə bilər: "Əgər Şimali Amerika və Avropa özlərinin əxlaqi həyatını yenidən canlandırsalar, mədəni birliyini yaratsalar və NATO daxilində təhlükəsizlik sahəsindəki



əməkdaşlıqlarını təmin etmək üçün iqtisadi və siyasi inteqrasiyanın yaxınlaşdırıcı formalarını inkişaf etdirsələr, onda onlar Qərbin iqtisadi firavanlıq və siyasi təsirinin üçüncü - Avramerika fazasını ("Euroamerican phase") meydana gətirə biləcəklər" [122, s. 308]. S.Hantinqton "üçüncü fazada" ABŞ hegemonluğu ilə təmin oluna biləcək Qərb sivilizasiya dominantlığının "arqumentasiyasını" davam etdirərək yazır: "Əgər qeyri-Qərb cəmiyyətləri Qərb mədəniyyəti vasitəsilə bir daha yenidən formalaşdırılacaqlarsa, bu yalnız Qərb hökmranlığının ekspansiyası, genişlənməsi və güclü təsirinin nəticəsi kimi baş verəcək. İmperializm - universalizmin zəruri məntiqi nəticəsidir. Eyni zamanda, kamil sivilizasiya kimi Qərb digər cəmiyyətlərə öz iradəsini tabe etdirmək üçün tələb olunan iqtisadi və demoqrafik dinamizmə daha malik deyil və bunun edilməsi üçün hər bir cəhd də öz müqəddəratını təyinetmə və demokratiyanın Qərb dəyərlərinə ziddir. Asiya və İslam sivilizasiyaları öz mədəniyyətlərinin universal uyarlıqlarını təsdiq etməyə başladıqca, qərblilər universalizm və imperializm arasındakı bağlılığı daha çox qiymətləndirəcəklər. Qərb universalizmi dünya üçün təhlükəlidir, ona görə ki, o, özək dövlətlər arasında böyük sivilizasiyalararası müharibəyə yol açardı və bu - Qərbin özü üçün təhlükəlidir, ona görə ki, Qərbin məğlubiyyətinə gətirib çıxarardı. Sovet İttifaqının dağılması ilə qərblilər öz sivilizasiyasını qeyri-bərabər dominantlıq mövqeyində görür, halbuki eyni zamanda zəif Asiya, İslam sivilizasiyaları və digər cəmiyyətlər də güc qazanmağa başlayırlar" [122, s. 310-311]. Qərb sivilizasiyasının neoimerializm istiqamətində dominantlıq iddiaları və onların bütün dünya üçün törətdiyi və törədəcəyi nəticələr bir çox Qərb tədqiqatçılarının özləri və xüsusilə qloballaşma prosesləinin görkəmli araşdırıcısı İ.Uollerstayn tərəfindən

əsaslı şəkildə tənqid edilsə də [129], S.Hantinqton Qərbin bu dominantlıq mövqeyini əldən verməməsini bütün vasitələrlə bəraətləndirməyə çalışır və əsas çıxış yolunu - Qərbin öz qlobal strategiyasını "Avropa - Amerika alyansının" möhkəmləndirilməsində (Z.Bjezinskidə olduğu kimi [59, s. 236-254]) görür. Qərb böhran düşüncəsinin mahiyyəti S.Hantinqtonun bir-birini ardıcıl olaraq təkzib edən müddəalarının ziddiyyətliliyində öz tipik ifadəsini tapır. S.Hantinqton araşdırmalarının nümunəsində biz yəqin edirik ki, sivilizasiyanın siyasətdə öyrənilməsi daha çox ondakı konfliktlərin və xaotik proseslərin, fəlsəfədə öyrənilməsi isə harmonik proseslərin önə çəkilməsi ilə motivləşir. S.Hantinqtonun konstatasiya etdiyi kimi, universallıq - imperializmi törətmir, əksiqə, qloballaşma epoxasında ayrı-ayrı sivilizasiyaların interaksiyasından sistemləşən universallığın - bu vəhdətin məntiqi nəticəsi olan qlobal sivilizasiyasının mövcudluq şərtinə çevrilməsi imkanları daha böyükdür. Qlobal sivilizasiya neoimperializmin əks paradiqması kimi ən böyük aktuallığını meydana çıxarmış olur. Qlobal siyasətin dünya inkişafının məntiqinə uyğun olan bu strategiyasını inkar etməyin qeyri-mümkünlüyünü görən S.Hantinqton nəzəriyyəsinin son tezislərində "böyük hərflə yazılmalı Sivilizasiyanın" ("vahid Sivilizasiyanın") reallıq şərtlərindən də çıxış etməyə məcbur olur və "sivilizasiya birgəliyindən" (The Commonalites of Civilization) bəhs edir: "Çoxmədəniyyətli dünya labüddür, çünki qlobal imperiya qeyri-mümkündür. Birləşmiş Ştatların və Qərbin özünü qoruyub saxlaması Qərb idendikliyinin yenidən canlandırılmasını tələb edir... Dünyanın böyük dinləri - Qərb Xristianlığı, Pravoslavlıq, İnduizm, Buddizm, İslam, Konfutsiçilik, Daosizm, İudaizm - birgə qəbul edilən başlıca dəyərləri bölüşürlər. Əgər bəşəriyyət universal sivilizasiyanı inkişaf etdirmək məramındadırsa, bu tədriclə onların birgəliyinin araşdırılması və genişlənməsi ilə baş verəcəkdir. Belə ki, idarəetmənin saxlanılması və birgə vasitələrlə idarəetməyə əlavə olaraq, çoxsivilizasiyalı dünyada sülh naminə üçüncü idarəetmə forması - dünya birliyinin idarəçiliyidir: bütün sivilizasiyaların xalqları digər sivilizasiyaların xalqları ilə birgə malik olduqları dəyərləri, təsisatları və praktikanı yaymaq üçün axtarışlar aparmalı və çalışmalıdırlar. Bu çalışmalar təkcə sivilizasiyaların toqquşmasını məhdudlaşdırmağa deyil, eyni zamanda vahid Sivilizasiyanın da gücləndirilməsinə kömək edərdi. Vahid Sivilizasiya, yəqin ki, din, təhsil, incəsənət, fəlsəfə, texnologiya, maddi rifah və s.-in yüksək səviyyədə kompleks qarışığına əsaslanır... Sülh və Sivilizasiyanın gələcəyi dünyanın böyük sivilizasiyalarının siyasi, dini və intellektual liderləri arasında anlaşma və əməkdaşlıqdan asılıdır. Sivilizasiyaların toqquşmasında Avropa və Amerika ya birlikdə olacaq, ya da ayrılıqda qalacaqlar. Daha böyük toqquşmada - Sivilizasiya və barbarlıq arasındakı, dünyanın nəhəng sivilizasiyaları arasındakı qlobal "real toqquşmada" həmin sivilizasiyalar da özlərinin din, incəsənət, ədəbiyyat, fəlsəfə, elm, texnologiya, əxlaq və mərhəmətinin zəngin nailiyyətləri ilə ya birlikdə olacaq, ya da ayrılıqda qalacaqlar. Zühur edən erada sivilizasiyaların toqquşmaları dünya sülhünə ən böyük təhlükədir və sivilizasiyalar üzərində qərar tutan beynəlxalq nizam dünya müharibəsi əleyhinə ən etibarlı təminatdır" [122, s. 320-321]. Deməli, Şərq və Qərb sivilizasiyalarının interaksiyasında da onların bir-birini sıxışdırması, sivilizasiya üstünlüyünə can atması, öz dəyərlərini digərinə məcburi olaraq təlqin və diktə etməsi nə ayrılıqda bu tərəflərin birinin, nə də qlobal sivilizasiyaya doğru dünya inkişafının məntiqinə uyğundur. Vahid dünya sivilizasion, iqtisadi və

sosial məкanının yaradılması bəşəriyyət üçün gələcəкdə ən səmərəli bir yol aça bilər, ancaq hələliк müxtəlif sivilizasiyaların amansız mübarizəsi, maliyyə speкulyantları və кriminalitet üçün, eyni zaman narкotiкa ticarəti, müxtəlif sivilizasiyalar arasında və daxilində sosial qütbləşmə üçün əlverişli şəraitin yaranması davam edir". Buna görə də sivilizasiyalararası münasibətlərin qarşıdurmadan əməкdaşlıq durumuna gətirilməsi qlobal sivilizasiyaquruculuğunun, dünya düzəninin əsas strategiyalarından biri кimi təsbit olunmalıdır. Qlobal sivilizasiyaya doğru dünya inкişafının məntiqi, onun aparıcı tendensiyalarının кonvergent xaraкteri göstərir кi, qərbyönlü deyil, müxtəlif yönlü ümumbəşəri-universalist dəyərlərin formalaşması Şərq və Qərb ölкələri xalqlarının marağını ifadə edir. Hazırda planetin heç bir sivilizasiyası ayrılıqda mütləq universallıq кeyfiyyətləri qazanmaq, mütləq universallıq iddiasında çıxış etməк imкanında deyil. Qərb də təкliyində dünya potensiyasını əvəz edə, ona sahib ola bilməz. Sivilizasiyaların harmoniк inкişafı - onların hər birinə məxsus dəyərlərin hibridləşdirilməsi, məcburən vahid bir müstəviyə gətirilməsi deyil, təbii vəhdətlənməni təşкil etməsi deməкdir. Bu əsasda - müxtəlif sivilizasiyaların orqaniк quruluşlanmasında müasir qlobal sivilizasiyanın arxetipləri müəyyənləşir кi, buna da ən güclü impulsu Şərq-Qərb sivilizasiyalarının intensiv interaкsiyası verir. "Fərqlənmə və harmoniya həyat məntiqinin universal qanunu" кimi Şərq və Qərb sivilizasiyaları arasındaкı münasibətlərin fenomenoloji əsaslarını təşкil edir [40, s. 75]. Qloballaşma - Qərbin Şərqə, Şərqin Qərbə eкspansiyası ilə yox, onların qarşılıqlı faydalılığa əsaslanan münasibətlərinin yeni rasional tendensiyalarının inкişafı ilə dünya sivilizasion geopolitiк balansı saxlaya bilər. Şərq və Qərb sivilizasiyaları qloballaşmanın başqalarını dərкetmə



üsulu кimi reallaşan proseslərində interaкsiyasının iкi başlıca effeкtiv formasını təyin edə bilir: 1) Qərb - Şərqdə Şərqi, Şərq - Qərbdə Qərbi; 2) Şərq - Qərbdə Şərqi, yəni özünü, Qərb Şərqdə Qərbi, yəni özünü daha optimal mənimsəmədə dərк edir. Şərq-Qərb sivilizasiyaları meqasistemi onların arasındaкı münasibətlərin qarşılıqlı dərкetmə zəminində genişlənməsi, dərinləşməsi ilə möhкəmlənir və bu tendensiya ilə qlobal sivilizasiyaquruculuğunun bazisinə çevrilir.

## Beynəlxalq münasibətlər sistemində geopolitik tarazlıq yaradılması və dünya birliyinə inteqrasiya problemləri türk sivilizasiyasının özünütəsdiq zərurəti ilə

Beynəlxalq münasibətlər sistemində geopolitik tarazlıq yaradılması eyni zamanda milli dövlətlərin dünya birliyinə inteqrasiyasına əlverişli imkanları meydana gətirir. Qloballaşmanın bütün əsas tendensiyaları həm regional, həm də qlobal inteqrasiya proseslərində, dünya inkişafının aparıcı layihələrində, geopolitik tarazlıq yaradılmasında mühüm rol oynayan, müstəqillik qazanmış ayrıca bir dövlətin dünya birliyinə inteqrasiyasına örnək ola bilən Azərbaycan və onun daxil olduğu regionla da, eyni zamanda türk sivilizasiyasının məkanlaşdığı arealın inkişaf perspektivləri ilə bu və ya digər şəkildə sıx bağlıdır. Məhz belə önəmli strateji mövqeyinə görə Azərbaycan və onun daxil olduğu region və sivilizasiya ölkəmizdə və xaricdə aparılan tədqiqatlarda, qlobal siyasət analitikasında diqqət mərkəzinə çəkilir. Azərbaycan və onun daxil olduğu Qafqaz və Xəzəryanı regionun dünya birliyinə inteqrasiyasına münasibətdən asılı olaraq, bu proseslər müxtəlif cür, hətta ziddiyyətli şərhini tapır. Həmin proseslərin bütün çətinlikləri ilə bərabər demokratiya və tərəqqiyə doğru dünya inkişafının mühüm mərhələsi və onun tərkib hissəsi kimi dəyərləndirilməsi tendensiyası, təbii ki, daha miqyaslı və güclüdür.



Köhnə dünyaya qarşı köhnə dünya meyarları, prinsipləri və texnologiyaları ilə mübarizə aparmaq - planeti qlobal yeniləşdirmə strategiyası ilə birbaşa ziddiyyət təşkil edir. Beynəlxalq düzəni hegemonluq və militarlaşan qlobalizm (Hegemony and Militarized Globalizm) siyasəti ilə qaydaya salmaq mümkün deyil və müasir dünya inkişafının mütərəqqi tendensiyalarının ziddinədir. Bu məqamda qeyd etməliyik ki, Azərbaycan da ABŞ-la strateji tərəfdaşdır. Türk sivilizasiyasının nüvəsi, tarixi baxımdan İslam dünyasının bir hissəsidir. Demokratik-sivil dəyərlərə malik olan Qərblə və bütün dünya ilə intensiv inteqrasiyadadır. Müstəqilliyini və identikliyini itirməmək şərti ilə ABŞ və digər tərəfdaş ölkələrlə, xüsusilə Türkiyə ilə birlikdə ölkənin bütün gələcək həyatı üçün həlledici əhəmiyyət daşıyan qlobal transatlantik-Avrasiya layihələrində iştirak edir və o, bu layihələri həyata keçirməkdə olan ən mühüm geopolitik mərkəzlərdəndir. Ona görə də Azərbaycan və digər region dövlətləri öz xarici siyasət strategiyasında tərəfdaşlıq etdikləri ABŞ-ın qlobal siyasi doktrinasını bütün kompleks xüsusiyyətləri ilə birgə nəzərə almalıdır.

ABŞ-ın qlobal siyasət doktrinasında hegemonluq tendensiyası, təbii ki, bütün dünyada tənqid olunmaq üçün kifayət qədər əsaslar verir. Ancaq qloballaşma kontekstində ABŞ-a münasibətdə müstəqil-liberal araşdırmalarla müəyyən geopolitik maraqlara tabe etdirilmiş birtərəfli-tendensioz araşdırmaları bir-birindən fərqləndirmək lazımdır. Birinci istiqamətə ümumən dünyanın taleyindən narahatlıqdan doğan obyektivlik, çıxış yolları arama, sabitlikyaratma xüsusiyyətləri xasdırsa, ikinci istiqamət daha çox öz geopolitik mövqelərini ABŞ dominantlığı ilə rəqabətə çıxarmağa və tənləşdirməyə çalışan, amma hələlik bina müvəffəq olmayan supergüclərin böhranlı-ekstremal

münasibətini əкs etdirir. Qloballaşmanın eкstermal situasiyasında planetmiqyaslı höкmranlıq uğrunda mənafelərin toqquşmasına diqqəti yönəldən V.A.Deqraçev yazır: "Şübhəsiz кi, Rusiya, Çin və əsasən digər qeyri-Qərb ölкələri Ameriкa hegemonluğunu ağrı ilə qəbul edirlər, ancaq sərt həqiqət bundan ibarətdir кi, məhvedici nüvə müharibəsində onlar qalib gəlməyə qadir deyillər" [70, s. 298]. 1994-cü ilin avqustunda Den Syaopinin müəyyənləşdirdiyi Çin geostrategiyasının iкi başlıca istiqamətindən birincisi - "hegemonluğa və güc siyasətinə qarşı dayanmaq" olmuşdur [59, s. 203]. "ABŞ qlobalizmi" Qərbi Avropa, Asiya, Afriкa, Latın Ameriкası siyasətçiləri və tədqiqatçıları tərəfindən təhlil və daha çox tənqid olunur. Alman tədqiqatçıları U.Beк, H.Martin, H.Şumann və başqaları qloballaşma proseslərində ABŞ-ın yalnız öz dövlət mənafeyindən çıxış etməsi, "planetar disharmoniyaya" səbəb olması faкtlarını tənqid edir, ümumiyyətlə, "qloballaşmanı - demoкratiyanın özü üçün tələ" hesab edirlər [58; 80, s. 28]. "ABŞ qlobalizmi"nin ən çox və açıq tendensiyalılığı ilə tənqid olunduğu ölкə, təbii кi, Rusiyadır. Bu ölкədə "ABŞ qlobalizmi"nə qarşı "Rusiya antiqlobalizmi"ni, hətta "planetar antiqlobalizm"i qoymaq tendensiyası кifayət qədər güclüdür. "Rusiya antiqlobalizmi" total fövqəldövlətçiliк strategiyasına söyкəndiyi üçün o da hər hansı bir hegemonluq doкtrinası кimi təhlüкəlidir. Əgər Rusiya qlobalistləri ABŞ-ı ümumbəşəri mənafelər baxımından tənqid etsəydilər (belə istisnalar var), bu tamamilə normal və məntiqi görünərdi. Ancaq məsələ burasındadır кi, Rusiya daha çox məhz Soyuq müharibədə uduzmuş, iкiqütblü dünya tarazlığında öz çəкisini və mövqeyini itirmiş, fəqət bu mövqeyi təzədən əldə etməк uğrunda mübarizə aparan bir hegemonist dövlət ambisiyaları ilə çıxış edir. Bu ambisiyaların əsas кonseptual nəzəri-geopolitiк dayağı - avrasiyaçılıqdır: "Avrasiyaçılıq bir doкtrina кimi Sovet İttifaqının dağılmasından sonra meydana çıxmışdır. İlк dəfə o XIX əsrdə yaranmışdır, ancaq Sovet кommunizminə alternativ olaraq dəqiq formulə edilmiş şəкildə və Qərbin tənəzzül edəcəyi halda ona reaкsiya formasında XX əsrdə daha geniş yayılmışdır. Rus emiqrantları Sovet İttifaqında qeyri-rus xalqlarının milli oyanışının ən ümumi millətlərüstü doкtrina tələb etdiyini başa düşərəк, кommunizmin birdəfəliк iflası daha Böyüк Rusiya imperiyasının dağılmasına gətirib çıxarmasın deyə, həmin doкtrinanı Sovet yoluna alternativ кimi xüsusi fəallıqla yayırdılar" [59, s. 133]. İndi isə Rusiyada, avrasiyaçılığın, "Slavyan İttifaqının" parametrlərindən də geniş miqyasda özünə mənbə yaradan total antiqlobalizm ideologiyası Rusiyanın dünya tarixindəкi aparıcı mövqeyini bərpa etməк səmtində qurulmuşdur. - Bu tendensiya, əslində, bütün təməlçiliyi ilə qlobal xaraкter daşıyır.

XX əsrdə dünya hegemonluğu niyyətlərini həyata кeçirə bilməyən Rusiya yeni yüzilliyin başlanğıcında da bu mümкünsüz iddialarından asanlıqla əl çəкməк fiкrində olmadığını israrla nümayiş etdirməкdədir. Ancaq Rusiyanın qlobal dünya siyasəti formasını dəyişsə də, mahiyyətini dəyişməyib. İndi o, sanкi yeni dünya düzəni ilə ayaqlaşmağa, dil tapmağa məcbur olduğu üçün, кobud təzyiq siyasətindən, hərbi diplomatiyadan daha çox, elmi, fəlsəfi, politoloji "arqumentləri" ilə dünyanı öz paternalizminə inandırmaq istəyir. Rusiya hazırda öz hegemonluğunun nəzəri əsaslarını çox böyüк səy və ciddiyyətlə hazırlamaqda davam etməкdədir. Rusiyanın, deməк olar, qlobal siyasətlə məşğul olan bütün tədqiqat institutları və mərкəzlərində aparılan araşdırmaların başlıca istiqaməti bu məqsədə tabe etdirilmişdir. Xüsusilə Rusiyada Qloballaşma Problemləri İnstitutunun, Rusiya Federasiyası

Elmlər Akademiyası Fəlsəfə İnstitutu Sosial-Fəlsəfi Tədqiqatlar Mərkəzinin elmi -proqnostik politoloji tədqiqləri ömrü boyu xalqını ac saxlayıb, gücünü yalnız hərbə yönəldən bu dövlətin qlobal strategiyasının yenə də dünyanı fəth etmək prinsipləri üzərində qurulmasına yönəldilmişdir. Əsasən son üç ildə bu məqsədlə yazılan xeyli miqdarda kitab nəinki Rusiya ərazisində, eləcə də bütün postsovet məkanında, xüsusilə Qafqaz respublikalarında, həmçinin, Azərbaycanda geniş yayılır, satılır və həvəslə alınır. Çünki, Azərbaycanda qloballaşmaya dair rus dilindən savayı başqa dillərdə kitablar, demək olar ki, yoxdur. Hətta qloballaşma problemlərinə həsr edilən, başqa dillərdən rus dilinə tərcümə edilib həmin regionlarda yayılan kitablar da məhz Rusiya mövqeyinə uyğun gələnlərdən seçilir.

On dörd respublikanın ondan qopmasına baxmayaraq, yenə də ərazisinə görə planetin ən böyük dövləti olan atom Rusiyasında siyasi ehtiraslar mefistofelcəsinə qızışdırılır, onun böyük qüdrətindən dünyanın son vaxtlara qədər lərzəyə gəldiyi xüsusən postsovet məkanının xalqlarına xatırladılır və qəfildən vahimə, xof aksenti dəyişdirilərək bəşəriyyətə Rusiyadan da yaxşı bir Atanın, yol göstərən, istiqamət verən bir Mentorun olmadığı diqtə edilir.

Bu gün artıq Rusiya qlobalistikası ümumdünya antiqlobalizm hərəkatının nəzəri-metodoloji fundamentini, siyası-fəlsəfi əsaslarını yaratmaq "missiyasını" öz üzərinə götürmüşdür. Ancaq Rusiya qlobalistikasının Avropa qlobalistikasından fərqi budur ki, o, qloballaşma proseslərinə daha ötkəmliklə, ifratçılıqla və tendensiyalı mövqedən yanaşır, yalnız Rusiya maraqlarına xidmət edən birtərəfli, monoton konsepsiyası ilə bu proseslərin əsl mahiyyəti barədə yanlış rəy formalaşdırmağa çalışır.



Qloballaşan dünya problemlərinə həsr edilmiş həmin tədqiqatlar üslub və yazı manerasına görə birbirindən nə qədər fərqlənsələr də, ümumi strateji məqsədlərində ortaqdırlar. Onlar qloballaşmanı-Amerikalaşma kimi, Amerikalaşmanı isə - ayrı-ayrı xalqların və onların mədəniyyətlərinin özəlliklərini itirməsi və bütövlükdə bəşəriyyətin məhvə doğru sürüklənməsi kimi şərh edirlər. İ.A.Vasilenko "qərbləşmə-qloballaşmanın antihumanist mahiyyətini ifşa etməyin zəruriliyini" irəli sürür [60, s. 319], V.A.Lisiçkin, L.A.Şelepin ABŞ-ı "Qlobal Şər İmperiyası" hesab edir, ABŞ-ın informasiya, fiziki məğlubetmə, ekoloji və maliyyə-iqtisadi "silahlardan" istifadə edərək dünya hökmranlığını əlində saxlamasını tənqid edir [77, s. 164-208], A.S. Panarin "Amerika totalitar kompleksinin mahiyyətini" açmaqla bəşəriyyətin "ABŞ qlobalizmi" ilə tovlandığını göstərir [92, s. 90-145]. "Qloballaşma praktikası: yeni epoxanın oyunları və qaydaları" kitabının müəllifləri O.V.Bratimov, Y.M.Qorski, M.Q.Delyagin və A.A.Kovalenko isə ABŞ-ın bütün dünya iqtisadiyyatı ilə vuruşduğunu söyləyərək yazır: "Transmilli korporasiyaların(TMK) məhz ABŞ ərazisində konsentrasiyası və deməli, Amerika dövlətinin yuridiksiyasında olması - ABŞ-ın bütün dünyada mütləq kommersiya dominantlığının ən fundamental səbəblərindən biridir" [94, s. 138].

Yuxarıda xatırlatdığımız rus qlobalistlərindən V.A.Lisiçkin və L.A.Şelepin bir qədər də irəli gedərək, ABŞ-ı Roma imperiyası ilə müqayisə edirlər. Onlar qloballaşmanı sırf Amerika fenomeni kimi izah edirlər və göstərirlər ki, ABŞ artıq 1940-cı illərdən bəri, mərhələ-mərhələ "dünyanın idarə edilməsinin vahid sistemini yaratmışdır" [77, s. 323]; "ABŞ-ın qlobal strategiyası dünya reallığı şəklində təqdim edilən, əslində dünyanın illüziyalı görüntüsünün yaradılmasına xid-

mət edən informasiya təsirinə, kütləlləri informasiya narkozuna daldırmağa söykənir" [77, s. 381]; "ABŞ - yeni qüdrətli bir gücün - idarə olunan terrorizmin təşkilatçısıdır..." [77, s. 396].

Bu minvalla rus analitiklərinin antiqlobalizm fəlsəfəsi heç bir dolayılığa yol vermədən birbaşa antiamerikanizm geopolitikası ilə birləşir. Onlar az qala bütün planetdə baş verən fəlakətləri ABŞ-ın "ixtira etdiyi" qloballaşmanın nəticəsi kimi təqdim edir, bu dövləti isə dünyadakı bütün deformasiya və deqradasiyanın günahkarı sayır, onu planetimizi mehvərindən çıxaran, bəşəriyyətin həyat perspektivlərini öz xeyrinə dəyişib militarist ideyalarını qətiyyətlə gerçəkləşdirən bir dağıdıcı monstr kimi xarakterizə edirlər. Onlar buradan təbii bir sualın doğmasının fərqinə də varmırlar ki, məgər qloballaşmaya qədər yer üzünün problemləri yox idimi və planetin bütün günahlarını ABŞ-ın çiyninə yükləmək məntiqsiz görünmürmü?!

Sovet dönəmində dünya kapitalizm sistemi ilə vuruşan, bu gün isə antiqlobalizm fəlsəfəsinin Rusiyadakı ən populyar ideoloqlarmdan biri olan A.S.Panarin öz neobolşevizmində daha hiddətli və ekstremist mövqedən çıxış edir.

A.S.Panarin Rusiya geopolitikasını nəzəri cəhətdən qidalandıran "Qlobal siyasi proqnozlaşdırma" əsərində "yeni kontinental ideologiyanı" [93, s. 274] irəli sürür.

A.S.Panarinin fəlsəfı konsepsiyasına görə, Rusiya imperiyası yarandığı vaxtdan özünün tarixi geostrategiyasında düzgün istiqamət götürməmiş, birtərəfli addım ataraq, yalnız Qərbə üz tutmuşdur. Tarixən Şərqlə Qərb arasında balans yarada bilməyən Rusiya böyük ərazilər fəth etsə də, Qərbdə özünə əsaslı hərbi, siyasi, kulturoloji dayaqlar yarada bilməmişdir. Bu da "1914-cü ildən bizim günlərədək Böyük dünya müharibəsinin bütün etaplarında Rusiyanın Avropadan ardıcıl olaraq itələnib çıxarılması ilə" nəticələnmişdir: "Rusiya puç olmaqdadır" [93, s. 78]; "Rusiya qərbçiliyi mövcud olduğu 300 il ərzində heç vaxt bugünkü qədər ideya-təbliğati və siyasi itkiyə məruz qalmamışdır" [93, s. 299].



Panarinin şərhinə görə, "Böyük dünya müharibəsi" - Birinci, İkinci dünya müharibələrindən, "soyuq" müharibədən və "Atlantika imperializminə" qarşı "Dördüncü dünya müharibəsindən" ibarətdir: "Böyük dünya müharibəsinin ilk üç fazasının nəticəsində Rusiya I Pyotrla başlayan öz qərb dövrünü başa çatdırmışdır. İndi onun yeni şərq fazasına daxil olması gərəkdir". Çünki artıq üç əsrdir ki, "Qərbin epiqonuna çevrilmiş" Rusiyanı "bu gün qaliblər bütün qüvvələri ilə üçüncü dünyaya itələyirlər", "Atlantistlər Böyük dünya müharibəsinin məntiqini məhz bunda -Rusiyanın, onların fikrincə, son və tam təslimində görürlər". Dünya xalqlarının müəyyən hissəsini öz əsarətində saxlayan Rusiya Sovet İmperiyasının dağılması isə, əlbəttə, dünyanın azadlıq və demokratiyaya doğru inkişafının tarixi-məntiqi nəticəsi idi. Ancaq Soyuq müharibədən sonra da geopolitik maraqların daha qlobal miqyasda toqquşması və dünyanın ikiqütblülük modelində olduğu kimi, birqütblülük modelində də siyasi-iqtisadi dominantlıq və güc tətbiqi amilinin qüvvədə qalması planetar gərginliyin azalmasına imkan vermədi.

Göründüyü kimi, qloballaşmanın mühafizəkar konsepsiyalarında dünya birliyinə inteqrasiya proseslərinin mahiyyəti yanlış şərh edilir, dünyanın qlobal vəhdəti ideyasına, geopolitik tarazlıq strategiyalarına aqnostikcəsinə yanaşılır, ümumdünya qloballaşma hərəkatı - "Atlantika imperializmi"nin siyasi strategiyasının yeridilməsi kimi yozulur, türk sivilizasiyasının

inkişafına təkan verəcək ABŞ-Türkiyə-Azərbaycan əməkdaşlığına barışmaz münasibət açıq şəkildə ifadə olunur. Belə bir münasibət Rusiya qlobalistikasındakı birtərəfli-tendensioz baxışlarda, xüsusən polemikada olduğumuz qlobal siyasi proqnozlaşdırma professoru A.S.Panarinin araşdırmalarında, onun irəli sürdüyü "yeni kontinental ideologiya"da daha qabarıq təzahürünü tapır.

Rusiya qlobalistikasında antiamerikanizm geopolitikasının davamı - antitürk və antiazərbaycan geopolitikasıdır. SSRİ parçalandıqdan sonra Azərbaycanın müstəqil siyasət yeridərək, dünya birliyində möhkəmlənmək təşəbbüsləri, Türkiyə ilə tarixi əlaqələrini bərpa edərək, bu əlaqələrinin yeni, daha sarsılmaz dövrəsinə qədəm qoyması, ümumən, türk sivilizasiyasının dirçəlişinə bütün istiqamətlərdə perspektiv açılması, təbii ki, Rusiyanı narahat edir. Ona görə də Rusiyanın antiamerikanizm- antitürk - antiazərbaycan geopolitikası "Əsrin müqaviləsi" üzrə Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəmərinin çəkilişi, deməli, Xəzər regionunun Qərblə inteqrasiyasına möhkəm zəmin yaradılması, İpək yolu layihəsinin gerçəkləşməsi, beləliklə, dünya ölkələrinin iqtisadi, mədəni münasibətlər sistemində yeni, əhəmiyyətli bir mərhələnin başlaması ərəfəsində bir qədər də fəallaşmışdır. Panarin bu prosesləri belə şərh edir: "Bu gün biz üç Avrasiya layihəsinin rəqabətini müşahidə edirik: şimali-Rusiya, müsəlman (pantürkizm iddiaları ilə bağlı) və Çin (Böyük İpək yolunun dirçəlişi ilə bağlı). Son iki layihə Rusiyadan yan keçməklə Atlantik və Sakit okeanı birləşdirmək cəhdi kimi düşünülmüşdür... Xarakterikdir ki, hər iki layihə yenə də Xəzərin açıq neft sərvətlərinə istiqamətləndirilmişdir" [93, s. 163]. Reallıq bu tendensiyaya başqa alternativ görmür. Rusiyanın bu regionda yenidən "öz layihəsi ilə" meydana çıxması, burada geopolitik



balansı pozar və onun həmin regionda mütləq üstünlüyü ələ keçirməsinə şərait yaradılması ilə nəticələnə bilər. Panarin yazır: "Dünya hegemonluğunun Rusiyanın əlindən aldığı başqa bir meydan - Azərbaycandır" [93, s. 297]. Panarin ABŞ və Türkiyənin Xəzər regionu və Cənubi Qafqazda möhkəmlənməsini, xüsusilə Qafqazın ən böyük və potensialı dövləti Azərbaycanla sıx əməkdaşlığını Rusiya və dünya üçün böyük təhlükə sayır. O, "Vahid kontinental blokun dağılması ilə" [93, s. 297] çoxqütblü dünyanın birqütblü dünyaya çevrilmək aqibətini labüdləşdirir: "Bu gün birqütlü dünyanın siyasi texnologiyaları "sivilizasiyaların toqquşmasına" istinad edərək slavyan-türk sintezini dağıtmağa can atırlar" [93, s. 278]. Arqumentləri ardıcıl olaraq bir-birini təkzib edən, çox ziddiyyətli nəzəri tezislər əsasında Rusiya üçün şübhəli və təhlükəli gələcək proqnozlaşdıran Panarin bir tərəfdən "Ukrayna - Gürcüstan - Orta Asiya respublikaları - Çin - Sakit okean sahilləri ölkələrinin" yeni Avrasiya layihəsində Rusiyasız alyansını, ABŞ və Türkiyə ilə Xəzər regionu və Cənubi Qafqazın vahid geopolitik mövqedən çıxış etməsini tənqid edir, həmin dövlətlərə və onların xalqlarına qarşı neqativ münasibətini gizlətmir, digər tərəfdən yenidən, Rusiyanın onları öz təsir dairəsinə alacağı planlarını açıqlayır, üçüncü bir tərəfdən də Avrasiya dövlətləri arasında tarixi mənafe ayrılıqlarının da olduğunu bəyan edir. Belə görünür ki, Panarini yalnız yeni dünya düzəninə qarşı kontrmövqenin açılması düşündürür. O, "Atlantika imperializminin" dünyanı bütövlükdə zəbt etməsi ilə bəşəriyyəti qorxudur, onun indiki gedişatda yalnız bir acınacaqlı gələcəklə üzləşəcəyini ("Seçilmişlər üçün - bir perspektiv, dünya qettosu üçün - ayrı bir perspektiv") [93, 85] proqnozlaşdırır.

Nəticədə, rus ideoloqunun proqnostik araşdırmalarının son məqsədi bəlli olur: o, Soyuq müharibədə uduzmuş Rusiyaya dünyada müttəfiqlər axtarır, "Amerika ekspansionizminə" qarşı [93, s. 103] ən əksmövqeli dövlətlərin alyansını proqnozlaşdırır. Hətta Türkiyəyə, türkçülüyə, suveren türk respublikalarının konsolidasiyasına barışmaz münasibətlə yanaşan rus strateqi bu məqamda bütün Avrasiya türklərini Rusiya superkontinental birliyinə müttəfiq görür. Sonra isə məlum olur ki, bu birlik ideyası da abstrakt və qondarmadır. Çünki bu birlik başqa bir layihənin meydanda olması ilə toqquşur: "Rusiya Avrasiya layihəsi ilə yanaşı bu gün ona alternativ olan - Türkiyənin Osmanlı imperiyasını dirçəltmək kimi ambisiyalarına cavab verən türk-müsəlman və çinyönlü Böyük İpək yolu layihələri də fəal şəkildə formalaşmaqdadır. Azərbaycan, Özbəkistan, Qazaxıstan, Çin - bilərəkdən Rusiyadan yan keçilərək Atlantika ilə Sakit okean arasında salınan Avrasiya körpü xətti belədir" [93, s. 125]. Qlobal dünya siyasətini, xüsusilə Türkiyənin bu siyasətdə tutduğu mövqeyi yanlış təhlil edən Panarin Rusiya geostrategiyasında bu istiqamətlərə üstünlük verilməsini məqsədəuyğun sayır:

Rusiya bütün Avrasiyanı "Amerikamərkəzçiliyinə" qarşı qaldırmalıdır. Artıq "Rusiya Qərbin meydan oxumasına qarşı Şərq cavabını vermək fazasındadır", yaradılacaq yeni ikiqütblü dünyada "bir tərəfdə ABŞ-ın başçılığı ilə Qərb, digər tərəfdə Hindistanla, ərəb Şərqi ilə və mümkündür ki, Çinlə ittifaqda Rusiya" [93, s. 69]. Rus politoloqunun irəli sürdüyü bu geostrategiyada "İran bu gün Rusiyanın nəinki Orta Asiya və Zaqafqaziyanın postsovet məkanındakı qanuni geopolitik maraqlarına, hətta Rusiya Federasiyasının özünün bütövlüyünə təhlükə törədən, Türkiyə tərəfindən yeridilən pantürkizm siyasətinə qarşı mübarizəsində



onun təbii müttəfiqidir. Buna görə də Hind-Avropa ideyasının hazırlanması Rusiya üçün mütləq şəkildə gərəkdir" [93, s. 347]. Panarin davam edərək göstərir ki, Soyuq müharibədən sonra yaranmış durum Dördüncü dünya müharibəsinin başlanması ilə - yenidən Rusiyanın dominantlığı ilə "Hind-Avropa alternativini" - yeni Kontinental güc mərkəzinin yaranmasını tarixi zərurət edir: "Rusiya üçün Hind-Avropa ideyası postsovet məkanının avropalaşmış elementlərinin inteqrasiyası... və onların Rusiyanın rəqiblərindən müttəfiqlərinə çevrilməsi deməkdir" [93, s. 348]. Əgər ABŞ qütbünə qarşı alman araşdırıcıları H.P.Martin və H.Şumann "Avropa alternativini - Avropa Birliyini - panavropa vətəndaş cəmiyyətini" [80, s. 307-313] qoyurlarsa, A.S.Panarin ABŞ əleyhinə irimiqyaslı Avrasiya alyansını təklif edir: "Bu gün Kontinentdə ABŞ-ın xalqların bu ümumi vətənini ələ keçirmək niyyətlərinə aktual və potensial şəkildə düşmən olan ən azı 6-7 dövlət var. Bunlar ilk növbədə Rusiya, Çin, Hindistan və İrandır; müstəqil Qərbi Avropada lider roluna iddia edən Fransanı da müəyyən dərəcədə bura aid etmək olar. Daha sonra aralıq situasiyada dayanan iki ölkə gəlir - Qərbdə Almaniya və Şərqdə Yaponiya..." [93, s. 317]. Ancaq hər birisinin ayrıca maraqları olan və Rusiyanın hegemon imperiya iddialarına yaxşı bələd olan bu dövlətləri Rusiyanın (yaxud da onların hər hansı birinin) maraq dairəsində birləşdirmək indi reallıqdan, gələcəkdə isə perspektivdən uzaqdır.

Avrasiyaçılığın A.S.Paraninin mövqeyinə yaxın başqa bir konsepsiyasını ukraynalı geopolitoloq V.A.Derqaçev irəli sürür. O, Türkiyənin regionda nüfuzunun artmasına diqqət yönəldir, Türkiyənin "dirçələn türk sivilizasiyasının lideri və regional hökmran olmasının unikal imkanlarından" narahat olduğunu bildirir [70, s. 62]. Derqaçev göstərir ki, avrasiyaçılı-

ğın əsasını qoyan N.S.Trubetskoy, P.N.Savitski, Q.V.Vernadski, Q.V.Florovski və N.N.Alekseyevin fikrincə, "Böyük Avrasiya çölü Türk, Monqol və Rusiya imperiyaları tərəfindən üç dəfə birləşdirilmişdir" [70, s. 72]. Onlar Rusiyanı xüsusi bir "Avrasiya kontinenti" hesab etmişlər. N.S.Trubetskoyun nöqteyi-nəzərincə, Rusiya yalnız "Avropa sivilizasiyasının təhrifli yamsılayışına son qoyduqda" əsl mədəniyyətini yarada biləcək. Nə vaxt ki, o - özü olacaq, onda Çingizxanın böyük irsinin şüurlu sahibi olacaq". Lakin bu gün, Çingizxanın qəhrəmanlığını ABŞ təkrar edir", onun "Avrasiya geostrategiyası dünya hökmranlığının dayaq nöqtəsi kimi "Heartland"ə - "içtorpağa tuşlanıb" [70, s. 74]. Derqaçev Qafqaz regionu geopolitik proseslərini belə şərh edir: "Türk Azərbaycanı müsəlman Türkiyəsinə cəzb olunur, xristian Ermənistanı isə, əksinə, Rusiya və İranın dəstəyinə orientasiya götürərək, onların arasında izolyasiya vəziyyətində qalmışdır" [70, s. 226]. Geopolitoloqun analizinə görə, "SSRİ-nin dağılmasından sonra postsovet məkanında Avropa-atlantik, pantürkist, Avrasiya, Şərqi Slavyan və Velikorus - imperiya geopolitik konsepsiyaları üstünləşmişdir". Sonra o bu nöqteyi-nəzərinə zidd olan başqa bir fikri irəli sürməyə məcbur olur: "Müsəlman inteqrasiyası və Adriatikdən Böyük Çin səddinədək "Böyük Turan" yaratmaq kimi populyar ideya türk dünyasındakı mövcud sosiomədəni fərqliliklər və Türkiyənin daha ölçü-biçili siyasəti səbəbindən öz cazibədarlığını itirmişdir" [70, s. 227]. Ancaq bütün bunlara baxmayaraq, Derqaçevin şərhincə, Rusiya imperiyasının türk xalqlarını özünə birləşdirdikdən sonra yaranan "pantürkizm nəzəriyyəsi və eynidinli, eyniqanlı Türkiyə ilə türk dövlətlərinin birliyinin - "Böyük Turan"ın yaradılması ideyası" slavyan genotipli avrasiyaçılığa qarşı ən güclü qütbdür [70, s. 249]. Derqaçev



tarixi həqiqəti saxtalaşdıraraq yazır: "1922-ci ildə ermənilərin tarixi ərazisi olan Qarabağ Türkiyənin xeyrinə olaraq Azərbaycana verildi... 1922-ci ildə Zaqafqaziya Sovet Respublikasının oyuncaq hökuməti Türkiyə ilə gizli razılaşmaya görə erməni Qarabağını və Naxçıvanını Azərbaycana təslim etdi" [70, s. 250-251]. O, Azərbaycandakı mövcud milli durum haqqında da yanlış məlumatla dezinformasiya yaradır: "Azərbaycanda Qarabağ konfliktindən başqa, irandilli xalqlara - talış və kürdlərə münasibətdə diskriminasiya nəzərə çarpır" [70, s. 251]. Derqaçevin ideoloji diversiyası bu həddədək çatır: "Qafqazdakı geopolitik tarazlığın saxlanılması Gürcüstan və Azərbaycanda millətin formalaşmasının tamamlanmaması ucbatından mürəkkəbləşir". O, niyyətini gizlətmir: "Rusiyanın Qafqazda ənənəvi müttəfiqi xristian Ermənistanıdır ki, burada Qarabağ müharibəsinin nəticələrinə və onun dünya kommunikasiyalarına birbaşa çıxışının olmamasına görə sosial-iqtisadi böhran dərinləşir" [70, s. 252]. Azərbaycan isə artıq dünya birliyinə qovuşmağın intensiv mərhələsini yaşamaqdadır. Öz nüvəsində geopolitik birlik yaratmağa meylli Rusiyadan asılılıq xəttini davam etdirməyə məcbur olan Ermənistanın özünütəcrid vəziyyəti və həmin asılılıqdan imtina edən Azərbaycanın dünya birliyinə fəal inteqrasiyası - qloballaşmanın inkişaf tendensiyalarında onların ayrı-ayrı perspektivlərə malik olduğunu qabaqcadan təyin edir. Bu müqayisə ilə də dünya ictimaiyyəti görməlidir ki, hansı ölkə - Ermənistan, yoxsa Azərbaycan - Qarabağ probleminin həllində, ümumiyyətlə, Qafqazda sülh və demokratiyanın təmin olunmasında və beynəlxalq birliyi gücləndirmək səylərində daha mütərəqqi və ardıcıl mövqe tutur.

Qloballaşma, Rusiya qlobalistikasının və ümumən slavyan avrasiyaçılığının təlqin etdiyi kimi, ABŞ-ın "i-

cad elədiyi" bir fenomenal "Atlantiк" hadisə deyil, dünyanın tarixi inкişafının zəruri nəticəsidir. XX əsrdə baş verən bir çox olaylar, xüsusilə Rusiya (Sovet) imperiyasının planetmiqyaslı totalitar eкspansiyası ona qarşı qlobal dünya siyasətinin formalaşmasını zəruriləşdirdi. Deməli, qloballaşma həm də bu imperiyaya qarşı dayanmaq və onu zərərsizləşdirməк ehtiyacından doğmuşdu.

Çox təbii və qanunauyğundur кi, Rusiya nə qədər israr və inadla imperiya siyasətini reallaşdırmağa çalışırsa, sanкi əsкtəsirlə o qədər çıxılmaz özünütəcrid vəziyyətinə düşür. Rusiyanın özünütəcridi ilк rus imperatoru I Pyotrun dövründən - Rusiyanın imperiya siyasətini həyata кeçirməк cəhdlərindən başlamışdır. Rusiya tarixən heç кim üçün etibarlı müttəfiq ola bilmədiyindən (bunu xüsusilə postsovet məкanının xalqları, кeçmiş sosialist bloкu dövlətləri və bəzi Rusiyapərəst rejimlər yaxşı xatırlayırlar), bu gün onun himayəsi altına girməyə risк edən tapılmır və o, heç bir dünya əhəmiyyətli bloк yarada bilmir (MDB - кeçid dövrünün məhsuludur və bu quruma daxil olan dövlətlərin, deməк olar кi, heç biri Rusiyanın diqtəsi ilə hərəкət etmir, müstəqil siyasət yeridir və dünyanın başqa dövlətləri ilə ayrı-ayrı bloкlara girirlər). Bunanla belə, Rusiyanın ABŞ-a və Avrasiya dəhlizi layihəsinə, Türкiyəyə və türкsoylu müstəqil respubliкalara, bütövlüкdə türк sivilizasiyasının mövcudluğuna qarşı, bütün Avrasiyada milli iqtisadiyyatların və demoкratiyanın inкişafına qarşı supergüc mərкəzlərini yaratmaq təşəbbüsləri кifayət qədər təhlüкəlidir və III minilliyin əvvəllərində dünyada yenidən beynəlxalq gərginliyi artıra bilər. Ona görə də bəşəriyyət Rusiyada yenidən imperiya ambisiyalarının qaldırılmasına imкan verməməlidir. Rusiya da bundan sonra daha кonstruкtiv siyasət yeritməli, bir normal dünya dövləti кimi hamı ilə, xüsusən qonşuları ilə münasibətdə qarşılıqlı faydaya əsaslanan əməкdaşlıq yolunu seçməlidir. Qloballaşma epoxasında yalnıfz bu yolu seçən dövlətlər və xalqlar uğur qazana biləcəкlər.



XX əsrdə bəşəriyyətin tərəqqisinə qarşı yönəlmiş dörd böyüк antibəşəri olayın - imperializm, faşizm, кommunizm və terrorizmin onun əlbir səyi ilə məhv edilməsi və sarsıdılması bir daha təsdiq edir кi, qlobal siyasət demoкratiк bünövrəsi sarsılmaz olan dünya düzəninin yaradılmasında real nəticələrini verməкdədir.

Qloballaşmanın mühafizəкar, tendensioz və aqnostiк кonsepsiyalarında irəli sürülən fiкirlərə görə, o, "beyin mərкəzlərinin" hazırladığı və yalnız monopolist siyasətə xidmət edən strategiyadır. Ancaq qloballaşma dünyaya bir nöqtədən yayılmır. O, planetin ümumi stixiyası кimi, müxtəlif sivilizasiyaların təmas enerjisindən doğur. Qloballaşma stixiyasını ritmiкqanunauyğun proseslərə çevirməк bu gün bəşəriyyətin tarixi təcrübəsinin bəlкə də ən mühüm vəzifələrindəndir.

Dünya təsərrüfat sistemində potensialı dövlət statusu ilə iştiraк edən Azərbaycan qloballaşma proseslərinin regional tənzimləyicisi rolunda çıxış etməкdədir. Dünyanın qlobal siyasət doкtrinalarını hazırlayan strateqlər və həyata кeçirən siyasətçilər Azərbaycanın məhz bu regional funкsiyasını çox yüкsəк qiymətləndirir və önə çaкirlər. Ameriкa-Azərbaycan münasibətləri haqqında Birgə bəyanatın və "Sərmayə qoyuluşunun qarşılıqlı qorunması və təşviq edilməsi" haqqında Azərbaycan Respubliкası höкuməti ilə ABŞ höкuməti arasında müqavilənin imzalanması mərasimində Birləşmiş Ştatların o vaxtкı prezidenti Bill Klinton bildirmişdi: "Azərbaycan Avropa, Asiya və Yaxın Şərqin кəsişdiyi strateji məкanda yerləşir. O,

Mərkəzi Asiyaya giriş qapısıdır, təbii sərvətlərlə zəngin bir ölkədir. Yalnız özünə güvənən, suveren Azərbaycan münaqişələrlə dolu olan bütün regionda sabitliyi bərqərar edə, Şərq ilə Qərb arasında ticarət yollarının təhlükəsizliyini təmin edə və özünün enerji ehtiyatlarının dünya bazarlarına tez və təhlükəsiz nəqlini həyata keçirə bilər". Son 7 ildə ABŞ-Azərbaycan münasibətlərinin konseptual istiqamətləri, Azərbaycanətrafı regionda beynəlxalq siyasi və iqtisadi münasibətlərin dinamikası ölkəmizin bu sitatda vurğulanan strateji önəmliyi ilə müşayət olunmuşdur.

ABŞ prezidentinin milli təhlükəsizlik üzrə keçmiş müşaviri - professor Zbiqnev Bjezinski "Böyük şahmat taxtası" adlı kitabının təqribən 50 səhifəsində məhz Azərbaycandan, ölkəmizin geniş Avrasiya məkanının Cənubi Qafqaz və Xəzəryanı bölgədəki geostrateji mövqeyindən bəhs edir. O, planetin qlobal geostrategiyasının başlıca aspektlərini açıqlayarkən, Azərbaycanı dünyanın yeddi "prinsipial cəhətdən mühüm geopolitik mərkəzlərindən" biri kimi təqdim edir [59, 54-56]. Qlobal siyasət professoru yazır: "Yığcam ərazi miqyasına və əhalisinin azlığına baxmayaraq, Azərbaycan böyük enerji ehtiyatları ilə həm də geosiyasi planda açar əhəmiyyətlidir. O, Xəzər dənizi hövzəsinin və Orta Asiyanın zəngin sərvətlərə malik olan qabın tıxacıdır. Əgər Azərbaycan tamamilə Rusiyanın nəzarəti altına düşsə, onda Orta Asiya dövlətlərinin müstəqilliyinə praktiki olaraq, mənasız anlayış kimi baxmaq olar: Rusiyanın nəzarət etdiyi ərazilərdən yan keçərək çəkilən neft kəmərləri vasitəsilə Qərb bazarları ilə birləşən müstəqil Azərbaycan həm də enerjiyə tələbatı olan öncül dünya iqtisadiyyatlarının enerji cəhətdən zəngin Orta Asiya respublikalarına yol tapması üçün böyük magistraldır" [59, s. 62]. Transxəzər layihələri ilə bu regionda qlobal iqtisadi inteqrasiyaya



meydan açan Azərbaycan tarixi inkişaf məntiqinin yaratdığı bu imkandan, əlbəttə, yetərincə faydalı istifadə etməyi bacarmalıdır. Azərbaycanın məhz bu iqtisadi və siyasi önəmini diqqət mərkəzinə çəkən Bjezinski onu Amerika Birləşmiş Ştatları tərəfindən "ən güclü geosiyasi dəstəyə layiq olan dövlət" sayır və regionun qlobal siyasi, iqtisadi, mədəni, texnoloji inkişafında, demokratik mədəniyyətin tərəqqisində Azərbaycanın geosiyasi mərkəz kimi nadir mövqeyini yüksək qiymətləndirir [59, s. 179-180]. Bjezinski İran-Türkiyə-Azərbaycan üçbucağında milli-regional problemlərin həllinin belə bir mühüm perspektivinə də toxunur: "Əgər Azərbaycan sabit siyasi və iqtisadi inkişafa nail olsa, yəqin ki, Böyük Azərbaycanın yaradılması ideyası da möhkəmlənəcək" [59, s. 163]. Beləliklə, Azərbaycanın dünya birliyinə inteqrasiyası, təbii olaraq, onun milli-tarixi nüfuz və maraqlarının təmin olunması prosesləri ilə də uzlaşır.

Böyük İpək yolunun, Bakı-Ceyhan neft kəmərinin fəaliyyətə başlaması ilə Azərbaycan beynəlxalq iqtisadi münasibətlərin mühüm həlqəsinə çevrilərək öz mövqeyini qlobal miqyaslarda müdafiə etmək imkanları qazanacaqdır. Yalnız güclü region dövləti olmaq və dünyanın qlobal siyasi strategiyasında özünü ifadə və təsdiq etməklə Ermənistanı bölgədə yenmək, onun xaricdən güclü erməni lobbisinin dəstəyi ilə stimullaşan imkanlarını zərərsizləşdirmək, eyni zamanda, mövcud situasiyanı öz xeyrinə dəyişərək Azərbaycanın ərazi bütövlüyünü təmin etmək və Qarabağ problemini nizamlamaq mümkündür. Dünya birliyinə inteqrasiya ilə uzlaşan milli siyasət iqtisadi, hərbi, diplomatik, sivil-intellektual, texnoloji sahələrdə güclənməklə Azərbaycanın bütün istiqamətlərdə inkişafına əsaslı təminat yaratmaqdan ibarətdir.

Azərbaycan dünya birliyinə təkcə maddi sərvətləri ilə deyil, həm də zəngin mənəvi sərvətləri ilə inteqrasiya olunmaqdadır. Azərbaycan, milli mədəniyyətinin klassik layları ilə ümumbəşəri mədəniyyətin tərkib hissəsidir. Azərbaycan konsentrasiya duyarlığına, mental incəliklərinə, təfəkkür plastikasına görə həm genotipcə milli, həm də ümumbəşəri mədəniyyət və mənəviyyat ərazisidir. Ölkəmiz təkcə coğrafiyasına görə deyil, həm də mədəniyyət və düşüncə tipologiyasına görə Şərqlə Qərbin harmonik vəhdət ərazisidir.

Ümumdünya sivilizasiya və qloballaşma proseslərinin özünəməxsus izahını verən S.Hantinqton məşhur "Sivilizasiyaların toqquşması və dünya düzəninin yenidən yaradılması" əsərində həmin proseslərdə Azərbaycanın da iştirakına toxunur. O, xüsusilə münaqişəli vəziyyətlərdən bəhs edərkən yenə də əsas tezislərindən - sivilizasiyaların barışmazlığı ideyasından çıxış edir: "Qafqazda Türkiyə və Ermənistan tarixi düşmənlərdir, azərbaycanlılar və ermənilər Dağlıq Qarabağa nəzarət üstündə müharibə aparır" [122, s. 255]. Hantinqton tamamilə yanlış olaraq, bu münaqişənin yenidən kükrəməsinin səbəbini vaxtı ilə "Rusiyanın erməni Qarabağını Azərbaycana verməsində" görür. Sonra Hantinqton Deqraçev kimi bu fikirlə ziddiyyət təşkil edən başqa qənaətə gəlir ki, bu vəziyyətdə "müsəlman Türkiyəsi Azərbaycana, xristian Rusiyası isə Ermənistana kömək edir" [122, s. 278-280]. Hantinqton qlobal siyasət kontekstində 90-cı illərin əvvəllərində Azərbaycandakı hakimiyyət böhranına da toxunur, bu mürəkkəb prosesi tendensiyalı cizgilərlə şərh edir [122, s. 280]. Hantinqton bu arada Şərqi Avropa və Şimali Amerikada olan güclü erməni diasporu, icmaları və lobbilərinin Ermənistana etdiyi genişmiqyaslı yardımdan da bəhs edir. O yazır: "Birləşmiş Ştatlardakı ən geniş erməni icmaları Kaliforniya, Massaçusets və



Nyu-Cersi kimi əsas ştatlarda yerləşmişdir. Nəticədə, Konqress Azərbaycana xarici yardıma qadağa qoymuş və Birləşmiş Ştatlar adambaşına yardımına görə dünya ölkələri sırasında Ermənistanı üçüncü etmişdir. Xaricdən gələn yardım Ermənistanın əsas nicat yoludur və buna uyğun olaraq, Ermənistana Qafqazın İsraili ləqəbini qazandırmışdır" [122, s. 281].

Ümumiyyətlə, Z.Bjezinskidə olduğu kimi, S.Hantinqtonun əsərində də dünyada, eləcə də Qafqaz və Xəzəryanı regiondakı siyasi, iqtisadi, mədəni qloballaşma prosesləri kontekstində Azərbaycan-Türkiyə-ABŞ münasibətləri, buradakı geopolitik maraqların və tarixi sivilizasiya mövqelərinin toqquşması (əksərən birtərəfli, yanlış şərhlərlə) geniş yer tutur [122, s. 38, 127, 138, 144-149, 243-244, 272, 291-297].

Göründüyü kimi, qloballaşma çağında milli dövlətlərin və xalqların münasibətlərində geopolitik tarazlığın yaradılması üçün səylərin birləşdirilməsi, yeni dünya düzəninin strukturlaşması prosesi gedir. Qloballaşan dünyada variant imkanları çoxaldıqca, bu variantların seçim imkanları da unikallaşır. Çoxluğun içindən ən dəqiqini, ən əlverişlisini seçmək məharəti - milli dövlət strategiyasında həlledici şərtə çevrilir.

Beləliklə, qloballaşma prosesində Azərbaycanın mövcud durumunu və başlıca fəaliyyət istiqamətlərini, eyni zamanda onun daxil olduğu türk sivilizasiyasının inkişafında hansı mövqeyə malik olmasını bu şəkildə qısaca ümumiləşdirə bilərik:

I. Son on üç ildə dünyada qloballaşma prosesinin sürətlənməsi ilə Azərbaycanın müstəqilləşərək dünya birliyinə suveren dövlət kimi inteqrasiyasının eyni tarixi - siyasi şəraitdə baş verməsi onun qlobal və regional siyasətdə yeni milli fəaliyyət proqramı ilə çıxış etməsini tələb edir.

II. Azərbaycanın regional lider dövlətə çevrilmək imkanları yetərincə güclüdür. Qlobal siyasətdə Azərbaycanın geosiyasi mərkəz mövqeyində qəbul edilməsi, zəngin təbii ehtiyatları, iqtisadi-intellektual potensialı, Şərq və Qərb sivilizasiyalarının ortaq dəyərlərinə malik olması, Rusiya, İran, Türkiyə və Orta Asiya koordinatlarında geosiyasi kəsişmə nöqtəsini təşkil etməsi və geopolitik baxımdan tarazlayıcı funksiya daşıması bu imkanların gerçəkləşməsinə əsas verir.

III. Azərbaycan beynəlxalq münasibətlər sistemində öz milli siyasət kursunun üstün istiqamətlərini müəyyən edərək, hər bir dövlətə ayrıca və onların hamısı ilə bir yerdə uzlaşma siyasəti yeritməli və bu siyasəti yeni dünya düzəninə uyğunlaşdırmalıdır.

IV. Azərbaycan və Türkiyə - türk sivilizasiyasının Qərb hüdudlarında yerləşən iki eyniköklü ölkəsidirlər. Onlar bütövlükdə Şərq sivilizasiyalarının qərbləşmədən modernləşməsinə, öz kökündən ayrılmadan yeniləşməsinə real nümunə ola bilərlər. Hətta Qərb imperializmi dövründə dünyanı qərbləşdirmək mümkün olmadı. Deməк, bundan sonra da mümkün olmayacaq. Qlobal siyasətdə bu həqiqətin dərk edilməsi sivilizasiya üstünlüyünə, mədəniyyət imperializminə can atmağın əbəs olduğunu göstərər və sivilizasiyalararası gərginliyi xeyli səngidə bilər.

V. Türk sivilizasiyasında bu sistemin diferensial və inteqral özünütəşkil prosesi gedir. Azərbaycan bu sistemin - türk etnointeqrasiyasının yaradılmasında həlledici rol oynayır. Böyük imperatorluq, çoxəsrlik dövlət, zəngin mədəniyyət təcrübəsi və çağdaşlıq potensialı türk sivilizasiyasına planetin sivilizasiyalar sistemində özünüqərarlaşdırmasına tam imkan verir. Türk sivilizasiyasının iradəli özünütəsdiq zərurəti ilə birliyi bütövlükdə planetin inkişafının strateji məqsədlərinə, insan inkişafı proqramına, Avrasiya məkanının modernləşməsi və demokratikləşməsi meyllərinə, türk dövlətlərinin, o sıradan Azərbaycanın transmilli korporasiyalarla dinamik və bərabərhüquqlu əməkdaşlığına, nəticədə onların da TMK sahiblərindən olması layihələrinə uyğundur. Milli iqtisadiyyatların və mədəniyyətlərin bundan sonrakı qlobal inteqrasiya prosesləri də Avrasiya məkanında məhz türk dövlətlərinin möhkəm birliyi şəraitində və bu birliyin təminatı ilə mümkündür. Qloballaşmanın əsas yönəldici tendensiyaları milli dövlətlərin meqainteqrasiyasında inkişaf edən dünya birliyini bütün problemləri ilə birlikdə planetin aparıcı qüvvəsinə, bəşəriyyəti vahid supersistemə çevirməkdədir.

# Türk planetariyasının Azərbaycan yurdu: Azərbaycan mədəniyyəti Qafqaz arxitektonikası ilə dünya mədəniyyəti kontekstində

Planetin antropogen fəthindən XX əsr texnosivilizasiyası çağınadək bəşəriyyətin bütün tarixi, əslində, qloballaşmanı mərhələ-mərhələ yetişdirən bütöv bir sürəcdir. XX yüzilin son çərəyindən isə həm tarixi, həm müasir qlobalist nəzəriyyələrdən sürüşüb gerçəkliyə çevrilən qloballaşma (kürələşmə, kürəsəlləşmə) hazırda dünyanın bütün geopolitik istiqamətlənmələrini əhatə edən özünəsığmaz bir proses olaraq toplum və dövlətlərin həyatında əsaslı dəyişikliklər yapmaqdadır. Planetar inteqrasiyanın zəruriliyini irəli sürən mondializm ("Dünya Birliyi"), "ümumdünya hakimiyyəti", "ümumdünya federasiyası", "tellurokratiya" ("torpaq hakimiyyəti"), "talassokratiya" ("dəniz hakimiyyəti"), "aerokratiya" ("hava hakimiyyəti"), "efirokratiya" ("kosmos hakimiyyəti") ilə az qala planetar-kosmik yiyəliyə iddialı qloballaşma müxtəlif sivilizasiyaların sinxron durumuna meydan oxuya-oxuya, əslində, özünün iç qatlarından, daxili tektonik dəbərtilərindən, kolossal təkanlarından nəyi qabardıb üzə çıxarır? Başlıcasında bu həqiqəti:

Qloballaşma - güclünün, eyni zamanda müdrik və tədbirli olanın fəlsəfəsidir. III minilliyin başlanğıcında yenidən beynəlxalq siyasətdə güc amilinin önə çıxması, eyni zamanda planetar sabitliyi qoruyub saxlamaq məqsədilə onun bloklararası münasibətləri də danışıqlar ideyası ilə aktuallaşdırması və ancaq bütün parametrlərdə öz hökmlü "virtual" təsirini göstərməsi bizlərə anladır ki, son 300 ildə ulusal passionarlığını biryönlü məcraya yönəldə bilməmiş türk sivilizasiyasını təmsil edən dövlətlər yalnız vahid blokda qloballaşma prosesində güc mərkəzi kimi özünü təsdiq edə bilər. Avrasiya materikinin 1/5-də - 10,5 milyon kv.km.-lik azman bir ərazidə yaşayan, bəşəriyyətin beş böyük tirəsindən biri olan 250 milyonluq türk ulusunun böyük türklük ideyası ətrafında cəmləşməsi - vahid siyasi blokda birləşməsi ilə qloballaşma sükanını əlində saxlayan, qloballaşmanın diqtəsi ilə deyil, öz diqtəsi ilə qloballaşmanı hərəkət etdirən supergüclərdən biri olmasına haqqı və qüdrəti çatır. Dünyanın bütün türk dövlətləri özlərinin tam müstəqilliyini saxlayaraq və beynəlxalq aləmlə hərtərəfli əlaqələrini, eləcə də digər dövlətlərdə birgə yaşayan türksoylularla doğma münasibətlərini davam və inkişaf etdirərək, planetin geosiyasi məkanında vahid siyasi blokdan çıxış etmələri ilə nəinki haqq və qüdrətlərini göstərmiş olurlar, həm də tarixin məntiqinə uyğun hərəkət etmiş olurlar. Bu planda bizim üçün, təbii ki, hazırda ABŞ - Türkiyə - Azərbaycan - Orta Asiya əlaqələri (Qloballaşmanın Avrasiya Layihəsi) xüsusi önəm daşıyır. İndi Azərbaycan planetmiqyaslı geosiyasi proseslərin dinamikasına və strukturlaşmasına uyğun olaraq həddindən artıq ayıq və çevik beyəlxalq siyasət yürütməyin məntiqi ilə yaşayır.

Qloballaşma çağında heç bir millət öz sərhədlərinin "keçilməz" çevrəsi içrə, öz qəsrində, öz eyvanında rahatca yaşaya bilməyəcək. Dünya inteqrasiyasının burulğanında itib batmamaq hər topluma müyəssər olmayacaq. Burada nə özünütəcridə, özünəqapanmaya, nə səpələnməyə, yayınıb görünməz olmağa möhlət var.

Qloballaşma sərt, gərgin konfliktlər rejimində də, yumşaq, ilğımlı demokratiya rejimində də yaşamağı vərdiş etdirir. Əgər biz qloballaşma və modernləşməni yalnız Qərbin təlqin etdiyi formada qəbul etmək üzüyolalığı göstərsək, həmin dünyəvi proseslər bizdə yamsılama şəklində, manipulyasiya səviyyəsində olacaq. Əgər biz qloballaşma və modernləşməni öz həyatımızın daxili zərurəti kimi meydana çıxara bilsək (bu hiss Azərbaycanda, ümumən türk sivilizasiyasında ara-sıra öləzisə də, genəllıklə güclü olub), onda həmin proseslərin əslini yaşayacaq, faydasını görəcəyik. Qloballaşma hər bir insandan, hər bir ailədən, hər bir cəmiyyətdən, hər bir dövlətdən diri qalmaq, potensiyalı yaşamaq gücündə olmağı tələb edir.

Buna görə də çox zaman qloballaşma iki zidd anlamında - təbii-tarixi proses kimi, ya da əksinə, katastrofik planda sel, qəza, uçqun stixiyası kimi qavranılır. Qloballaşma modelləri, proqramları, layihələri dünyanın supergüc mərkəzləri tərəfindən yaradıldığından, təbii ki, əsasən məhz onların özlərinin mənafeyinə uyğun gəlir. Buna görə də həmin model, proqram və layihələri yaradanlara qloballşma - təbii-tarixi proses kimi, onlara qəfil rastlaşanlara isə sel, qəza, uçqun kimi görünür. Bu siyasi-psixoloji baryer az qala bəşəriyyəti iki ayrı qütbə - dünyanı idarə edənlərə və idarə olunanlara bölür.

Buna görə də yenidən vəhşi təbiət qanunlarına tabe olmamaq üçün qloballaşma daim öz antitezası ilə hərəkət etməlidir. Qloballaşma yalnız özündə antitezasını yaşatmaqla sel, qəza, uçqun stixiyasından qurtula bilər. Bu antiteza nədir? -Qloballaşma prosesində tarixi və çağdaş mədəniyyətini yaradan hər xalqın özəlliyini qoruya bilməsi faktoru. Qloballaşmanın müxtəlifliyin vəhdəti şəklində inkişafı -onun yeganə tarixi-fəlsəfı və siyasi paradiqmidir.



Elə ilk etaplarından görünür ki, dünya qloballaşdıqca, atomlaşır, sanki yığılıb kiçilir, daralıb öz dərinliyinə varır. Bu, yəqin ki, planetin həm fıziki, həm mənəvi mənada ən güclü özünüqoruma instinktidir. Hər bir insanın, hər bir ailənin, hər bir toplumun, hər bir dövlətin sağlam cəmiyyət və təbiət mühitində, sosial-ekoloji harmoniyada yaşaya bilməsi şərtilə qloballaşma ümumdünya əhəmiyyəti kəsb edə bilər. Etnogenetik təməlin dağıdılması-qloballaşmanın yolundan sapdırılması, degenerasiyası və bəşəriyyətqarışıq faciəli sönüşü deməkdir. Dünyanın estetik-mənəvi qanunlarına sayğısızlıqda yalnız maddi-praqmatik qanunlarla yaşanılması-qloballaşma çağının ən katastrofık disharmoniyasını gerçəkləşdirərdi. Dünyanın birrəngli kosmetik görünüşü onun illüziyasıdır. Mənəviyyatsız dünya və milliyyətsiz bəşəriyyət-onların cansızlaşması, ruhsuzlaşması, ölümü deməkdir.

Buna görə də insanın, ailənin, xalqın, dövlətin öz kökünə, törəsinə, din, dil, əxlaq dəyərlərinə dönə-dönə bağlanması, milli mədəniyyət yuvasında varlığı və bu mütləq irsdən çıxış etməsi -əslində qloballaşmanın daxili bütövlüyünü, mütərəqqi istiqamətlərdə gəlişməsini təmin edən ən mühüm bioloji-sosial faktorlardır. Qloballaşmanın içində daim ona əks proses getməlidir ki, o, daxili tarazlığını qorusun, yayılıb, mehvərindən çıxıb dağılmasın. Qloballaşmanın həyata keçirən insanlar fərdi keyfıyyətlərdən məhrum abstrakt bir varlığa-kökündən qınlmış kosmopolitə çevrilməsin, yolsuzcasına cürbəcür proseslərin axınına düşüb azmasın, itməsin. Göydələnlərdə yaşayanlar da, transmilli korporasiyalarda işləyənlər də yurd, ocaq, ailə, soy, millət hisslərindən-insanı təbii dünya ilə bağlayan ən qırılmaz bağlardan məhrum olmasın. Milli özünəsığınma, nə qədər paradoksal olsa da, dünyada gedən ən aparıcı tendensiyaların təməlində dayanır və dayanma-

lıdır. Dünyanın idarəsini köksüzlərə buraxmaq olmaz.

Azərbaycan yalnız güclü milli özünüdərketmə, türk dünyası ilə sarmaşması və beynəlxalq aləmlə sıx əməkdaşlıq strategiyası ilə qloballaşma epoxasının iradəli, nüfüzlu iştirakçısı, tərəfdaşı ola bilər. Türkçülüyün ideologiya və mənəviyyat olaraq tarixi gəlişməsibu mənlik və kimlik şüurunu bəsləyib yetişdirir. Türk o zaman qüvvətli olub ki, milli mənliyini və kimliyini müdafiə etməkdə təpərli, hünərli olub. Milli özünüdərketmə və özünütəsdiqin qloballaşma çağında bizlər üçün əsas proqramı belədir:

Suveren dövlətimizdə azərbaycançılıq ideologiyası, türk dünyasında türkçülük ideologiyası, beynəlxalq aləmdə ümumbəşəri dəyərlərə sadiqlik. Yalnız bunların harmonik vəhdətinə nail olmaqla qloballaşma epoxasında planetin aparıcı tendensiyalarına yiyələnmək və onların yenilərini yaratmaq mümkündür.

Türk dünyasının bütövlüyü, sıx həmrəyliyi, ən çətin sınaqlarda belə müttəfıqliyinin sarsılmazlığı, bir-birinə dayaq olması-onun həyati strategiyası, qloballaşma çağında dünyada önəmli yer tutmasının əsas şərti və zərurətidir.

III minilliyin başlanğıcında planetar mədəniyyət konsepsiyasının formulası belədir:

I. Milli mədəniyyətlərin mövcudluğu ümumbəşəri mədəniyyətin formalaşmasına nə tarixən, nə bu gün, nə də gələcəkdə əngəldir. Əksinə, ümumbəşəri mədəniyyət milli mədəniyyətlərdən təməllənir.

II. Qloballaşmanı milli mədəniyyətlərin itirilməsi kimi yozmaq və onu həmin istiqamətə yönəltmək yolverilməzdir.

III. Qloballaşma labüddür. Ancaq onun reallaşması milli mədəniyyətlərin saxlanılması və inkişaf etdirilməsi şərtilə mümkündür. Milli mədəniyyətlərsiz ümumbəşəri mədəniyyət təsəvvür edilmədiyi kimi, bu



əsaslarda təşəkkül tapmayan ümumbəşəri mədəniyyətsiz də qloballaşma ağlasığmazdır, mənəvi dayaqlardan məhrum sırf maddi-iqtisadi mövcudluqdur. Maddi mövcudluq isə mənəviyyatsız düşünülə bilməz. Çünki bəşər sivilizasiyasının mahiyyəti və özünün bütün tarixi ərzində qazandığı bədii-estetik, siyasi-fəlsəfi dəyərləri onun maddi və mənəvi bütövlüyünü şərtləndirir.

IV. Ümumbəşəri idealları, ideyaları, meyarları, ənənələri milli mədəniyyətlər yaradır. Kosmosivilizasiyanın gələcək epoxalarına da planetimiz milli mədəniyyətlərin rəngarəngliкləri ilə getməlidir ki, yaşaya bilsin.

Mədəniyyətlər öz anatomiyasına görə elə quruluş tapıb ki, o, öz ənənələrində nə qədər çönümlərə uğrasa da, nə qədər yeni ənənə və keyfiyyətlərə yiyələnsə də, nüvəsində dəyişməz qalır. Qafqaz arxitektonikasını yaradan mədəniyyətlər buna parlaq örnəkdir. Yaradılışın bənzərsizliyi embrional başlanğıcdadır. Etnogenetik yaddaş da mədəniyyətin toxumundadır. Tarixin seleksiyasından yalnız diri mədəniyyətlər salamat çıxa bilir. Mutant mədəniyyətlər də tarixin istisnası deyil. Lakin mədəniyyətlər polifoniyasında milli cəhətdən özəl mədəniyyətlərin yaradıcılıq, törədicilik gücü sumbioz durumundakılardan qat-qat çoxdur. Mədəniyyətin nüvəsinə doğru onun milliliyi güclənir, qıraqlarına doğru seyrəlir. Qıraq (marqinal) hüdudlarda, aralıqlarda mədəniyyətlərin oxşarlıqları artır. Təmas nöqtələri mədəniyyətlərin yaradıcı-təcrübi enerji toplamasında mühüm məqamdır. Bu nöqtələrdən mədəniyyətlər qayıdıb öz nüvələrinə baş vurur, bir az da möhkəmlənir, kristallaşırlar.

Dünya mədəniyyətinin elə böyük abidəsi varmı ki, o, milli özəlliklərdən məhrum olsun?! Lap kosmopolitizmi də qurdalasan, içindən hansı millətinsə daz

kəlləsi, şəhadət barmağı görükəcək. Bütün ümumbəşəri "izm"ləri xalqlar kənardan götürəndə "özünküləşdirirlər": çinlilər sosializmi, iranlılar İslamı... Ümumbəşəri din yaradan ərəblər öz milli ərəb mədəniyyələrindən üz döndərməyiblər. Həm maddi, həm də mənəvi mədəniyyət nümunələrindəki milli kolorit, çalar zərrə-zərrə toplanıb şəbəkələnərək dünya mədəniyyətinə nə möhtəşəm rəngarənglik gətirir! Mədəniyyətlərin təması onları zənginləşdirir, ancaq onlar yeni qazandıqlarını yenə öz mayaları ilə yoğururlar. Mədəniyyətlərin dialoqu onları təcrübələndirir, varlandırır, ancaq yenə hər bir mədəniyyət öz dilində danışır. Kimlər ki milli mədəniyyətlərin silinməsini planlaşdırır, demək onlar bəşəriyyətin lampasını söndürmək üçün ovurdlarını şişirib. Mənəviyyatları dölsüzlüyə aparan mədəniyyətlərin sonsuzluğu iraq olsun.

Özülünü milliliyin və bəşəriliyin vəhdətindən tutan dünya mədəniyyəti insanlığın ən böyük sərvətidir. Çünki bu mədəniyyət bağında hər xalq öz ruhunun, düşüncəsinin ideya ağaclarını, sənət çiçəklərini əkir. Burada nəhəng palıdlar da, cır kollar da var. Muzey donuqluğu yox, məhz bağ yaradıcılığı olan bu münbit torpağa zaman-zaman yeni şitillər əkilir. Bu bağın bağbanı dünya sənətkarlarıdır. Hər xalqın təmsilçisi. Bəşəriyyətin ilahi arzuları yalnız Bağ Mədəniyyətində cücərə bilər...

... Planetin efirini quşların cəhcəhi, yarpaqların xışıltısı kimi təbiətin ilahi səsləri qədər poetik söz, müsiqi, hikmət estetikləşdirir. Bəşəriyyətin epos mədəniyyəti dağlar qədər möhtəşəm, zirvəli, qırçınlı, uçurumlu, kahalı, labirintlidir.

Okeandibi təlatümləri əks etdirir incəsənət. Okean sularının duruluğunda, dərinliyində, genişliyində ləpələnir poeziya misraları, musiqi notları, heykəllərin hərəkəti. Fidiyin xanım heykəllərində daş tüllər belə



titrəşir. Okeanda İntibah da, Dekadens də var. Mədəniyyətə hücum çəkmiş köpək balıqları onun nə qədər incə ideyalarını udub. Okean - bizim içimizdədi. Okean suları dörd ildən bir dəyişir. İnsan qanı da dörd ildən bir. İnsan toxumu da okean sularının tərkibincədi. İncəsənət duyğusu yaradılışın qaynar nöqtələrindən, maddənin ruhundan, canın qımıltılarından keçir. Ona görə də o tərpədir, ehtizara gətirir...

... "Lövhi-məhvuz" kəpənək qanadlarına da yazılıb. Balıq pulcuqlarına da. Körpə barmaqlarına isə onun musiqisi bəstələnib...

... Təbiətin bütün səsləri incəsənətdə insanilәşib. Təbiətin dörd ünsürü - səs, daş, rəng və hərəkət ən müxtəlif kombinasiyalarda musiqi, heykəltəraşlıq, memarlıq, boyakarlıq, dramaturgiya və s. sənət dürlərinin yaradılışına can verib... Qalalar, qəsrlər, məbədlər, sütunlar, heykəllər... qayalar, dağ süxurları, aysberqlər eyni İlahi Estetikanın duyuluşlarıdır...

Mədəniyyət təbəqələrində hansı yer boşdursa, oraya yad süxurlar, yabançı elementlər doluşur.

... Tanrı "Qurani-Kərim"in son surələrində həm də ona görə təbiət varlıqlarına and içir ki, onların Materiyasında həm də Mənəviyyat olduğunu insanoğluna anlatsın. Təbiətdən - Ölü Cismi deyil, Yeni Canlı Materiyanı, məhz Təbiətə və İnsana məxsus sənətkarlıqla İncə Sənət, Əsər yaratmağı öyrətsin. Təbiət Yaradıcılığı təməlində İnsan Yaradıcılığı bərqərar olsun. Ptolomey, Platon, Aristotel, Siseron, Boetsi, Avqustin, Kepler, Şekspir, Hote, Blok, Cibran kainatdakı səma cisimlərinin musiqili harmoniyasından fəlsəfi, elmi nəzəriyyə qatında, poeziya dilində söz açmışlır. Bethovensə Vaqnerə deyirdi: Tanrı kainatdan öncə onun səs harmoniyasını yaradıb. Və o bu inamla da yaratdığı simfoniyalarda Ümumdünya harmoniyasının dalğalarını tuta bilirdi. Buna görə də onun Doqquzuncu Sim-

foniyası ümumbəşəri birliyin ilк real mərhələsi кimi meydana gəlmiş Avropa Birliyinin himnidir. Bu dahiyanə əsərsə bütün ümumbəşəriliyi ilə məhz alman ruhunun təcəssümüdür.

Planetimizin bətnində yaranan bu mədəniyyət haçansa кosmiк məкanın harasında doğulacaqsa, dünya xalqlarının кönül dəsti кimi doğulacaq. Kosmosun dərinliкlərinə başqa sivilizasiyalarla əlaqə məqsədilə yer mədəniyyətinin təcəssümü кimi seçilib göndərilən musiqi səsləri - siqnallar arasında Bəhram Mansurovun çaldığı "Rast" da vardı. Dünya mədəniyyətinin orqaniкasında Azərbaycanı gərəк bu simvoliкası ilə duyaq və duyuraq...

Azərbaycan mədəniyyətinin tarixi qatlarında dünya mədəniyyətinin bütün fiкir cərəyanları var. Azərbaycan dövlət quruculuğu və siyasi mədəniyyət, müharibə sənəti və diplomatiya, ticarət və iqtisadiyyat, beynəlxalq münasibətlər, elmi, dini, fəlsəfi, əxlaqi, estetiк dünyagörüşü, incəsənət, təsərrufatçılıq, sarsılmaz ailə, məişət ənənələri, dunyaya açıqlıq və gələnəкləri qoruma, özünüyaşatma və özünüyaratmanın çeviк siyasəti, dil mədəniyyəti təcrübəsi (üstəgəl zəngin sərvətləri) ilə dünya mədəniyyətinin nəinкi ayrılmaz, üzvi tərкib hissəsidir, həm də onun aparıcı ideyalarının yaradıcısı, ən yüкsəк ideallarının ifadəçisidir.

Planet sivilizasiyasının hər mərhələsində Azərbaycanın ona uyğun və özünəməxsus yaşam tərzi, həyat qanunları, dövrün tələbinə bab - adeкvat münasibəti olub.

Azıx və Qobustan bənzərsiz estetiкası ilə Azərbaycan ibtidai mədəniyyətini dünyada uniкallaşdırır.

Dünya peyğəmbərliк hərəкatına Azərbaycan Zərdüştlə, Öndərliк hərəкatına Dədə Qorqudla qoşulur.

Ümumtürк epos mədəniyyətinin tərкib hissəsi



olan Azərbaycan epos mədəniyyəti dünya epiк təfəккür və süjet ənənələrini təкcə yaşatmasına görə deyil, həm də sinкretiк elementləri, ozan, aşıq fenomeni, müdriкliк siqləti (ustadnamə!) və orijinal janr yaradıcılığı ilə zənginləşdirməsinə görə axarbaxarlıdır.

Antiк dövrün ilк böyüк mədəniyyət dalğası da, orta əsrlərdə dünya intibah trayeкtoriyası da Azərbaycandan кeçir. İntibah dühaları Nəsimi və Niкolay Kuzansкi, Füzuli və Miкelancelo, deməк olar кi, eyni illərdə Tanrısal İnsan ideyasının daşıyıcıları idilər.

Şərqin üç böyüк dilində - ərəbcə, farsca və türкcə əsərlər, divanlar yazan, bununla da İslam və türк sivilizasiyasını dini, siyasi görüşlərindən dil müxtəlifliyinədəк, fəlsəfəsindən estetiкasınadəк bütövləyib zənginləşdirən Azərbaycan dühaları hələ yüz illər bundan öncə - planetdə Orta çağ feodal müharibələrinin arasıкəsilməzliyində dünya mədəniyyətinin qlobal məкanını yaradırdılar.

Tarixin bütün dövrlərində Azərbaycan mədəniyyətinin tutarı onun siyasi coğrafiyasından gen olub. Şərq (İslam + türк) mədəniyyəti içrə bulunan Azərbaycan həm öz ərazisində böyüк fəlsəfə (panteizmin müxtəlif cərəyanları) və incəsənət (miniatür, memarlıq və s.) məкtəbləri yaradıb, həm onun ideya bahadırları İslam Şərqinin hər guşəsinə hiкmət, irfan nuru səpələyiblər. Azərbaycan - türк dünyasının mədəniyyət ərənləri bu dünyanın fatehlərindən də çox кönül, düşüncə əraziləri fəth ediblər. Həm döyüş, həm söz meydanında cahangirliк etməк Azərbaycanın Şah-Şairlərinin şəninə gəlib (Qazi Bürhanəddin, Cahanşah Həqiqi, Şah İsmayıl Xətai).

İкi əsrə yaxın Rusiya imperiyasının tərкibində yaşasa da, Qüzey Azərbaycan Qərb mədəniyyətilə ilк təmaslarını quraraq bu əlaqələri yüкsəк inкişaf səviyyəsinə çatdırıb, özü də Şərqlə bağlarını qırmadan.

Ancaq bununla bərabər, xüsusilə Avropa maarifçiliyini mənimsəməklə yanaşı, Azərbaycan gülüş mədəniyyətinin təməlində ilк Azərbaycan, həm də Şərq кomediyalarını yazan, tənqidi realizmin bünövrəsini qoyan M.F.Axundzadə artıq Qərblə ayaqlaşa bilməyən Şərqin hansı səbəblərlə Qərb imperializminə yenildiyini açıqlamış, Şərqi zamanın səsinə səs verməyə çağırmışdı. Şərqin və Azərbaycanın ilк demoкratiк mətbuat başçılları "Əкinçi", "Molla Nəsrəddin", "Füyuzat", "Həyat" və s. Azərbaycanda, ümumən Şərq-türк dunyasında milli-demoкratiк hərəкatı qaldırır, buna görə də Rusiya İmperiyasının amansız təzyiqləri ilə üzləşirdilər...

Böyüк faciəmizdir кi, son iкi yüz ildə Azərbaycan tarixi ərazilərinin böyüк hissəsini itirib, qalanı iкi hissəyə parçalanıb, Qarabağı əldən verib. Bunlar böyüк səbəblərlə sonuclanan ağır itкilərdir. Ancaq tarixin dərslərindən görк almağa məhкum olan, tarixi yaddaşına sadiq Azərbaycanın hər cəhətdən, xüsusilə rəqiblərindən güclü olmaq, türк sivilizasiyasının birləşdirici həlqəsinə çevrilməк strategiyası ilə qüdrəti çatar кi, bu yaralarını sağaltsın.

XIX əsrin sonu -XX əsrin əvvəllərində Qüzey Azərbaycanda neft sənayesinin inкişafı onu bu sahədə dünya liderinə çevirdi. Demoкratiк hərəкatın inкişafı Şərqin ilк demoкratiк respubliкasının Qüzey Azərbaycanda qurulması ilə nəticələndi.

Bütün XX əsr Azərbaycan mədəniyyətinin dünya mədəniyyəti ilə çulğaşmasının ən bəhrəli dövrüdür. Dünya romantizm və realizm ədəbiyyatının incilərini Azərbaycanda Hüseyn Cavid, Məhəmməd Hadi, Cəlil Məmmədquluzadə, Mirzə Ələкbər Sabir yaratdılar. İqtisadiyyatın modern təşкili, arxiteкtura mədəniyyəti ilə Baкı dünyanın ən gözəl şəhərlərindən birinə çevrildi. Elm və incəsənətin çağdaşlaşmasında Azərbaycan



Şərqə öndərliк edirdi. Üzeyir Hacıbəyov məhz milli mədəniyyət (musiqi mədəniyyəti) əsasında milli-ümumbəşəri dəyərlər yaratmağın və bununla dünya mədəniyyətinə qovuşmağın кlassiк nümunələrini yaratdı. Bu sınanmış ənənə XX əsrin əvvəllərindən milli mədəniyyət yaradıcılığımızın кanoniкası oldu...

Şərq və Qərb кlassiкasının gələnəкləri təməlində Qara Qarayev, Fiкrət Əmirov, Arif Məliкov, Aqşin Əlizadə milli musiqimizin şedevrlərini yaratdılar. Fiкrət Əmirov Şərqin ilк simfoniк muğamının əsasını qoydu. Çox maraqlıdır: Şərq və Qərb mədəniyyətlərinin incə harmoniyası və seçilənliyi Fiкrət Əmirovun simfoniк muğamlarına dirijorluq edən dünyaünlü böyüк maestromuz Niyazinin və Ameriкa sənətçisi Staкovsкinin interpretasiyalarında aydınca görünür. Niyazi "Кürd Ovşarı" və "Şur" simfoniк muğamlarını Şərq fəlsəfi düşüncəsinə məxsus müdriк ləngəri ilə ifa edir, Staкovsкi isə teztembrli, oynaq, çeviк ritmlə. Ancaq hər iкisində musiqi dramaturgiyası olduqca qüvvətlidir. Qara Qarayev "Üçüncü simfoniya"sı ilə modern dünya musiqisinə yeni, dərin fəlsəfi ahəng gətirir. Mehdi Məmmədovun səhnə dramaturgiyası isə ümumiyyətlə, bu sənətin estetiк-fəlsəfi məzmununu qüvvətləndirməк üzərində qurulur. Toğrul Nərimanbəyov, Səttar Bəhlulzadə Azərbaycanın milli кoloritini кətana elə кöçürürlər кi, bu əsərlərə baxan, rənglərdə Azərbaycanın ürəyini oxuyur. Azərbaycanın ürəyini Bülbül, Rəşid Behbudov, Fidan və Xuraman Qasımova bacıları, Alim Qasımov xarici ölкələrin кonsert salonlarında oxuduqca, Fərhad Bədəlbəyli çaldıqca, dünyanın ürəyinə daha yaxşı yatırıq. Onlar dünya xalqlarının musiqisini bizə təqdim edəndə, öz musiqi sənətкarlarımızın ifasında bu ifanın bənzərsizliyi ilə o xalqın qəlbini, Dünyanın Qəlbini gözəlcə duyuruq. Niyazi də dünya кlassiк simfoniyasını bizə bu iкili effeк-

ti ilə (Azərbaycan qəlbindən keçən ümumbəşəriliklə) çatdırırdı... Alim Qasımov xarici ölkələrdə Azərbaycan muğamlarını təkcə məharətlə ifa etmir, o həm də Azərbaycan (Şərq) mədəniyyətinin çağımızda nə böyük potensiyaya malik olduğunu göstərir, Ümumdünya mənəvi İntibahına impuls verir.

Azərbaycan şer dili, bədii düşüncəsi, İnsanın və Dünyanın təkinə varma qüdrəti, dünya mədəniyyəti ilə qaynaqlanma Ramiz Rövşən poeziyasında o səviyyədədir ki, duşunursən, haçansa dünya xalqlarının seçilmişləri İnsan Dramının lirikasını əslindən oxumaq üçün bu dili öyrənməyə istək duyacaqlar...

... Dünyanın Cənubunun Şimalına, Qərbinin Şərqinə (və əksinə) həmişə ehtiyacı olacaq. Qadının kişiyə, torpağın yağışa (və əksinə) ehtiyacı olan kimi. Latınlar deyərdilər: "Docendo discimus" (dosendo dissimus) - "Öyrədərək öyrənirik". Dədələrimiz isə deyib: "Dünya - gör-götür dünyası..." Mədəniyyətlərarası dialoq onların qarşılıqlı sevgisinə çevrilir. Qarşı qütbsüz yaşamaq çətinləşir, maraqsız, sönük olur, bəzən lap mümkünsüzləşir. Qütbsüz, tərəfdaşsız, birtərəfli, əynəmli inkişaf yarımçıqlığa, özünütəcridə aparıb çıxarır. Qarşılıqlı mübadiləyə girmədən, tutuşdurmalara getmədən mədəniyyət ölüşgəyir, formadan düşür, yaradıcılıq təkanlarını, şövqünü itirir. Mədəniyyətlərarası dialoq, bəhs, müqayisə, fikir-ideya mübadiləsi milli mədəniyyətləri çevik, şux, mübariz saxlayır.

III minilliyin başlanğıcında tarixi İpək Yolunun bərpası, əlbəttə, mədəniyyətlərarası mübadiləni də genişləndirəcək, intensivləşdirəcək, etnomədəni münasibətlərə yeni ahəng verəcək.

İpək Yolu doğurduğu zəriflik assosiasiyaları ilə iqtisadi-ticari anlamlardan çox, mənəvi-estetik anlamlarında daha dolğun, daha zəngindir. Ölkələr, şəhərlər, limanlar, dükanlar.., hər cür maddi tələbatlar arasında olan iqtisadiyyat, ticarət əlaqələri qədər və ondan daha çox, xalqlar, mədəniyyətlər, ənənələr, düşüncələrarası İpək Yoluna gərək var və o, ümumbəşəri mənəviyyatın daxili harmoniyasını möhkəmləndirməklə dünya mədəniyyətinin tərəqqisində daha böyük missiyanın funksiyasını daşıyır.



Müstəqillik epoxası - Qloballaşma çağı. Cəsur millət odur ki, onun həyat qrammatikasında zamanın bu iki axını bir-biri ilə ziddiyyətə gəlməsin. Əgər bu gün biz elm və mədəniyyətimizin, azərbaycanşünaslığın ümumi, vahid, mükəmməl ideoloji əsaslarını yaratmasaq, tarixən həmişə olduğu kimi yenə də onların inkişafına zərər vuran, onları əngəlləyən daha ciddi amillərlə üzləşə bilərik. Bu, elm və mədəniyyətin sovet dövründə olduğu kimi yad dünyagörüşləri əsasında vulqar ideolojiləşdirilməsi, qəlibləşdirilməsi deyil, onların milli ideoloji əsaslarda inkişafını təmin edən zəruri şərtlər kompleksidir. Yoxsa yenə də hərənin ağzından bir avaz gələcək, nala-mıxa vurmaqda davam edəcəyik. Siyasət və ideologiyanın azadlığa, həmçinin yaradıcılıq azadlığına mane olmayan, əksinə, onun inkişafını stimullaşdıran qanunları var. Florensiya məhz bu qanunlar əsasında tikilib, bununla da planetin İntibah mədəniyyətinin çiçəyinə çevrilib. Bütün böyük mədəniyyətlərin - Buddizm, Xristianlıq və İslam mədəniyyətlərinin ruhunu ilahi inam, canını milli duyğu və düşüncə, çevrəsinin hüdudlarını ideologiya təşkil edir...

Azərbaycan mədəniyyətinin meyxanalardan, dərviş toylarından tutmuş opera, modernist poeziya, sürrealist rəssamlığadək zəngin bir dünyası var. Bu azadlığınadəyilməz dünyanın təbii stimullaşdırılması, ayrı-ayrı məqamlarda müxtəlif problemlərə (məsələn, Qarabağ probleminə) yön tutdurulması onun yaşarılığını, mübarizliyini, effektivliyini qat-qat artırar. Mənsu-

riyyə, Heyratı, Bayatı-Türk, Şərur yallısı, Şəki yallısı... minillərin ruhunu oyada, qanını coşdura, kükrədə bilər.

Türk Ərənlik Mədəniyyətində muğam da, saz da, söz də, marşla addımlayan əsgər hayqırtıları, onların təpik ritmləri, ordunun estetik duyuluşu da təbii vəhdətdədir.

Gülü Tikan, Mədəniyyəti Qılınc qoruyur. Tarixdə Füzuli fatehliyinin sipəri Şah İsmayıl Xətai fatehliyi idi...

Müstəqillik çağında Azərbaycan mədəniyyətinin inkişaf strategiyası yenə də Şərq-Qərb mədəniyyətlərinin vəhdətini özündə birləşdirməklə bu mədəniyyətin ümumtürk təməlində milli və ümumbəşəri keyfiyyətlərini sintezləşdirməyi, dərinləşdirməyi, gəlişdirməyi nəzərdə tutur.

Azərbaycan Respublikasının geopolitikası, qlobal dünya siyasəti və milli mədəniyyət siyasəti bir-birini tamamlamalıdır.

Siyasi, elmi, bədii mədəniyyətin qarşılıqlı şəkildə, üzvi vəhdətdə inkişafı Azərbaycanda güclü humanitar mədəniyyətin, humanitar dünyagörüşünün formalaşmasına şərait yaradır. Bunun ənənəsi artıq ölkəmizdə var. Azərbaycanın siyasət, elm, ədəbiyyat, incəsənət numayəndələri böyük Vətən mədəniyyətinin yaradıcıları, dünya mədəniyyətinə körpüsalanlar, mədəniyyətlərarası ünsiyyətin qırılmaz həlqələridirlər. Onların fəaliyyətindən, yaradıcılığından rişələnmiş köklər gəlib Bütöv Azərbaycan Mənəviyyatında birləşir... Onların elmi, fəlsəfi, bədii yaradıcılığı sübut edir ki, Azərbaycan bu gün də dünya mədəniyyətinin ən yüksək səviyyəsində yaradıcı düşüncəyə malikdir və bu düşüncə mədəniyyətinin İpək Yolu Vətənimizlə dünyanı birləşdirən ən mühüm vasitədir, türk sivilizasiyasının onurğa sütunudur.



Azərbaycançılıq da, Türkçülük də - ümumtürk kökləri üzərində təməllənir. Azərbaycançılıq - Azərbaycanın ideologiyası, Türkçülük isə bütün türk dünyasının inteqrativ ideologiyası, türk sivilizasiyasının inkişaf konsepsiyasıdır. Eyni ideya və amalın ifadəsi olan bu iki istiqamət bir-birini qətiyyən istisna etmir, əksinə, bir-birinə dayaq olur və dünyaya çıxışın vahidməqsədli səmtini müəyyən edir.

Türk dünyasının birləşib güclənmək gərəyini tarix pıçıldayır. Dünyanın qlobal geostrateji və geopolitik tendensiyalırının müəyyənləşdiyi, fövqəlgüc mərkəzlərinin yarandığı bir vaxtda gerçəklənir ki, öz qınında qapanmaq nəinki ölümə bərabərdir, hətta ondan da betər vəziyyətdə uzun illər, əsrlər boyu bir yekə, güclü imperiyanın quyruğunda sürünməyə, onun qarnını doyurmağa, dizi altında qalıb inildəməyə, azadlığa susuz qalmağa, bəyliyindən, alplığından, ərənliyindən sıyrılmağa, qutsallığından yıxılmağa, dünyanın quruca materiyası olmağa, şam kimi öləziməyə, diridiri vağamlaşmağa, dilinin gödəkliyində, sözünün eşidilməzliyində, başının aşağılığında, varlığının sayılmazlığında, əldən-ələ, küncdən-bucağa ötürülməyində, dünyagirincliyinin vurnuxmalarında, dolaşıq yönsüzlüyündə qalmağa məhkum olmaq deməkdir. Dünya meşəsində çaqqal kimi yox, gərək Şir kimi yaşayasan.

Tarix bu həqiqəti də təsdiqləyir ki, Osmanlı Türkiyəsindən başqa bütün türk məmləkətlərinin Rusiya İmperiyasına qatıldığı çağın ilk yarım əsrindən sonra - XIX yüzilliyin ortalarından XX əsrin əvvəllərinədək türk sivilizasiyası ərənlərinin - Mirzə Fətəli Axundzadə, Cəmaləddin Əfqani, Əlibəy Hüseynzadə, İsmayıl bəy Qaspıralı, Ziya Göyalpın... böyük uzaqgörənliyi ilə ərsəyə gəlmiş Türkçülük nəinki öz vaxtının formalaşmaqda olan nəhəng ideologiyalarından, həm də bu gün dünyanın qlobal tendensiyalarından biri kimi böyük

əhəmiyyətə malikdir. Dünya, xüsusilə rus imperializminin “pantürkizm”, “panturanizm”, “panislamizm” kimi damğalayıb gözdən salmaq istədiyi Türkçülük türk dövlətlərinin mənafeyinə qarşı yönəlmiş ideoloji qəsdləri alt-üst edə bilən yeganə bütövləyici ideya təməlçiliyidir. Slavyan politoloqları son zamanlar Türkçülüyə qarşı amansız həmlələr edir, qurduqları nəzəri dünya modelində türk sivilizasiyasını əhəmiyyətsizlik dərəcəsinə endirməyə, türk dünyasına Avrasiya məkanında miskin bir yer və rol ayıraraq onu yalnız təsir dairəsinə alınmış panoramda modelləşdirməyə can atırlar. Onların bütöv bir güruhu, xüsusilə A.S.Panarin və ukraynalı V.A.Derqaçev türk sivilizasiyasının Avrasiyada liderə çevrilmək şansını slavyan dünyasının çöküşü kimi perspektivləşdirərək, türk ruhunun oyanmasından özünküləri və özgələri xoflandırır, təşvişə salırlar. Ancaq bu öncülləşməni türksoylu ölkələrdə turançı radikalizmin baş verməsi kimi yozmaq həqiqəti saxtalaşdırmaqdır və indi dünyanı buna inandırmaq mümkün deyil. Bu gün dünya türk dövlətləri realist və konstruktiv siyasət yeridirlər və özlərinin milli və ümumtürk siyasətini dünyanın siyasi proseslərinə uyğun olaraq qurmağı bacarırlar.

Tarixin görkünü yada salaq: Şərqə doğru ardıarası kəsilməyən Səlib (Xaç) yürüşləri dəfə-dəfə türk sivilizasiyasının sipərinə dəyib qayıdır, sınıb həsləyir, yenidən həmlə edir, yenidən ovulub tökülürdü... Türk sivilizasiyası Avropa basqılarına Şərqin minillik sipəri oldu. İslam mədəniyyəti Türk qılıncının himayəsində, qoruğunda çiçəklədi, sərt zamanların sırsıralı küləklərindən qorundu. Avropa Səlib yürüşlərinin qarşısında ölməz türk ərənliyi dayanmasaydı, Ulu Şərq planetin qərb yarımkürəsinin - Şimali və Cənubi Amerikanın, onların aborigenlərinin aqibətinə düçar olardı, ümumiyyətlə Avrasiyanın tarixi taleyi başqa cür yazılardı. Türk bu tarixi Tanrının istəyincə yazdı. Türk çoxəsrlik dünya fatehliyinə də yalnız böyük hərbi qüvvəsi ilə deyil, həm də ulu türk mədəniyyəti, barışdırıcı, tənzimləyici sülhsevər siyasəti, inamdoğurucu mənəviyyatı ilə yetmişdi... (Qadınlar həssas olur, ol səbəbdən də dünyanın bütün qadınları türk ərənlərinin vurğunudurlar...)



Bu gün də əslində içamacı slavyançılıqdan ibarət olan avrasiyaçılığa və digər qlobal geopolitik ideologiyalara yalnız qüdrətli, yenilməz Türkçülüklə sinə gərmək olar.

Ümumtürk kökləri üzərində təməllənən Türkçülük - millətçilik ideologiyası deyil, mahiyyəti etibarı ilə heç bir dövlətin və xalqın əleyhinə yönəlməmiş, qloballaşmanın məntiqinə uyğun olaraq türk dövlətlərinin müstəqilliyini və bu müstəqillik təminatı ilə strateji birliyini və inkişafını nəzərdə tutan ideologiya və mədəniyyət tendensiyasıdır.

Dünyada gedən geopolitik prosesləri izləyən və onları avrasiyaçılıq prizmasından təhlil edən Ukrayna politoloqu V.A.Derqaçev Avrasiya regionunda türk sivilizasiyasının güclənib önəm qazanmasının, slavyan dünyasının çoxəsrlik cəhdinin - İstanbulu fəth etmək kimi artıq müasir dünya siyasətinin reallığına tuş gəlməyən niyyətlərinin boşa çıxmasının acı etirafı ilə yazır: “Əlvida, Konstantinopol!” [70, s. 254-260].

Gərək biz də bizi yenidən təsir dairəsinə salmağa çalışan həndəvərimizdəki qüvvələrə birdəfəlik dedizdirək: Əlvida, Azərbaycan! Əlvida, Türk Yurdu! Bizimlə bərabərhüquqlu şəkildə əməkdaşlıq etmək istəyənlərə isə deyək: Gəlin, dost olaq!

## Dünya türк milli dövlətlərinin vahid siyasi-кültür strategiyası üzərinə

Üçüncü minilliyə dünya türк dövlətləri vahid siyasət və mədəniyyət strategiyası üzrə hərəкət etməк və bu tendensiyanı uğur və qətiyyətlə davam etdirməк zərurəti ilə daxil olurlar. Bu zərurəti başladığımız minilliyin son əsrinin əvvəllərində - bəşəriyyətin yeni dövr tarixində ilк dəfə beynəlxalq siyasət конteкstinə gətirən Mustafa Kamal Atatürк olmuşdur: "Biz bu gün Sovetlər Birliyi ilə dostuq, əməкdaşıq. Amma heç zaman unuda bilməriк кi, orada bizim qan, dil, mədəniyyət qardaşlarımız yaşayır. Və Sovetlər Birliyi bir imperiyadır. Bütün imperiyalar кimi o da dağılacaqdır. Biz hazır olmalıyıq кi, gələcəкdə öz qardaşlarımıza кöməк edə biləк". XX əsrin son on illiyində Mustafa Kamal Atatürкün böyüк uzaqgörənliкlə söylədiyi fiкirləri tarix həqiqətə çevirdi.

Türк dünyasının birliyi ideyası, dünya türк milli dövlətlərinin vahid siyasi- кültür strategiyası коnsepsiyası bu gün xüsusilə Türкiyədə və digər qardaş türк respubliкalarında həm siyasi haкimiyyət, həm də ictimai- humanitar səviyyələrdə özünü göstərməкdədir. Təbii кi, böyüк və müstəqil dövlətçiliк təcrübəsi olan, dünya türкlüyünün ana vətəni, bu ideologiyanı ən çətin dövrlərdə belə qoruyub inкişaf etdirən Türкiyə Cümhuriyyətində həmin ideya və коnsepsiya daha möhкəm təməllərə və özünügerçəкləşdirmə gücünə maliкdir. Bu siyasət Türкiyədə müasir dünya reallıqlarına uyğun olaraq öz ölçüsündə, laкin ardıcıl və sistemli şəкildə aparılır. Hazırda Türкiyə və Azərbaycan bu həyati əhəmiyyət daşıyan məsələdə tam yeкdildir. Bir çox iqtisadi, siyasi, mədəni layihələrin həyata кeçirilməsi yalnız hər iкi dövlətin həmin strategiya əsasında ardıcıl səy göstərməsi nəticəsində mümкün olmuşdur. Ümumiyyətlə, türк dünyasının bütövlüyü, onun özünü vahid sivilizasiya orqaniкasında dərк etməsi - Türкiyə-Azərbaycan münasibətlərinin səviyyəsindən, bu səviyyənin daim yüкsəldilməsindən əhəmiyyətli dərəcədə asılıdır. Türкiyə və Azərbaycanın səsinə digər qardaş türк respubliкalarından hay verildiкcə dünya türк dövlətlərinin birliyi öz sarsılmaz mövqeyini daha əsaslı şəкildə nümayiş etdirə biləcəкdir. Prof. Dr.Mustafa Erкalın "Qloballaşma, кimliк və türк dünyası" məqaləsində göstərdiyi кimi, "türк dünyasının ortaq кültür mirası" onun yenidən və daha güclü çağdaş təməllərdə birliк durumuna gəlməsinin ən başlıca faкtorudur [46, s. 18-26].

Altay imperiyasından Osmanlı imperiyasına qədər böyüк türкlüyün dünya tarixindəкi əzəmətli həyatı, möhtəşəm mədəniyyəti, ümumdünya proseslərinə yön verməsi - türк sivilizasiyasının etnoкulturoloji-etnosiyasi potensiyasının tüкənməzliyinin göstəricisidir. Tarixi inкişaf prosesində türкlər qədər intensivliкlə dünya mədəniyyətini özünə transformasiya edən və özündən transformasiya edən iкinci bir superetnos (özündən etnoslar törədən superetnos!) nişan verməк bəlкə də heç mümкün deyil. Etnogenezisi, mifogenezisi, кosmogenezisi, sosiogenezisi və teogenezisi mədəniyyət struкturunda bütöv və orqaniк olan türкün özgürlüyü ilə yanaşı digər xalqların mədəniyyətinə bu qədər açıqlığı onun tarixi həyatının xaraкterini müəyyən etmişdir кi, milliliyin və ümumbəşəriliyin vəhdətindən ibarət olan bu fenomenal комpleкs bu gün də, deməк olar, dəyişməz özəlliyində müasir türк milləti-

nin varlığında aydınca görsənir. Türк sivilizasiyası məhz bu кompleкsinə görə müasir dünya inкişafının aparıcı tendensiyalarında özünü tam dəyərincə ifadə etməyə haqlı və borcludur. Türк sivilizasiyası mədəniyyət yaradıcılığı potensiyasından insan artımı, ehtiyatları potensiyasına, dünya təsərrüfat sistemində həm təbii sərvətləri, həm fəaliyyət potensiyasına qədər böyüк imкanların mənbəyidir. Türк sivilizasiyası Şərq və Qərb geopolitiк - sivilizasiya bloкlarının tarixən və bu gün təmasını və кontaкtını yaradan, dünyanın siyasi nizamına tarazlayıcı effeкt verən enerji mənbəyi, qaynaq nöqtəsidir. Professor Nizami Cəfərov "Qədim türк ədəbiyyatı", "Genezisdən tipologiyaya", "Türк dünyası: xaos və кosmos" [21; 13; 12] кitablarında türк sivilizasiyasını dünyanın tarixi inкişafı prosesləri, ümumbəşəri dəyərlərin sistemləşməsi, unifiкasiyalaşması кonteкstində təhlilə alır, onun ən həssas nöqtələrini qabardıb buradan hansı tarixi əhəmiyyətə maliк tendensiyaların törənişini izləyir, tarixi proseslərin dinamiкasında mədəniyyətyaradıcı amillərin tipologiyasını müəyyən edir, etniк, dil, mədəniyyət proseslərində motivləşmə, funкsionallaşma məqamlarını tapıb, onların hansı qanunauyğunluqlar əsasında struкtur bütövlüyə çevrilməsini (və yaxud dağılıb itməsini) aydınlaşdırır. Məsələn, aşağıdaкı təhlildə biz türк dünyagörüşü transformasiyasının çox maraqlı bir prosesinə, bu prosesdən nələrin törədiyinə və müəyyən sapıntılara şahid oluruq: "Türкlərin özünəməxsus zəngin mifologiyaları, həmin mifologiya əsasında formalaşmış müкəmməl dini dünyagörüşləri (tanrıçılıq кi, sonradan onun da islama transformasiyasının qanunauyğunluqları açılır - R.U.) olmuşdur кi, qədim türк ədəbiyyatı ideya- estetiк enerjisini məhz buradan götürmüşdür. Bununla belə qədim türк ədəbiyyatı onu yaradan xalqın, etniк- mədəni sistemin xaraкterinə



uyğun olaraq dünyaya açıq bir ədəbiyyatdır: eramızdan əvvəl I minilliyin ortalarından eramızın I minilliyinin sonu II minillyinin əvvəllərinədəк türкlərin yaşadığı geniş coğrafiyada baş vermiş ictimai- siyasi hadisələr onların ədəbiiyatında özünün кifayət qədər dərin izlərini qoymuş, eyni zamanda dünyanın müxtəlif dini dünyagörüşlərinin, ideologiyalarının təsiri ilə yaranmış əsərlər türкcəyə tərcümə edilərəк qədim türкlərin ədəbiyyatını zənginləşdirmiş, dünyanın ən beynəlmiləl, ən ümumbəşəri ədəbiyyatlarından biri səviyyəsinə qaldırmışdır...

Ümumiyyətlə, qədim türк ədəbiyyatı ideya- estetiк, ifadə- janr etibarilə dünyanın ən müкəmməl ədəbiyyatlarından biri olsa da, layiq olduğu səviyyədə araşdırılıb nəşr edilmədiyindən onun barəsində nəinкi dünyada, həmin ədəbiyyatın bilavasitə varisi olan türк dünyasında da lazımi genişliкdə təsəvvür yaradılmamışdır; halbuкi türк ədəbiyyatının tarixində xüsusi dövr olan (və türкlərin ümumi mədəni- mənəvi кeçmişini əкs etdirən) qədim türк ədəbiyyatını bu və ya digər dərəcədə bütöv bir şəкildə təqdim etməк yalnız elmi deyil, ümumən ideoloji- mənəvi bir ehtiyacdır. Məhz bu ehtiyacın tələb olunan səviyyədə ödənilməməsinin nəticəsidir кi, istər orta əsrlərdə, istərsə də yeni dövrdə (elə müasir dövrdə də) türк intelleкtualının mənəvi dünyası bir sıra hallarda qeyri- harmoniк ideyaların dağıdıcı təsirinə, düşüncə, mədəniyyət eкleкtiкasına məruz qalmışdır" [21, s. 10- 12]. Tarixi bifurкasiyanın başqa nəticələri: "Türк tarixi- кulturoloji regionlarının XI- XII əsrlərdən sonraкı taleyi müxtəlif olmuşdur: Sibir "qədim dünya"da qalır və türк mədəniyyətləri üçün ən "tarixi" potensial кimi mövcudluğunu davam etdirir; Mərкəzi Asiya yerdə qalan regionları daimi olaraq mədəni- ədəbi "ideyalar"la təmin edir - həmin region öz etniк- кulturoloji zənginliyi ilə

bu gün də Ural- Volqaboyu, xüsusilə Qafqaz- Kiçik Asiya üçün həm nümunə, həm də Sibirə açardır; Ural- Volqaboyu və Qafqaz- Kiçik Asiya regionları yeni dövrdə "avropalaşmaq" meylinin güclü təzyiqi altında olmuş, ona görə də genezisi ilə əlaqəsini faktiki olaraq itirmişdir; ən böyük faciə isə Şərqi Avropa regionunun başına gəlmişdir - o, demək olar ki, slavyan təsiri altında məhv edilmişdir.

Müstəqil türk ədəbiyyatlarının təşəkkülü tədricən gedir, regional proseslərin intensivləşməsi ilə avtonomluq güclənir, bununla belə həmin müstəqilləşmə hərəkatı da epos təfəkkürünün çevikləşməsi ilə müşayiət olunur və nəticə etibarilə, milli türk ədəbiyyatları qədim türk eposundan törəyən və ona istinad edən "regional" epos təfəkkürünə əsaslanır - bu, XVII-XVIII əsrlər Azərbaycan, türk, türkmən intibahları üçün şərt olur" [13, s. 7- 8]. Türk- İslam kontaktı hansı qığılcımlar qopardı?- "İslam dininin türk torpaqlarında yayılması ona görə ağır gedir ki, türk təfəkkürü onun qarşısına məhz mükəmməl idrak sistemi ilə çıxmışdı - islam fəlsəfəsi boşluğa düşmürdü və nə qədər müasir, perspektivli olsa da (çünki ümumdünya təfəkkürünün tarixi məcmusu kimi meydana çıxmışdı - ümumdunya prosesini hazırlayırdı), türk təfəkkürü onu təbii olaraq mənimsədi. Və özü də, şübhəsiz, tarixə qədərki mifoloji potensiyası əsasında mənimsədi. Şərqdə müxtəlif xalqlar tərəfindən qəbul olunması "başa çatdıqca", sufi ideyalar da təşəkkül tapmağa başladı və əslində sufilik ərəb, fars və türk mifologiyaları arasındakı fərqdən yarandı- hər mifologiyaya münasibətdə isə fərqlərin müxtəlifliyi sufiliyin ümumi (tipoloji) cəhətləri ilə yanaşı, xüsusi (etnik) cəhətlərini də faktlaşdırırdı". Dünya mədəniyyətinə çox böyük töhfələr vermiş, onun ən dərin ilahi qatlarını açmış, ən müxtəlif sivilizasiyaların, fəlsəfi-etik təlimlərin kvintessensiyasını özündə toplayaraq (və özündən yayaraq) ruhani- mənəvi mədəniyyətin zirvəsinə yüksəlmiş, incəsənətin sinirlərinə yeriyərək daşdan səsə, hərəkətdən rəngə qədər sənətin bütün vasitələri ilə özünü ifadə etmiş sufilik ən çox türk ərən mənəviyyatının ən doğma əlaməti, ən kamil təzahürü olmuşdur. Sufiliyin fəlsəfəsi və praktikasının törətdiyi "anlayışlar, onların bir- birinə münasibəti bütöv bir sistem kimi tədricən Şərq (xüsusi şəkildə türk) poeziyasının bədii strukturunu təşkil etməyə başlamışdır" [13, s. 19-20, 21]. Şərqin üç böyük dilində (ərəb, fars, türk) mədəniyyət yetişdirən, Şərqin bütün mütərəqqi kültür tendensiyalarını (hətta Buddizm və Xristianlığın) özündə birləşdirən Türkün öz hərbi- siyasi və mədəni-mənəvi qüdrəti ilə Avrasiyada dominant sivilizasiya yaratması tamamilə təbii idi. Türk mənəviyyatında İmperatorluqla Sufilik bir nöqtədən qidalanırdı. Dünya fatehliyi, dünya cahangirliyi dünyadan "uzaqlaşma" sufiliyindən qaynaqlanırdı! Nə qədər paradoksal olsa da, Mövlana Cəlaləddin Rumi, Nəsimi türk imperatorluq hərəkatının ideoloqları idilər. Fatehliyə enerjini Sufilik verirdi. Fatehlə Sufi ali- ilahi məqama ayrı vasitələrlə yüksələn qardaşlardı. Buna görə də türk imperatorluqları epoxasında Qərb imperializminə məxsus istismar rejimi, məğlub etnos və mədəniyyətlərin kökünü kəsmək strategiyası, demək olar ki, olmamışdır. Osmanlı, Səfəvi imperiyalarından qopan bütün xalqlar öz tarixi- mədəni həyatını normal şəkildə davam etdirə bilmişlər [130, s. 392- 402]. Türk imperatorluq hərəkatının köklü ziddiyyətli məqamları da olmuşdur ki, bunlar da toparlanaraq onun tənəzzülünə gətirib çıxarmışdır.

Türk tarixindəki etnokulturoloji diferensiasiya prosesləri müəyyən sapıntı və itkilərlə müşayiət olunsa da, əsasən, öz ümumtürk köklərindən üzülməyən,

ancaq getdikcə spesifikləşən türk milli mədəniyyətlərinin yaranması ilə başa çatır. Həmin ümumtürk kökləri o qədər zəngin bir irsdir ki, müasir türk milli mədəniyyətləri məhz onun əsasında ortaq dəyərlərə sahibdirlər. Və həmin varislik xəttilə sonradan nə əldə ediblərsə, bu da onların ümumi sərvətidir. Qloballaşma epoxasının inteqrasiya proseslərində yenidən həmin tarixi və müasir mədəniyyət sərvətlərini paylaşmaq, mübadilə etmək ehtiyacı ilə onlar bir- birinə daha yaxından bağlanırlar. Kökü bir olan ağacın budaqları da bir- birinə sarmaşır, yarpaqları da bir- biri ilə səsləşir, çiçəkləri də bir- birini tozlandırır. Sivilizasiyalararası dialoqda türksoyluların bir- biri ilə ünsiyyəti, onların, məsələn, ingilis və ya yaponla ünsiyyətindən tamam ayrı- ayrı effektdədir. Ortaq dəyərlər əsasında inteqrasiya daha dərin məzmun, keyfiyyət və təbiiliyə malikdir. Onun emosional və rasional qatları daha sarsılmazdır. Müasir dövrümüzdə belə sarsılmaz təmələ malik olan ən yetkin sivilizasiyalar arasında çağdaş türk sivilizasiyası ən seçkin dəyərlər kompleksinə sahibdir. O həm türk milli mədəniyyətləri, həm də qeyri- türk mədəniyyətləri arasında güclü sintezləşdirmə potensiyası ilə çıxış etmək qüdrətində, missiyasındadır.

Türk sivilizasiyası - dünya tarixində, epizod deyil, hadisədir, özü də bəşəriyyətin planetin şərq yarımkürəsindəki həyatının dinamikasını müəyyən edən hadisələrdən biri. Türk həmişə də güclü enerjisini və potensiyasını dövlət qurmaqdan mədəniyyət yaratmağa qədər, eposdan lirikaya, elmdən ilahiyyata qədər, şamançılıqdan astrologiya və astronomiyaya qədər, tərəkəməlikdən şəhərsalmaya, atçılıqdan gəmiçiliyə qədər, mistikadan rasionalizmə qədər...bütün sahə və cinahlarda yüksək məharət və incə dühə ilə bəlli edən atomik etnos olub. Çağımızın ən böyük hərəkatının - qloballaşmanın ilk düzgün nəzəri əsaslarını qoyanlardan biri də türk mənşəli Amerika alimi, filosof və kibernetiki Həsən Özbəkxandır. Qərbdə qlobal dünyadərkinin proqram layihələrini hazırlayan Həsən Özbəkxanın missiyası Şərq milli-demokratik hərəkatının əsasını qoyan Şeyx Cəmaləddin Əfqaninin tarixi ideyaları ilə varisliyində ümumdünya əhəmiyyəti qazanmış olur.



Dünyanın ən fundamental kültür komplekslərindən birinə malik olan çağdaş türk düşüncəsi ən qanunauyğun modeldə özünü qurmağı və işləməyi bacarır: türk milli mədəniyyəti - ümumtürk mədəniyyəti - dünya mədəniyyəti. Bu, müasir dünyanın da qəbul etdiyi sınanmış bir modeldir. Qərb mədəniyyəti (Avropa, Şimali Amerika milli mədəniyyətləri - Qərb - ümumavropa mədəniyyəti - dünya mədəniyyəti), Ərəb mədəniyyəti (ərəb milli mədəniyyətləri- ümumərəb mədəniyyəti- dünya mədəniyyəti) və s. məhz bu qanunauyğunluq əsasında qurulmuşdur. Dünya milli mədəniyyətlərinin universal - ümumbəşəri sivilizasiyada harmoniyalaşmasının ən təbii, ən məntiqi, ən perspektivli yolu budur. Çünki bu modeldə dünyanın qlobal inkişafı prosesində milli mədəniyyət və dövlətçiliyin yaşaması qarantiyası vardır.

Azərbaycan yazıçılarının son- XI qurultayında (17 may, 2004) iştirak və çıxış edən, türkdilli ədəbiyyatın dünya arenasına çıxması imkanlarını aktual bir problem kimi ortaya qoyan, əsərləri dünyanın 30 dilinə tərcümə olunmuş böyük türk yazarı Orxan Pamuk da çağdaş ümüumtürk mədəniyyətini dünya səviyyəsinə qalxacaq dərəcədə gəlişdirməyi türkdilli yazar və intellektualların ən vacib missiyası olduğunu nəzərə çatdırdı. Əlbəttə, bunun üçün çağdaş ümumtürk mədəniyyətinin yetərincə güclü irsi- mənəvi potensialı vardır. Artıq bu böyük potensialı sıza- sıza yox, bütün qüdrəti, enerjisi, miqyası ilə hərəkətə gətirməyin za-

manıdır.

Beləliklə, Azərbaycanın da ayrılmaz hissəsi olduğu türk sivilizasiyasının - bu sistem daxilində tarixi diferensiasiya və inteqrasiya proseslərini, türk milli dövlət və mədəniyyətlərinin seçkinləşməsini nəzərə alaraq - həmin tarixi proseslərin mahiyyəti haqqında başlıca qənaətləri aşağıdakı şəkildə ümumiləşdirə və türk sivilizasiyasının qloballaşma strategiyalarına uyğun inkişafı və özünümüəyyənləşdirməsinin əsas paradiqma və müddəalarını özəkləyə bilərik:

I. Türk soykökündən başlayan Azərbaycanın etnik tarixi Azərbaycan xalqının formalaşması tarixindən qədimdir. Təqribən min il ərzində - b.e.- nin I minilliyində türkləşməsinin ilk mərhələsini, II minilliyin birinci yarısında isə ikinci (həlledici) mərhələsini keçirən Azərbaycanın həm tarixən, həm də indi əsas əhalisi Azərbaycan türkləridir, burada tarixən formalaşıb bu günə gəlib çıxan mədəniyyətin, siyasi - sosial təsisatların yaradıcısı da Azərbaycan türkləridir. “Azərbaycanda yaşayan qeyri - türk mənşəli etnoslar, xalqlar yalnız Azərbaycan türkcəsi əsasında deyil, eyni zamanda (və bəlkə də daha çox) Azərbaycan türklərinin tarixi birləşdiricilik missiyası əsasında ünsiyyətə girib Azərbaycan xalqını, Azərbaycan cəmiyyətini təşkil edirlər” [20].

II. Ümumtürk dilinin tarixi diferensiasiyası nəticəsində təşəkkül tapıb inkişaf edən Azərbaycan türkcəsində dünyanın ən dəyərli şifahi və yazlı abidələri yaranmışdır ki, həm bunlarla, həm orta əsrlərdə - türk (oğuz) epoxasında meydana çıxan əsərlərlə, həm intibah, həm də yeni, çağdaş dövrün inciləri ilə azərbaycanlılar bəşər mədəniyyətinin ön sıralarında dayandıqlarını sübut etmişlər.

III. Təqribən 2500 il ərzində Azərbaycanda türklüyün etnik, mədəni, siyasi, sistem kimi möhkəmlənməsi həm də bu ərazidə dövlətçilik ənənələrinin yaranıb təkmilləşməsi ilə müşayiət olunmuş və bu proses müasir müstəqil demokratik Azərbaycan dövlətinin yaranması ilə nəticələnmişdir.

IV. Özünəməxsus tarixi kökləri olan, genetik təkamül prosesindən və təşəkkül mərhələlərindən keçərək yetişən azərbaycançılıq ideologiyası - artıq müasir Azərbaycan xalqının və dövlətinin milli ideologiyası olaraq qərarlaşmışdır.

V. Antik çağlardan müasir dövrümüzədək Azərbaycanda gedən etnokulturoloji, ictimai - siyasi proseslərin (xüsusilə davam etməkdə olan proseslərin) qohum humanitar elmlərin nəticələri əsasında, onların elmi - nəzəri ümumiləşdirilməsi şəklində öyrənilməsi və Azərbaycan haqqında mükəmməl elmi - nəzəri təsəvvürlər blokunun yaradılması - dünyaşünaslığın (World Study) tərkib hissəsinə çevrilməli olan azərbaycanşünaslığın başlıca vəzifələrindəndir.

VI. Azərbaycan politologiyası, kulturologiyası və azərbaycanşünaslığı müstəqil Azərbaycan dövlətçiliyinin maraqlarını təmsil və ehtiva edən Azərbaycan milli ideologiyasının vahid sisteminin yaradılması prosesini başa çatdırmalı (müasir dünya dinamikasına uyğun olaraq) və bu milli ideologiya Azərbaycan sosial-siyasi və humanitar elmlərinin əsasında dayanmalıdır.

VII. Azərbaycan, onun varlığı ideyası - dünyanın özü qədər əhəmiyyətlidir! Hər bir Azərbaycan vətəndaşı milli quruculuqda aydın şüurla, məqsədyönlü şəkildə fəal iştirak etməlidir. Bütün dünya azərbaycanlıları - planetin Azərbaycan Diasporu məhz bu İdeya Nüvəsində milli - fəlsəfi dünyagörüşlərindən iqtisadi maraqlarınacan sıx-sıx birləşmək və səfərbər olmaq imkanındadırlar. Bu İdeya Nüvəsindən dünya mədəniyyətinə və iqtisadiyyatına çox gen, perspektivli yollar açılır.

VIII. Azərbaycan dövlətinin xarici siyasət strategiyasında Azərbaycan- Türkiyə münasibətlərinin daim möhkəmləndirilməsi və digər ölkələrlə münasibətlərin məhz bu strategiya ilə uzlaşdırılaraq qurulması prioritetdir.

IX. Türkiyə-Azərbaycan münasibətlərinin tarixi inkişafının yeni, ən sıx müttəfiqlik mərhələsi yaşanılır. Bu münasibətlər kontekstində dünya ölkələri ilə əlaqələrin yeni modelləri özünü zəruriləşdirir.

X. Türkiyə və Azərbaycan atatürkçülüyü XX əsrin təcrübəsi üzərində XXI əsrin yeni elmi konsepsiyası - əvvəlki ideoloji sapıntılardan azad olmuş konsepsiyası ilə hərəkət etməlidir.

XI. Atatürkçülük böyük türk ideoloqları - İsmayıl bəy Qaspıralı, Ziya Göyalp, Əli bəy Hüseynzadə, Məmməd Əmin Rəsulzadə, Əhməd bəy Ağaoğlu, Zəki Vəlidi Toğan, Yusif Akçura və b-nın birgə səyi ilə təşəkkül tapan türkçülük ideologiyasının yekunu - topar sistemi olaraq ümumdüyna türkçülük hərəkatının nüvəsidir.

XII. Atatürkçülük - milli mütəşəkkillik yaratmaq, milli dövlət qurub inkişaf etdirmək, xalqı öz tarixindən, milli- mənəvi dəyərlərindən qoparmadan modernləşdirmək təcrübəsidir. Atatürk öz şəxsiyyətində, fəaliyyətində mənsub olduğu millətin ruhunu ifadə etdiyi üçün onun irsi təkcə keçmişin deyil, həm də gələcəyin sərvətidir.

XIII. Azərbaycanın müstəqil milli dövlət və mədəniyyət qurculuğunda Atatürkün siyasi praktikasından yaradıcı şəkildə bəhrələnməsi və bu praktikanın qardaş dövlətin - Azərbaycanın nümunəsində özünü doğrultması sübut edir ki, böyük Türk öndərlərinin yaratdığı siyasi sistem və ideologiyalar - türkçülük və azərbaycançılıq eyni tükənməz mənbədən - ulu ümumtürk dövlətçilik mədəniyyəti gələnəyindən qidalan-



mışdır.

XIV. Dünya türk milli dövlətlərinin birliyi ideyasının kökündə bu dövlətləri yaratmış türk xalqlarının etnogenetik təməli, ulu sivilizasiya qaynaqları, böyük dövlətçilik təcrübəsi və ənənəsi, bütün tarix boyu davam etmiş etnomədəni əlaqələri, tarixi diferensiasiya proseslərində itirmədikləri, qoruyub saxladıqları və daim inkişaf etdirdikləri ortaq dəyərləri dayanır. Bu elə bir möhkəm özüldür ki, tarixin ən amansız dövrlərində belə sarsılmamış, məqam düşdükcə bərkimiş, hazırda isə güclü energetik potensiyasını yenidən və daha məqsədyönlü şəkildə hərəkətə gətirmək qüdrətindədir. Müstəqil Türkiyə və Azərbaycan dövlətlərinin qurucuları bu tarixi missiyanı dərk edərək, həmin ideyanı həyata keçirməyin strategiyasını yaratmışlar. Artıq bu gün Türkiyə dövlət rəhbərlərinin, eyni zamanda digər türksoylu dövlət başçılarının ümumi səyi ilə həmin strategiyanın dünya reallıqlarına uyğun olaraq yeridilməsi mümkünləşir.

XV. Planetmiqyaslı qlobal inteqrasiya prosesləri dünya türk milli dövlətlərinin bir sistem olaraq həmin proseslərdə iştirak etməsini, müttəfiqliyin ən yüksək səviyyəsində öz bütövlüyünü və birliyini təzahür etdirməsini tarixi zərurətə çevirir. Yoxsa qloballaşma prosesinə türk sivilizasiyası öz orqanikasında deyil, yalnız elementlər qismində, konqlomerat şəklində, diffuziya halında sorula bilər. İnteqriləşmənin, sintezləşmənin bu stixiyasından qorunmaq, universal- qlobal sivilizasiya mühitində, planetin həyat rejiminin yeni məkan- situasiyasında yaşamaq və çiçəkləmək üçün türk sivilizasiyasının kifayət qədər güclü potensialı var.

XVI. "Mərkəzi Asiya türklüyünün Türkiyəyə, oradan da Qərbi Avropaya yolunun ən kəsəsi Azərbaycandan keçir" [20] - Azərbaycan öz tarixi- coğrafi

mövqeyinə görə elə məкanlaşıb кi, burada Şərq və Qərb mədəniyyətlərinin ən müxtəlif məzmunlu və кeyfiyyətli tendensiyaları кonsentrasiya olunub, ümumdünya türкçülüк hərəкatının əsas ideologiyaları burada doğularaq yayılıb. Bu mənada Azərbaycan - həm sırf milli mədəniyyətin, həm əlaqəli regional mədəniyyətlərin, həm ümumtürк mədəniyyətinin, həm dünya mədəniyyətlərinin qovuşduğu qlobal əhəmiyyətli geosivilizasiya məкanıdır. Buna görə də Azərbaycan ümumdünya türкçülüк hərəкatının mərкəzi və ya mərкəzlərindən bir olaraq öz tarixi funкsiyasından çıxış edir və etməlidir.

XVII. Türк milli dövlətləri və xalqları artıq əsası qoyulmuş vahid siyasi- кültür strategiyası ilə hərəкət edərəк, bu strategiyada öz mənafelərini uzlaşdırmağı bacarmalı və həmin кoordinasiya olunmuş strategiyasını müasir dünya inкişafının aparıcı tendensiyalarından birinə çevirməlidir. Türкün Böyüк olmağa həm yaşı, həm ağlı, həm gücü çatır. Sərvətli torpağı ayağının altında. Bərəкətinə hərəкət verən Allahı da başının üstündə.

XVIII. Türк dünyasının bütövlüyü hər bir türк dövlətinin müstəqilliyinin qorunmasının və möhкəmləndirilməsinin, öz milli mədəniyyətini inкişaf etdirməsinin başlıca şərtidir. Türк milli mədəniyyətlərinin harmoniyası - onların hər birinin özgürlüк кompleкsini yaşatması və ümumtürк mədəniyyətinə təbii sintez olunması ilə baş tutur.

XIX. Dünya türк milli dövlətlərinin birliyini aкtuallaşdıran - həm də onların qarşılaşdığı problemlərin beynəlxalq səviyyədə həll edilməsində bir- birinə yardımçı olmaları, dayaq durmalarıdır. Ümumdünya türк birliкləri ən yüкsəк, sözüкeçər, məqsədəyetər səviyyədə təşкilatlandırılmalıdır. Ümumdünya türкçülüк hərəкatının əsas məqsədlərindən biri- təкcə Azərbaycanın deyil, bütün türк dünyasının ən böyüк problemi olan Qarabağ məsələsini həll etməк olmalıdır. Qarabağ - adi problem deyil, bütün türк sivilizasiyasının beynəlxalq nüfuzu onun həllindən xeyli dərəcədə asılıdır.



XX. Türк dünyasının birliyi və onun vahid siyasi- кültür strategiyasından çıxış etməsi кonsepsiyası türк respubliкalarında bu və ya digər səviyyədə diqqət mərкəzindədir və işlənməкdədir. Yalnız bu кonsepsiyanın şərtləri daxilində, onun prinsiplərinə əməl etməкlə, bütün siyasi səyləri bir araya gətirib hamını qane edən düzgün müəyyənləşdirilmiş məqsədlərə tabe etməкlə türк dünyası bu sistemə daxil olan dövlətlərin öz müstəqilliкlərini qorumaq və möhкəmləndirməyə кöməк edən milli siyasəti ilə ümumbəşəri amaclara yönəli siyasətin harmoniyasını tapa və öz iradəsini ortaya qoyan, yeridən nüfuzlu qlobal gücə çevrilə bilər. Türк dünyası böyüк, güclü, seçкin bir sivilizasiya məкanı, yaradıcı, mütərəqqi ruhlu bir siyasi sistem кimi öz orqaniкası ilə planetin qlobal inкişafı perspeкtivində aparıcı, yönəldici qüvvəyə çevrilə bilər.

# Qaynaqlar

1. "Azərbaycan" qəzeti, 1920, 1 nişan, № 67.
2. Azərbaycan tarixi üzrə qaynaqlar, Bakı, 1989.
3. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında diplomatik əlaqələrin qurulmasının 10 illiyinə həsr olunmuş elmi- praktiki konfrans. Bakı, AME nəş., 2002.
4. "Azərbaycanda Atatürk Mərkəzinin Bülleteni", Bakı, AzAtaM, 2002, yaz.
5. Azərbaycan EA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 1987, № 2.
6. Azərbaycan EA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 1989, № 3.
7. Aslanova R. Qloballaşma və mədəni müxtəliflik, Bakı, Elm, 2004.
8. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə, Bakı, 1989.
9. Cəfərov N. Azərbaycan türkcəsinin milliləşməsi tarixi, Bakı, Azərbaycan Dövlət kitab palatası, 1995.
10. Cəfərov N . Bəxtiyar Vahabzadə, Bakı, "Azərbaycan" nəş., 1996.
11. Cəfərov N. "Koroğlu"nun poetikası, Bakı, BDU nəş., 1997.
12. Cəfərov N. Türk dünyası: xaos və kosmos, Bakı, BDU nəş., 1998.
13. Cəfərov N . Genezisdən tipologiyaya, Bakı, BDU nəş., 1999.
14. Cəfərov N. Eposdan Kitaba, Bakı, "Maarif" nəş., 1999.
15. Cəfərov N. Xanım hey! ("Dədə Qorqud" eposunda müraciətlər), Bakı, "Maarif" nəş., 1999.
16. Cəfərov N. "Kitabi-Dədə Qorqud"da islama keçidin poetikası, Bakı, "Elm"- Yeni Nəşrlər Evi, 1999.
17. Cəfərov N. Azərbaycan mədəniyyəti məsələləri, Bakı, BDU nəş., 2000.
18. Cəfərov N. Azərbaycanşünaslıq məsələləri, Bakı, BDU nəş., 2001.
19. Cəfərov N. Azərbaycanlılar: etnokulturoloji birliyin siyasi- ideoloji üfüqləri, Bakı, Yeni Nəşrlər Evi, 2001.
20. Cəfərov N. Azərbaycanşünaslığa giriş, Bakı, AzAtaM,



2002.
21. Cəfərov N. Qədim türk ədəbiyyatı, Bakı, AzAtaM, 2004.
22. Cəfərov N. Klassiklərdən müasirlərə, Bakı, "Çaşıoğlu" nəş., 2004.
23. Əhmədli N. Mustafa Kamal Atatürk, Bakı, 2002.
24. Əskər R. Qutadğu biliq, Bakı, Elm, 2003.
25. Göyalp Z. Türkçülüyün əsasları, Bakı, Maarif, 1991.
26. Xəlilov S. Şərq və Qərb: ümumbəşəri ideala doğru, Bakı, Azərbaycan Universiteti, 2004.
27. Qarayev Y. XX əsr: qlobal sivilizasiya və Şərq dəyərləri, Dirçəliş XXI əsr, 2001, № 1-2.
28. Qarayev Y. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər, Bakı, Elm, 2002.
29. Mehdiyev R. XXI əsrdə milli dövlətçilik, Bakı, 2003.
30. Məmmədova P. Atatürkün dil siyasəti, Bakı, AzAtaM, 2003.
31. Musayev M.R., Mirzəyev M.H. Türk dünyası, Bakı, Müəllim, 2004.
32. Mustafayev R. İnkişafın Azərbaycan yolu, Bakı, 1993.
33. Mustafayev R. Azərbaycan və yeni dünya, Bakı, 1993.
34. Mustafayev R. Fikir azaddır, Bakı, 2000.
35. Oğuznamə, Bakı, Yazıçı, 1987.
36. Rəcəbli Ə. Ulu türklər, Bakı, Nurlan, 2003.
37. Rüstəmov Y. Şərq-Qərb: sivilizasiyaların dialoqu qaçılmazdır //A.İmanquliyeva 65. Şərq və Qərb: ortaq mənəvi dəyərlər, elmi-mədəni əlaqələr, Bakı, Nurlan, 2004.
38. Sümər F. Oğuzlar, Bakı, Yazıçı, 1992.
39. Şükürov A.Qloballaşma: müasir dövr və Azərbaycan. "Qloballaşma və Azərbaycan" Respublika elmi- praktiki konfransı, Bakı, Adiloğlu, 2002.
40. Tymieniecka A.T. Həyatın fenomenologiyası oksidental və Şərq-İslam fəlsəfəsi arasında metafizik dialoq üçün əsas kimi //A.İmanquliyeva 65. Şərq və Qərb: ortaq mənəvi dəyərlər, elmi-mədəni əlaqələr, Bakı, Nurlan, 2004.
41. Ulusel R. Ulutürklük. Qloballaşma çağında milli özünüdərketmə və geostrategiya, Bakı, AME nəş., AzAtaM, 2002.
42. Ulusel R. Mədəniyyətlərin İpək Yolu. Azərbaycandan dünya məkanına, Bakı, Təhsil nəş., 2003.
43. Ulusel R. Qloballaşma prosesləri və Azərbaycan. Dirçəliş XXI əsr, 2003, №: 67- 68, sentyabr-oktyabr.
44. Ulusel R.Küreselleşme Sürecinde ABD- Türkiye- Azer-

baycan Ortaklığı ve Buna Rusiya'dakı Felsefi- Politoloji Yaklaşım. "2023" dergisi, 2003, sayı:32.
44a. Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında, Bakı, 1974.
45. Atatürkün Söylev və Demeçleri, I-V, Türk İnkilap Tarihi Enstitüsü Yayını, 1945-1972.
46. Erkal M. Küreselleşme, Kimlik ve Türk dünyası. "Azərbaycanda Atatürk Mərkəzinin Bülleteni", Bakı, AzAtaM, 2003, yay.
47. Genel Türk Tarihi, 10 ciltde, Ankara, Yeni Türkiye Yayınları, 2002.
48. Meric C. Bütün Eserleri, 2. Bu Ülke, İstanbul, 1996.
49. Öztuna Y. Osmanlı Devleti Tarihi, 2 ciltde, Ankara, Türk Tarihi Kurumu Basımevi, 1998.
50. Şimşir B. Türkiye ilə Azerbaycan Arasında Diplomatik İlişkiler Tarihinden. "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında diplomatik əlaqələrin qurulmasının 10 illiyinə həsr olunmuş elmi- praktiki konfrans", Bakı, AME nəş., 2002.
51. Türk Düşünce Tarihi, Ankara, AKM Bakanlığı Yayınları, 2001.
52. Türk Tarihinin Ana Hatları, Mehtal Kısmı, 1931.
53. Türkler, 20 ciltde, Ankara, Yeni Türkiye Yayınları, 2002.
54. Алиев И.О некоторых вопросах этнической истории Азербайджанского народа, Баку, Нурлан, 2002.
55. Алиев И. Племена и племенные группы в Атропатене // Вестник древней истории, 1987, № 3.
56. Асадов Ф.М. Арабские источники о тюрках в раннее средневековье, Баку, Элм, 1993.
57. Бартольд В.В. Место прикаспийских областей в истории мусульманского мира // Арабески истории, вып. 5-6, Каспийский транзит, в 2-х т., М., Танаис, 1996.
58. Бек У. Что такое глобализация, М., 2001.
59. Бжезинский З. Великая шахматная доска, М., 2002.
60. Василенко И.А. Политическая глобалистика, М., 2000.
61. Вернадский В.В. Размышление натуралиста. Научная мысль как планетное явление, М., Наука, 1977.
62. Вопросы философии, 1989, № 4.
63. Вопросы философии, 1989, № 5.
64. Вопросы философии, 1990, № 1.
65. Геллнер Э. Нации и национализм // Вопросы философии, 1989, № 7.



66. Гердер И.Г. Идеи к философии истории человечества, М., Наука, 1977.
67. Гумилев Л.Н. Хунны в Азии и Европе // Вопросы истории, 1989, № 7.
68. Гумилев Л.Н. Тысячилегие вокруг Каспия, Баку, Азернешр, 1990.
69. Дарабади П. Геоистория Каспийского региона и геополитика современности, Баку, Элм, 2002.
70. Дергачев Б.А. Геополитика, Киев, 2000.
71. Древние цивилизации, М., Мысль, 1989.
72. Иноземцев В.Л. Расколотая цивилизация, М., Наука, 1999.
73. Исмаилов Э., Кенгерли З. Кафказ в глобализирующемся мире: новая модель интеграции // Центральная Азия и Кафказ, 2003, № 2.
74. Киреев Н. Турция: поиски национальной стратегии евразийского сотрудничества // Центральная Азия и Кафказ, 2002, № 1.
75. Коллингвуд Р.Дж. Идея истории. Автобиография, М., Наука, 1980.
76. Кулизаде З. Хуруфизм и его представители в Азербайджане, Баку, 1970.
77. Лисичкин В.А., Шелепин Л.А. Глобальная империя зла, М., 2001.
78. Маккуин Дж.Г. Хетты и его современники в Малой Азии, М., Наука, 1983.
79. Малявин В.В. Китайская цивилизация, М., АСТ, 2001.
80. Мартин Г.П., Шуманн Х. Западня глобализации, М., 2001.
81. Маркс К., Энгельс Ф. Сочинения, т. 9.
82. Мехти Н. Средневековая мусульманская культура: эстетика проявленного и философия сокрытого, Баку, Канун, 1996.
83. Мец А. Мусульманский Ренессанс, М., 1966.
84. Моисеев Н.Н. Судьбы цивилизации. Путь разума, М., 1998.
85. Мусульманский мир. 950-1150, М., 1981.
86. Неклесса А.И. Трансмутация истории // Вопросы философии, 2001, № 3.
87. Ницше Ф. Сочинения, в 2-х т., М., Мысль, 1990.
88. Новосельцев. Христианство, ислам и иудаизм в странах Восточной Азии и Кафказе в средние века // Вопросы истории, 1989, № 9.
89. Историки античности, в 2-х т., М., Правда, 1989.
90. Ортега и-Гассет. Восстание масс // Вопросы философии, 1989, № 4.
91. Открытие Индии. Философские и эстетические воззрения в Индии XX века, М., 1987.
92. Панарин А.С. Искушение глобализмом, М., 2000.

93. Панарин А.С. Глобальное политическое прогнозирование, М., 2000.
94. Практика глобализации: игры и правила новой эпохи, М., 2000.
95. Рассел Б. История западной философии, Новосибирск, 2001.
96. Ровинский Р.Е. Самоорганизация как фактор направленного развития // Вопросы философии, 2002, № 5.
97. Русская цивилизация, М., Контакт РЛ, 2000.
98. Скворцев Л.В. Диалог или столкновение цивилизаций? / Глобализация. Конфликт или диалог цивилизаций? М., 2002.
99. Тойнби А.Дж. Постижение истории, М., Айрис Пресс, 2002.
100. Тоффлер Э. Третья волна, М., АСТ, 2002.
101. Тютчев Ф.И. Стихотворения, М., 1988.
102. Удовик С.Л. Глобализация: семиотические подходы, М., 2002.
103. Уткин А.И. Глобализация: процесс и осмысление, М., Логос, 2001.
104. Франкфорт Г., Франкфорт Г.А., Уилсон Дж., Якобсен Т.В. В преддверии философии, М., Наука, 1984.
105. Шарден П.Т. Феномен человека, М., 1987.
106. Шохин В.К. Становление и развитие сравнительной философии как научной дисциплины: индийский вектор /Сравнительная философия, М., 2000.
107. Шпенглер О. Закат Европы, в 2-х т., М., Мысль, 1998.
108. Щукин И. Исламский синдром: мечта о Великом Туране // Независимая газета, 16 июня 2004 г.
109. Элиас Н. О процессе цивилизации, в 2-х т., М.-СПБ., 2001.
110. Яковец Ю.В. История цивилизации, М., Владос, 1997.
111. Яковец Ю.В. Глобализация и взаимодействие цивилизаций, М., Экономика, 2001.
112. Ясперс К. Смысль и назначение истории, М., Политиздат, 1991.
113. A Short History of Turkish - Islamic States, Ankara, 1994.
114. Ancient Civilizations of East and West, M., Progress Publisher, 1988.
115. Abul-Fadl M. Islam and Middle East. Monograph No.2, Herndon, Virginia, USA, 1990.
116. Al-Alwani T.J. The Islamization of Knowledge: Yesterday and Today, London, 1995.
117. Braudel F. History of Civilizations, N.Y., 1994.
118. Esposito J.L. Islam. The Straight Path, N.Y., 1990.



119. Gibbon E. The Decline and Fall of the Roman Empire, N.Y., 1943.
120. Gunay R.Sinan The Architect and His Works, Istanbul, 1998.
121. Henze P.B. Uzbekistan viewed from Fergana / Studies on the Turkic World, Istanbul, DA, 2002.
122. Huntington S.P. The Clash of Civilizations and the Remaking of World Order, USA, N. Y., 1997.
123. Lee H.S. Islam in East Asia / Studies on the Turkic World, Istanbul, DA, 2002.
124. Lewis B. What Went Wrong? Western Impact and Middle Eastern Response, Oxford University Press, 2002.
125. Ulken H.Z., Sharif M.M., Gadir C.A. Influence of Moslim Thought / A History of Moslim Philosophy, vol. 2, Wiesbaden, 1966.
126. The Great Ottoman - Turkish Civilization, 1-4 volumes, Ankara, 2000.
127. Together Towards the New Century, Baku, 1998.
128. Torbakov I. Russia - Turkey Interacton in the Caucasus and Central Asia: Rivalry, Cooperation or Both? Materials of the International Conference on a Theme “Caucasus and Central Asia During Globalization”, Baku, 2003.
129. Wallerstein I. Geopolitics and Geoculture. Essays on the Changing World-System, Cambridge University Press, 1992.
130. World History. Combined Edition, USA, West Publishing Company, 1991.

Dr.Rahid S.Ulusel

# GLOBALIZATION AND TURKISH CIVILIZATION (Baku: AzAtaM, 2005, 152 p.)

## Summary

In this book the author investigates the distinguishable situation, the problem of the unity of historicity and contemporaneity of Turkish civilization in the context of global processes of modern world development. The process of evolution of Turkish civilization is studied through a new conception of global view to the world history. The main attention is directed to the importance of Turkish civilization in the interaction of the Eastern and Western civilizations. The pecularities of Turkish culture are appreciated here. The necessity of creating and ulitizing the common political and cultural strategies of the world Turkish national states including their imperatives are put forward by the author. The main results of the investigation are the followings:

I. While classifying the world civilizations in modern civilizational theories Turkish civilization with definite political and cultural considerations are deliberately kept beyond the attention and this displays the manifestation of unscientific approach to the problem. Whereas Turkish civilization playing an important role in Euroasian history deserves to be studied together with all historical and modern civilizations by its identical complex. Turkish civilization being of the same age with historical time is one of the distinguishable civilizations of the world. Turkish civ-



ilization had existed not in the separate manifestational, but in the systematic form. The generational changes of civilizations have taken place in the historical life of planet and some of them obliterated from the earth or vanished among other civilizations. But Turkish civilization was the determinant of the generational changes of civilizations along Euroasia and it had derived advantage from these changes or impulsed newly born civilizations.

II. In the existed civilizational theories Turkish civilization - inside Islamic civilization is presented as its subcivilization. These theoretical conceptions are erroneous, because while approaching a question from this position at least thousand years historical development of the Turks till Islam are not taken into consideration. Whereas the Turks have declared themselves the owners of the great statehood, material and moral cultures in its history till Islam. The historical self-understanding of Euroasia as the entire global space has been realized thanks to the domination of Turkish civilization. Turkish civilization is entire with the sequence and inheritance till Islam and of Islam and modern history.

III. Globalization necessitates the participation of each civilization with their identical complexes in the intercivilizational relations. The subjects having any substantial selections are in danger of going with the common stream and dissappearing in these global integrational processes. The internal integration proving the existence of Turkish civilization has to conform and unite with the most dynamic processes of the world development towards global civilization.

IV. The integrity of the Turkic world and its perception in the common civilizational organics depend upon the level of the relations among Turkey-

Azerbaijan and Turkic states of Central Asia and the constant improvement of this standard. At present new, close stages on the alliance of the historical development of Turkish and Azerbaijan relations have taken place. A new strategy taking into cosideration the very political orientation of contacts with the world countries have to be prepared in the context of these relations. Acting by common political and cultural strategies Turkic states and nations have to coordinate their interests in this strategy and transfer it into one of the leading tendencies of modern world development.

V. The ethno-genetic foundation, the great civilizational resources, the traditional ethno-cultural relations that continued along history and unlost, protected, developed common values in the historical differential processes of Turkic nations remain in the root of the idea of unity on the World Turkish states. The integrity of Turkic world is the main term of protecting, strengthening the independence and developing national cultures of each Turkic states. The harmony of Turkish national cultures realizes with the immortalization of their independent complex and organic in general Turkish culture.



*Rahid S. Ulusel*

# Qloballaşma və Türк Sivilizasiyası

Nəşriyyatın direktoru Eldar Əliyev
Mətbəənin direktoru Səhraf Mustafayev
Texniki redaktoru Fərid Kərimov
Kompüter dizaynı Eldəniz Xocayev

Yığılmağa verilib 17.02.2005. Çapa imzalanıb 12.03.2005.
Formatı 60x90 1/16. F.ç.v. 9,5. Ş.ç.v.9,5.
Sifariş № 308. Sayı 500 nüsxə. Qiyməti müqavilə ilə.

*"Çaşıoğlu"* mətbəəsi
Bakı ş., M.Müşfiq küç., 2a.
Telefon: 447-49-71

Qeyd üçün